RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 86 (9541) 28 aprel 2024-cü il BAZAR

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

# Qlobal liderdən həmrəylik çağırışı



## İlham Əliyev Almaniyada Azərbaycanın mövcud potensialını dəyərləndirərək yeni hədəflərini göstərdi

İlham Əliyevin uğurlu xarici siyasəti sayəsində Azərbaycan dünyada böyük etimad qazanaraq nüfuzlu dövlətə çevrilib. Bu gün Azərbaycan söz və nüfuz sahibi kimi qlobal proseslərdə aktiv mövqeyi ilə seçilir. Bu reallığı əks etdirən çoxsaylı faktlar mövcuddur.

Azərbaycanın bugünkü reallıqlarına nəzər salaraq görmək olar ki, ölkəmiz, sözün əsl mənasında, müstəqil dövlət kimi dünya xəritəsində öz yerini tuta bilib. Bütün regional məsələlərdə fəal iştirak edən Azərbaycan sabitlik və inkişaf amilinə çevrilib. İlham Əliyevin beynəlxalq aləmdə artan nüfuzu həm ölkəmizi gücləndirir, həm də regionda gedən proseslərə çox müsbət təsir göstərir. Azərbaycan Prezidenti hər zaman qlobal liderlik keyfiyyətini və təşəbbüskarlığını ortaya qoyaraq çox mühüm ideyalar irəli sürür və bu gün də onun təşəbbüsü ilə reallaşan transmilli layihələr ölkəmizə iqtisadi-siyasi dividendlər qazandırır.

Bütün bunlar Azərbaycanın beynəlxalq münasibətlər sistemində rolunun artmasına böyük təsir göstərməklə yanaşı, İlham Əliyevin də beynəlxalq aləmdə şəxsi nüfuzunun artmasına gətirib çıxarıb, cənab Prezidentin regionda mübaliğəsiz lider olduğunu isbat edib.

Xüsusilə qeyd etməliyik ki, İlham Əliyev təkcə regional məsələlərdə deyil, mahiyyətindən asılı olmayaraq dünya miqyasında baş verən qlobal hadisələr zamanı qətiyyətli mövqe nümayiş etdirir. Dövlət başçısının təşəbbüsləri qlobal miqyasda beynəlxalq həmrəyliyin və əməkdaşlığın möhkəmləndirilməsi istiqamətində mühüm nümunədir.

Məhz bütün bunlara görə dünya siyasətinin aparıcı qurumları, həmçinin mötəbər beynəlxalq təşkilatlar Azərbaycanın mütərəqqi xarici siyasətini regional təhlükəsizlik və qlobal inkişafa mühüm töhfə kimi qiymətləndirirlər və ölkəmizlə əməkdaşlığa böyük önəm verirlər.

→ 3

# Azərbaycan ilə Qırğızıstanın dostluğu və qardaşlığı əbədidir



Tarixə nəzər yetirəndə görürük ki, Azərbaycanın Orta Asiyanın türk dövlətləri ilə əlaqələri həmişə geniş olub. Bütün türk dövlətləri ilə əməkdaşlığın daim inkişaf etdirilməsi respublikamızın xarici siyasətinin prioritet istiqamətlərindəndir. Azərbaycan ilə Qırğızıstan münasibətləri qədim tarixə malikdir. Belə ki, azərbaycanlılar və qırğızlar eyni kökə, mədəniyyətə və ənənələrə malikdirlər. Bundan başqa, bu xalqları dil və din eyniliyi də birləşdirir. Azərbaycanla Qırğızıstan arasında diplomatik əlaqələr 1993-cü ilin yanvar ayında qurulmuşdur. 1996-cı ilin ortalarında Azərbaycan Respublikasının Qırğızıstan Respublikasında, 1998-ci ilin may ayında Qırğızıstan Respublikasının Azərbaycan Respublikasında səfirlikləri fəaliyyətə başladı. İkitərəfli münasibətlərin inkişafında dövlət başçılarının səfərləri xüsusilə böyük əhəmiyyətə malikdir. Prezident İlham Əliyevin rəhbərliyi dövründə Azərbaycan-Qırğızıstan münasibətləri yeni inkişaf mərhələsinə qədəm qoyub. Azərbaycan bütün türkdilli dövlətlərlə olduğu kimi, Qırğızıstanla da geniş siyasi-iqtisadi və mədəni əlaqələrini getdikcə genişləndirir. Hər iki ölkənin məqsədi türk dünyasının inkişafına, siyasi və mədəni birliyinə yeni töhfələr verməkdir.

→ 3

# Delimitasiya davam edir



Prezident İlham Əliyevin Almaniyada mətbuat konfransında vurğuladığı kimi, Cənubi Qafqazda dayanıqlı sülhə nail olunması üçün əməli işlər görülür. İki ölkə rəsmiləri problemləri masa arxasında həll edərək razılaşmaya gəlirlər.

Bunun nəticəsidir ki, artıq delimitasiya və demarkasiya işlərinə də başlanılıb. Baş nazirin müavini Şahin Mustafayevin Xidmətinin məlumatına əsasən, Azərbaycanla Ermənistan arasındakı sərhəddə koordinatların dəqiqləşdirilməsi işləri çərçivəsində aparılan geodeziya ölçmələri əsasında nəzərdə tutulan işlərin təxminən 35 faizi 2024-cü il aprelin 26-dək yerinə yetirilib, 28 sərhəd dirəyi quraşdırılıb. Hər iki dövlətin ekspert qruplarının işi davam edir.

Göründüyü kimi, Ermənistan və Azərbaycan heç bir vasitəçiyə ehtiyac görmədən birgə qarşılıqlı anlaşma şəraitində dil tapıb məsələni həll etdilər. Hadisələrin bu məcrada inkişafı isə tezliklə bölgədə dayanıqlı sülhə nail olunacağına böyük inam yaradır.

Almaniya Federativ Respublikasının Kansleri Olaf Şoltsla birgə keçirdiyi mətbuat konfransında "Regional təhlükəsizliyə gəldikdə, Azərbaycan ilə Ermənistan arasında gedən sülh danışıqlarını biz yüksək qiymətləndiririk", - deyən Prezident İlham Əliyev qeyd etdi ki, sülhə nail olmaq üçün çox yaxşı fürsətlər var. Dövlət başçısı onu da qeyd etdi ki, bütün bu işdə bizə kömək etmək istəyən ölkələrlə əməkdaşlıq etməyə hazırıq: "Ümid edirik ki, çox vaxt keçmədən bu istiqamətdə də müsbət addımlar atılacaq".

→ 4

# Şəxsiyyəti də, peşəsi də işıqlı idi



Xəstələrə dünya işığı bəxş etmiş Zərifə xanım Əliyeva gələcəyimiz olan uşaqları bir ana kimi sevir, onlara xüsusi qayğı və nəvazişlə yanaşırdı. O deyirdi ki, uşaqlıq çağları hər bir kəsin özünü dərk etməsində həlledici mərhələdir və ömrü boyu müraciət etdiyi uşaqlıq dünyasını heç nə ilə əvəz etmək mümkün deyil, insan məhz uşaqlıqda xeyrin və şərin nə olduğunu anlayır. Zərifə xanım həm gözəl dost, həm də yaxşı sirdaş idi. Dostlarının yalnız yaxşı deyil, pis günlərində də yanlarında olur, dərdlərini öz dərdi kimi qəbul edirdi. Bir çoxları bu nəcib insanı çox savadlı, diqqətli, mərhəmətli və mehriban həkim və elm xadimi olmaqla yanaşı, həm də yaxşı bir dost kimi xatırlayırlar.

Onun bir insan, həkim kimi portretini çəkmək, nurlu simasını canlandırmaq istəyən hər bir kəs dünya oftalmologiya elminin tanınmış simalarının söylədikləri tarixi fikirlərə mütləq nəzər salmalıdır.

Görkəmli oftalmoloq, akademik A.Nesterov deyib: "Zərifə Əliyeva çox ağıllı insan və böyük professional idi. Mən onu öz sahəsinin məşhur alimi hesab edirəm. Oftalmologiyada o, birnömrəli idi". Akademik N.Puçkovskaya "xeyirxahlıq Zərifə xanımın həyat tərzi idi" deyərək, alimin yüksək insani keyfiyyətlərə malik olduğunu vurğulayıb. Professor A.Brovkina onu "nəciblik və mənəvi paklıq timsalı" adlandırıb. Professor V.V.Şmelyeva demişdir: "Əgər mən peşəkar ədəbiyyatçı kimi Zərifə xanım Əliyeva haqqında əsər yazmalı olsaydım, heç şübhəsiz ki, onu "Əvəzolunmaz insan haqqında povest" adlandırardım".

→ 5

# Azərbaycanın "yaşıl gündəliyi" artıq bəllidir




COP29-a evsahibliyi etməyi ölkəmiz özü üçün böyük şərəf sayır. Lakin bu həm də məsuliyyətdir. İndi Azərbaycan bu qlobal tədbirə evsahibliyi edəcək ölkə kimi hazırlığın fəal mərhələsindədir. Artıq COP29-a az vaxt qalır. Odur ki, yaxşı nəticələrə nail olmaq üçün əlimizdən gələni edirik. "Yaşıl gündəliyimiz" də artıq dünyaya bəllidir. Əslində, Azərbaycanın bu gündəliyi hələ COP29 qərarından əvvəl icra olunmağa başlanıb. Xarici tərəfdaşlar və sərmayədarlarla "yaşıl keçid" üzrə nəhəng layihələrə start verilib. 2024-cü il ölkəmizdə "Yaşıl dünya naminə həmrəylik ili" elan edilib.

Təkcə bu il 1300 meqavat günəş və külək enerjisini istehsal etmək gücü olan stansiyaların təməli qoyulacaq. 2027-ci ilin sonuna qədər isə 2000 meqavat "yaşıl enerji"miz olacaq. Həmin vaxta qədər 9 günəş və külək-elektrik stansiyası istismara veriləcək. 2030-cu ilə qədər isə əlavə olaraq 10 günəş və külək enerjisi stansiyaları qurulacaq ki, onların da gücü 5000 meqavat (5 qiqavat) təşkil edəcək. Bu potensial qaz istehlakının əksər hissəsini elektrik enerjisi ilə əvəzləməyə imkan verəcək. Nəticədə Avropaya ən azı əlavə 5 milyard kubmetr qaz ixrac etmək mümkün olacaq.

→ 6

## "Dövlət əmlakının özəlləşdirilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 13-cü bəndini rəhbər tutaraq, "Kosmik fəaliyyət haqqında" Azərbaycan Respublikasının 2023-cü il 24 iyun tarixli 927-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alır:**

"Dövlət əmlakının özəlləşdirilməsi haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (I kitab), maddə 580 (Cild I) 6.2.1-ci maddəsindən ", geostasionar orbitlərdəki peyk rabitəsi vasitələri" sözləri çıxarılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 5 aprel 2024-cü il*

## "Azərbaycan Respublikasının Hökuməti və "ACWA Power Azerbaijan Renewable Energy" Məhdud Məsuliyyətli Cəmiyyəti arasında "Dəyişikliklər edilmiş və yenidən tərtib olunmuş İnvestisiya müqaviləsi"nin təsdiq edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Qoyuluş gücü 240 MVt olan külək-elektrik stansiyasının tikintisi ilə bağlı pilot layihənin həyata keçirilməsinə dair əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 20 fevral tarixli 12 nömrəli Sərəncamının icrası ilə əlaqədar **qərara alıram:**

1. 2024-cü il 29 fevral tarixində imzalanmış "Azərbaycan Respublikası Hökuməti və "ACWA Power Azerbaijan Renewable Energy" Məhdud Məsuliyyətli Cəmiyyəti arasında "Dəyişikliklər edilmiş və yenidən tərtib olunmuş İnvestisiya müqaviləsi" təsdiq edilsin.

2. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 aprel 2024-cü il*

## Türk İnvestisiya Fondunun Rəhbərlər Şurasında Azərbaycan Respublikasının təmsil edilməsi ilə bağlı bəzi məsələlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Türk İnvestisiya Fondunun yaradılması haqqında" Sazişin təsdiq edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 30 may tarixli 874-VIQ nömrəli Qanununa uyğun olaraq **qərara alıram:**

1. Türk İnvestisiya Fondunun Rəhbərlər Şurasında Azərbaycan Respublikasından Rəhbər Azərbaycan Respublikasının iqtisadiyyat naziri, alternativ Rəhbər isə Azərbaycan Respublikasının maliyyə naziri təyin edilsin və onlara həmin fondda Azərbaycan Respublikasını təmsil etmək səlahiyyəti verilsin.

2. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 aprel 2024-cü il*

## Sahibkarlıq fəaliyyəti sahəsində fərqlənən şəxslərin "Tərəqqi" medalı ilə təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının iqtisadi inkişafına verdikləri töhfəyə və sahibkarlıq sahəsində səmərəli fəaliyyətlərinə görə aşağıdakı şəxslər "Tərəqqi" medalı ilə təltif edilsinlər:

Abdullayeva İlhamə Xanlar qızı
Abuşov İlkin Əlimövsüm oğlu
Ağazadə İlqar Bəhruz oğlu
Bədəlov Mustafa Soltan oğlu
Cavanşir Elman Bəşir oğlu
Əhmədova Afət Adil qızı
Hacıyev Sultanhəmid Hacı oğlu
Hüseynov Yaşar Mirzəxan oğlu
İsmixanlı Ramin Sultan oğlu
Məmmədov Emin Ruslan oğlu
Məmmədov Fuad Nadir oğlu
Məmmədov Seymur Mikayıl oğlu
Rzayev Emin Əjdər oğlu
Tabasaranskiy Kənan Fikrət oğlu.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 aprel 2024-cü il*

## Pakistanın hərbi təhsil üzrə nümayəndələrinə Azərbaycan Ordusundakı islahatlar barədə məlumat verilib

**Azərbaycanda səfərdə olan Pakistan İslam Respublikası Hərbi Hava Qüvvələrinin Hərbi Akademiyasının rəhbər heyəti və bir qrup dinləyicisi Müdafiə Nazirliyinin Milli Müdafiə Universitetini ziyarət ediblər.**



Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, nümayəndə heyətinə 44 günlük Vətən müharibəsində qazanılan şanlı qələbədən sonra Prezident, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin göstərişinə əsasən Azərbaycan Ordusunda hərbi təhsil sahəsində aparılan islahatlar, tətbiq olunan texnoloji yeniliklərdən danışılıb.

Pakistan nümayəndə heyətinə Milli Müdafiə Universitetinin yaranma tarixi, təhsil sistemi və tədris prosesi, eləcə də elmi fəaliyyəti haqqında brifinq təqdim olunduqdan sonra onları maraqlandıran suallar cavablandırılıb.

Görüşdə hərbi təhsil ilə bağlı qarşılıqlı maraq doğuran bir sıra məsələlər ətrafında fikir mübadiləsi aparılıb. Sonda qarşılıqlı hədiyyələr təqdim olunub.

## "Dəniz Komando Təməl kursu"nun buraxılış mərasiminə qazaxıstanlı hərbçilər də qatılıblar

**Aprelin 27-də Hərbi Dəniz Qüvvələrinin (HDQ) hərbi hissəsində Qazaxıstan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının iştirakı ilə "Dəniz Komando Təməl kursu"nun növbəti buraxılış mərasimi keçirilib.**



Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, təntənəli mərasimdə müdafiə nazirinin birinci müavini - Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyev, Qazaxıstanın müdafiə nazirinin birinci müavini - Qazaxıstan Respublikası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi general-leytenant Sultan Kamaletdinov, eləcə də türkiyəli və qazaxıstanlı hərbi qulluqçular iştirak ediblər.

Əvvəlcə hərbi hissənin ərazisində şəhidlərin xatirəsinə ucaldılmış abidə önünə gül dəstələri düzülüb, dərin hörmət və ehtiram nümayiş etdirilib.

Buraxılış mərasimində Ulu Öndər Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü uğrunda canını qurban verən şəhidlərin xatirəsi birdəqiqəlik sükutla anılıb. Azərbaycanın və Qazaxıstanın Dövlət himnləri səsləndirilib.

Azərbaycan Ordusunun və Qazaxıstan Silahlı Qüvvələrinin Baş Qərargah rəisləri tədbirdə çıxış edərək bacarıqlı və peşəkar hərbi kadrların yetişdirilməsində belə kursların və təlimlərin əhəmiyyətini qeyd ediblər.

Eyni zamanda Azərbaycan və Qazaxıstan dəniz piyadalarının birgə təlimlərdə iştirakı və yüksək peşəkarlıq nümayiş etdirməsi müsbət qiymətləndirilib. Bildirilib ki, cari ildə Qazaxıstanın Aktau şəhərində keçiriləcək "Birləşdik-2024" əməliyyat-taktiki komanda-qərargah təlimində Azərbaycan Ordusunun bütün qoşun növlərindən bir qrup hərbi qulluqçu, həmçinin aviasiya vasitələri və hərbi gəmiləri iştirak edəcək.

Hərbi Dəniz Qüvvələrinin dəniz poliqonu və treninq mərkəzində azərbaycanlı və türkiyəli təlimatçılar tərəfindən keçirilən hərbi qulluqçuların xüsusi hazırlıq dərsləri təqdirəlayiq hesab edilib.

General-polkovnik K.Vəliyev kursun yüksək səviyyədə təşkilinə və keçirilməsinə görə peşəkar təlimatçılara təşəkkürünü bildirib, kursu uğurla bitirən məzunları təbrik edərək onlara gələcək xidmətlərində uğurlar arzulayıb.

Sonra kurs birincisi tərəfindən rəmzi yaş kötüyünə emblem vurulub, məzunlara sertifikatlar təqdim edilib, habelə fərqlənən bir qrup hərbi qulluqçu və təlimatçı mükafatlandırılıb.

Rəsmi hissə başa çatandan sonra dəniz piyadaları və xüsusi təyinatlılarının istifadəsində olan müasir silahlar, döyüş və nəqliyyat vasitələri nümayiş etdirilib.

Sonra dəniz xüsusi təyinatlılarının taktiki-xüsusi məşğələləri, həmçinin sualtı hücum və sualtı müdafiə bölmələrinin dalğıclarının nümunəvi çıxışları izlənilib.

## Milli Məclisin nümayəndə heyəti Monteneqroda "Partizan döyüşçüsü" abidəsini ziyarət edib

**Milli Məclisin Sədri Sahibə Qafarovanın başçılıq etdiyi parlament nümayəndə heyəti Monteneqroya rəsmi səfər çərçivəsində paytaxt Podqoriça şəhərində "Partizan döyüşçüsü" abidəsini ziyarət edib.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, Milli Məclisin Sədri adından abidənin önünə əklil qoyulub.

***"Azərbaycan"***

## Monteneqro Azərbaycan üçün dost və tərəfdaş ölkədir

**Milli Məclisin Sədri Sahibə Qafarova Monteneqro Respublikasına rəsmi səfəri çərçivəsində bu ölkənin Prezidenti Yakov Milatoviç ilə görüşüb.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, Azərbaycan Prezidenti İlham Əliyevin salamlarını Monteneqronun dövlət başçısına çatdıran Milli Məclisin Sədri Sahibə Qafarova ölkəmizdə keçiriləcək COP29-da iştirak etmək üçün dəvət məktubunu təqdim edib.

Prezident Yakov Milatoviç Azərbaycanın Monteneqro üçün dost ölkə olduğunu vurğulayaraq, dövlətlərarası münasibətlərin inkişaf etdiyini söyləyib. Azərbaycanın Monteneqronun əsas investorlarından biri olduğunu söyləyən Yakov Milatoviç xüsusilə turizm sahəsində əməkdaşlığın yüksək səviyyəsindən razılığını ifadə edib.

Azərbaycanın BMT-nin İqlim Dəyişikliyi Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası - COP29-a evsahibliyi etməsi münasibətilə təbriklərini çatdıran Prezident Yakov Milatoviç Dubayda keçirilən COP28 çərçivəsində Azərbaycan Prezidenti İlham Əliyevlə görüşünü məmnunluqla xatırlayıb.

O, bu il ölkəmizdə keçirilən prezident seçkilərində dövlət başçısı İlham Əliyevin qələbəsi münasibətilə təbriklərini çatdırıb. Bildirilib ki, Monteneqro parlamentinin üzvləri də bu seçkiləri müşahidə ediblər. Monteneqronun Azərbaycan üçün dost və tərəfdaş ölkə olduğunu qeyd edərək bildirib ki, ötən il iki ölkə arasında diplomatik əlaqələrin yaradılmasının 15-ci ildönümü tamam olub. Ötən dövrdə ölkələrimiz arasında bir sıra sahələrdə uğurlu əməkdaşlıq əlaqələri qurulub.

Görüşdə ölkələrimiz arasında müqavilə - hüquq bazasının daha da genişləndirilməsi, yeni sazişlərin imzalanmasının əhəmiyyəti vurğulanıb. Qeyd olunub ki, İqtisadi əməkdaşlıq komissiyasının işinin gücləndirilməsi bu sahədə münasibətlərin daha da genişləndirilməsinə təkan verəcək. Söhbət zamanı humanitar sahədə də əlaqələrin, insanlar arasında təmasların gücləndirilməsinin əhəmiyyətindən danışılıb.

Görüşdə ölkələrimiz arasında münasibətlərin inkişafında parlamentlərarası əməkdaşlığın əhəmiyyəti qeyd olunub. Həmçinin hazırda dünyada ikili standartların mövcud olduğu şəraitdə beynəlxalq təşkilatlar, o cümlədən parlamentlərarası təsisatlar çərçivəsində ölkələrimizin qarşılıqlı dəstəyinin vacibliyi vurğulanıb.

Sahibə Qafarova bu ilin yanvar ayında Azərbaycan Milli Məclisinin Avropa Şurası Parlament Assambleyasında nümayəndə heyətinin etimadnaməsinin təsdiqlənməməsinə toxunaraq Monteneqronun bu səsvermədə iştirak etməməsini xatırladıb. Spiker Avropa Parlamentinin ölkəmizə qarşı qəbul etdiyi qərəzli qətnamələri tənqid edib.

Söhbət zamanı bəzi beynəlxalq təşkilatlarda Azərbaycana qarşı müşahidə olunan qərəzli kampaniyalara və təzyiqlərə toxunan Milli Məclisin Sədri deyib ki, Azərbaycan öz yolu ilə gedir. O, sülh sazişinin tezliklə imzalanacağına ümidvar olduğunu bildirərək, iki ölkə arasında delimitasiya prosesi barədə də məlumat verib. Bildirilib ki, aparılan danışıqlar nəticəsində Ermənistan işğal etdiyi 4 kəndin Azərbaycana qaytarılmasına razılıq verib.

Sahibə Qafarova həmçinin Fransanın regionumuzda gərginliyi artırmaq məqsədi daşıyan addımları barədə də məlumat verərək deyib ki, bu ölkə sülhə xidmət etməyən, yeni münaqişənin alovlanmasına hesablanmış yanaşma ortaya qoyur.

Milli Məclisin Sədri regionda nəqliyyat xətlərinin açılması perspektivləri ilə bağlı fikirlərini qeyd edib. O deyib ki, nəqliyyat və kommunikasiyaların bərpası bütün regiona fayda gətirəcək. Hazırda Qarabağ və Şərqi Zəngəzurda genişmiqyaslı bərpa və yenidənqurma işlərinin həyata keçirildiyini bildirən spiker Sahibə Qafarova deyib ki, həmin ərazilərdə yeni şəhərlər, kəndlər salınır. O, Azərbaycanın etibarlı enerji təchizatçısı kimi Avropanın enerji təhlükəsizliyində rolu barədə də danışıb.

Prezident Yakov Milatoviç Azərbaycan və Ermənistan arasında sülh sazişinin imzalanacağına ümid etdiyini bildirib və qeyd edib ki, bu, regionun inkişafına töhfə verəcək.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər barədə də fikir mübadiləsi aparılıb.

Sonda Milli Məclisin Sədri "Qarabağ işğaldan əvvəl və sonra" kitabını Monteneqro Prezidentinə təqdim edib.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

## Hərbçilərimiz İtaliyada beynəlxalq dənizçilik yarışlarında iştirak edirlər

**Azərbaycan Hərbi Dəniz Qüvvələrinin bir qrup hərbi qulluqçusu İtaliya Respublikasının Livorno şəhərində keçiriləcək beynəlxalq dənizçilik yarışlarında iştirak etmək məqsədilə həmin ölkədə səfərdədir.**



Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, səfər çərçivəsində hərbi qulluqçularımız İtaliyanın Hərbi Dənizçilik Akademiyasının komandanlığı və Livorno şəhərinin meri ilə görüşüblər.

Həmçinin təmsilçilərimiz digər iştirakçı ölkələrin nümayəndələri ilə birgə parad və yarış bayraqlarının təhvil-təslim mərasimində, eləcə də yarışa hazırlıq məqsədilə keçirilən dəniz məşqlərində iştirak ediblər.

# Azərbaycanın xarici siyasətinin uğurları



## Qlobal liderdən həmrəylik çağırışı

### İlham Əliyev Almaniyada Azərbaycanın mövcud potensialını dəyərləndirərək yeni hədəflərini göstərdi

**Tarixinin ən qüdrətli Azərbaycanının mühüm geosiyasi uğurlarından biri dünya birliyində güclü mövqeyə malik olması, beynəlxalq aləmdə söz sahibinə çevrilməsidir. Hazırda Azərbaycan regionda və dünyada öz mövqelərini sürətlə möhkəmləndirən, sosial-iqtisadi baxımdan inkişaf edərək Avroatlantik məkana inteqrasiya olunan ölkədir.**

Bununla yanaşı, müstəqil Azərbaycan həm qüdrətli, həm də dünya miqyasında etibarlı tərəfdaş kimi tanınır. Bütün bu uğurların yeganə səbəbi isə əlbəttə ki, ölkə lideri İlham Əliyevin yürütdüyü tam müstəqil siyasətdir.

#### Artan beynəlxalq nüfuz, verilən yüksək dəyər

Azərbaycana rəhbərlik etdiyi 21 ildə İlham Əliyev elə bir dövlət yaradıb ki, özünün də söylədiyi kimi, ölkəmiz mövcudluq tarixində heç zaman indiki kimi qüdrətli, güvənli, istiqrarlı olmayıb. Bu gün Azərbaycan siyasi-iqtisadi meyar və parametrlər üzrə kimdənsə asılı deyil. Hətta ölkəmiz istər xarici borc, istər iqtisadi artım, istərsə də adambaşına düşən valyuta ehtiyatları baxımından iqtisadi sahədə ən qabaqcıl yerlərdədir. İqtisadi müstəqillik isə siyasi müstəqilliyin möhkəmləndirilməsi baxımından əsas şərtdir. Bu uğurlar isə İlham Əliyevin mütərəqqi iqtisadi islahatlarının bəhrəsidir desək, yanılmarıq.

Məhz İlham Əliyevin uğurlu xarici siyasəti sayəsində Azərbaycan dünyada böyük etimad qazanaraq nüfuzlu dövlətə çevrilib. Bu gün Azərbaycan söz və nüfuz sahibi kimi qlobal proseslərdə aktiv mövqeyi ilə seçilir. Bu reallığı əks etdirən çoxsaylı faktlar mövcuddur.

Azərbaycanın bugünkü reallıqlarına nəzər salaraq görmək olar ki, ölkəmiz sözün əsl mənasında müstəqil dövlət kimi dünya xəritəsində öz yerini tuta bilib. Bütün regional məsələlərdə fəal iştirak edən Azərbaycan sabitlik və inkişaf amilinə çevrilib.

İlham Əliyevin beynəlxalq aləmdə artan nüfuzu həm ölkəmizi gücləndirir, həm də regionda gedən proseslərə çox müsbət təsir göstərir. Azərbaycan Prezidenti hər zaman qlobal liderlik keyfiyyətini və təşəbbüskarlığını ortaya qoyaraq çox mühüm ideyalar irəli sürür və bu gün də onun təşəbbüsü ilə reallaşan transmilli layihələr ölkəmizə iqtisadi-siyasi dividendlər qazandırır.

Bütün bunlar Azərbaycanın beynəlxalq münasibətlər sistemində rolunun artmasına böyük təsir göstərməklə yanaşı, İlham Əliyevin də beynəlxalq aləmdə şəxsi nüfuzunun artmasına gətirib çıxarıb, cənab Prezidentin regionda mübaliğəsiz lider olduğunu isbat edib.

Xüsusilə qeyd etməliyik ki, İlham Əliyev təkcə regional məsələlərdə deyil, mahiyyətindən asılı olmayaraq dünya miqyasında baş verən qlobal hadisələr zamanı qətiyyətli mövqe nümayiş etdirir. Dövlət başçısının təşəbbüsləri qlobal miqyasda beynəlxalq həmrəyliyin və əməkdaşlığın möhkəmləndirilməsi istiqamətində mühüm nümunədir.

Məhz bütün bunlara görə dünya siyasətinin aparıcı qurumları, həmçinin mötəbər beynəlxalq təşkilatlar Azərbaycanın mütərəqqi xarici siyasətini regional təhlükəsizlik və qlobal inkişafa mühüm töhfə kimi qiymətləndirirlər və ölkəmizlə əməkdaşlığa böyük önəm verirlər.

İlham Əliyevin Avropa liderlərinin dəvəti ilə ən mötəbər tədbirlərə dəvət alması, yüksək tribunalardan çıxışı, ən yüksək səviyyədə qarşılanması ölkəmizin artan nüfuzunun bariz nümunəsidir. İstər Davos İqtisadi Forumu, istər Münxen Təhlükəsizlik Konfransı, istərsə də digər beynəlxlaq təşkilatların toplantılarında iştirakı bir daha sübut edir ki, dünya ölkələri Azərbaycanla əməkdaşlığa böyük maraq göstərir, İlham Əliyevi sözünün sahibi, etibarlı tərəfdaş və qətiyyətli lider hesab edirlər.

Bu gün elə bir qlobal toplantı yoxdur ki, Azərbaycan Prezidenti həmin mərasimə dəvət edilməsin. Almaniya Federativ Respublikasının Federal Kansleri Olaf Şoltsun dəvəti ilə İlham Əliyevin "15-ci Petersberq İqlim Dialoqu"nun Yüksək Səviyyəli Seqmentində iştirak etmək üçün aprelin 25-də Füzuli şəhərindən Almaniyaya işgüzar səfərə getməsi, Berlində yüksəksəviyyəli görüşlərin keçirilməsi deyilənlərin təsdiqidir.

#### Qısa zamanda əldə edilən nailiyyətlər

Almaniya səfərində İlham Əliyev öncə bu ölkənin Kansleri Olaf Şolts ilə təkbətək, sonra isə geniş tərkibdə görüş keçirdi. Sonra dövlət başçısı Berlində keçirilən "15-ci Petersberq İqlim Dialoqu"nun Yüksək Səviyyəli Seqmentində iştirak etdi.

Prezident Azərbaycanın yekdil qərarla COP29-a evsahibliyi edəcək ölkə kimi seçilməsini böyük şərəf adlandıraraq dedi ki, bu, beynəlxalq ictimaiyyətin ölkəmizə və görülən işlərə, o cümlədən "yaşıl enerji" sahəsindəki fəaliyyətə hörmətin əlaməti hesab edilir. Məhz Azərbaycanın müxtəlif beynəlxalq təşkilatlarla əlaqələri və onlarda fəal iştirakı ölkəmizə müxtəlif qitələrin dövlətləri arasında körpülər salmaq və ya onları gücləndirmək, eləcə də onların həmrəyliyini möhkəmləndirmək imkanını yaradacaq.

Mötəbər toplantıda Azərbaycanın bu gün nəyə sahib və qadir olduğunu diqqətə çatdıran İlham Əliyev əldə edilənləri yetərincə dəyərləndirdi və mövcud potensialdan necə istifadə ediləcəyinin istiqamətlərini göstərdi.

Bəs əldə edilən uğurlar, görülən işlər nədən ibarətdir?

- Azərbaycanın 120 ölkəni birləşdirən Qoşulmama Hərəkatına dörd il uğurlu sədrliyi;
- Bu müddətdə Azərbaycanın ortaya qoyduğu təşəbbüslərin uğurlu nəticələri səbəbindən sədrliyin bir il də uzadılması;
- COVID-19-a təsadüf edən sədrlik dövründə 80-dən artıq ölkəyə humanitar, maliyyə və texniki yardımın göstərilməsi;
- Avropa İttifaqının doqquz üzvü ilə "Strateji Tərəfdaşlıq" haqqında razılaşmalar və bəyannamələrin imzalanması;
- Aİ və Azərbaycan arasında enerji sahəsində Strateji Tərəfdaşlıq haqqında Anlaşma Memorandumunun imzalanması;
- Xarici tərəfdaşlar və sərmayədarlarla "yaşıl keçid" üzrə artıq nəhəng layihələrə başlanılması.

#### Mövcud potensial və qarşıya qoyulan məqsədlər

İlham Əliyev dedi ki, məhz bu nailiyyətlər, beynəlxalq əlaqələr məhz həmrəyliyi gücləndirməyə imkan verəcək: "Bizə məhz bu lazımdır. Bizə maliyyə lazımdır. Bizə həmrəylik lazımdır və bizə ortaq məsuliyyət lazımdır".

Ölkəmizin mövcud imkanlarını da dəyərləndirən dövlətimizin başçısı bildirdi ki, Azərbaycan faydalı qazıntı ilə zəngin olan ölkə kimi OPEC+ platformasının üzvüdür və bu da əlavə üstünlükdür. Çünki təbii sərvətləri, xüsusən də neft və qazı zəngin olan ölkə iqlim dəyişmələri məsələlərinin həllində ön cərgədə olmalıdır.

Beləliklə, həmin müxtəlif rollar yaxşı həmrəylik ruhunu yaradacaq və qarşıya qoyulan məqsədlərə nail olmağa imkan verəcək.

Mövcud potensial necədir və qarşıya qoyulan məqsədlər hansılardır?

- Hazırda təbii qaz ixracının yarısı, xüsusən də 12 milyard kubmetri Avropa İttifaqının bazarına gedir;
- Dənizdə külək enerjisi üzrə təsdiqlənmiş ehtiyatlarımız 157 qiqavatdır;
- Azərbaycan Qara dənizin dibi ilə kabeli çəkmək üçün texniki əsaslandırma işlərinin son mərhələsindədir;
- Bu kabel 4 qiqavat həcmində Azərbaycanın "yaşıl enerji"sini Avropaya ixrac etmək imkanını yaradacaq;
- İmzalanan memoranduma əsasən, 2027-ci ilə qədər Aİ-yə ixrac 20 milyard kubmetrə çatmalıdır;
- 2024-cü ildə 1300 meqavat Günəş və külək enerjisini istehsal etmək imkanını yaradacaq enerji stansiyalarının təməlqoyma mərasimi keçiriləcək;
- 2027-ci ilin sonuna qədər Azərbaycanın 2000 meqavat günəş və "yaşıl enerji" imkanları olacaq;
- Doqquz elektrik enerjisi stansiyası yaradılacaq;
- 2030-cu ilə qədər əlavə 10 günəş və külək enerjisi stansiyaları qurulacaq ki, onların gücü 5000 meqavat (5 qiqavat) təşkil edəcək;
- Bu potensialdan istifadə edərək, Azərbaycan qaz istehlakını əksər hissədə elektrik enerjisi istehsalı ilə əvəzləyəcək;
- Avropaya ən azı əlavə 5 milyard kubmetr qaz ixrac olunacaq.

Azərbaycan Prezidenti həmçinin dedi ki, ölkəmiz qaz hasilatının artırılmasına böyük həcmdə sərmayə yatırır və Avropaya yeni mənbələrdən daha çox qaz lazımdır. Eyni zamanda "yaşıl gündəlik" hələ COP29 qərarından əvvəl icra olunmağa başlayıb.

Cənab İlham Əliyevin sözylədiyi kimi, bu, əslində, hər kəs üçün uduşlu variantdır. Azərbaycan olduqca münbit sərmayə mühitini yaradıb. Bütün "yaşıl enerji" layihələri xarici sərmayədarlar tərəfindən maliyyələşdirilir. Azərbaycan sadəcə öz infrastrukturunu və çox yaxşı sərmayə mühitini təmin edir. Yaxın gələcəkdə Azərbaycan Avropaya lazım olan böyük həcmdə təbii qaza qənaət edəcək.

Enerji təhlükəsizliyi, gələcək planlar barədə ətraflı məlumat verən İlham Əliyev faydalı qazıntıları olan ölkələrə həmrəylik çağırışı etdi: "Enerji təhlükəsizliyi birmənalı olaraq ölkələrin milli təhlükəsizlik məsələsi hesab edilməlidir. Ayrı-seçkilik olmamalıdır. Faydalı qazıntı ilə zəngin olan ölkənin rəhbəri kimi, əlbəttə ki, biz həmin ölkələrin sərmayəni və hasilatı davam etdirmək hüququnu müdafiə edəcəyik, çünki dünyanın buna ehtiyacı var. Lakin eyni zamanda artıq qeyd etdiyim kimi, faydalı qazıntısı olan ölkələr iqlim dəyişmələri məsələlərinə aid həmrəyliyi nümayiş etdirən ölkələr sırasında olmalıdırlar".

#### Almaniyadan Azərbaycana tam dəstək

Azərbaycan Prezidenti Berlində bir sıra mühüm görüşlər də keçirdi. Aprelin 26-da Almaniya Federativ Respublikasının xarici işlər naziri Annalena Berbok, Almaniya Federativ Respublikasının Prezidenti Frank-Valter Ştaynmayer ilə təkbətək və geniş tərkibdə, Birləşmiş Ərəb Əmirliklərinin sənaye və qabaqcıl texnologiyalar naziri Sultan Əhməd Əl-Cabir ilə görüşlərdə İlham Əliyev bir daha həqiqətləri səsləndirdi.

Almaniyanın dövlət və hökumət strukturlarının rəhbərləri Azərbaycanla Ermənistan arasında sülh danışıqları, delimitasiya və demarkasiya prosesini alqışlayaraq bu istiqamətdə dəstək göstərməyə hazır olduqlarını bildirdilər.

Kansler Olaf Şoltsla keçirilən birgə mətbuat konfransında İlham Əliyev bir daha Azərbaycan həqiqətlərini və Avropanın enerji təhlükəsizliyi prosesində yol xəritəsini təqdim etdi.

Kansler Olaf Şolts isə bildirdi ki, Almaniya sülh prosesinin davamlı həllinin tapılmasında öz dəstəyini göstərməyə hazırdır: "Əgər siz hər ikiniz bunu istəyirsinizsə. Mən hər iki tərəfi həvəsləndirmək istərdim ki, lazımi kompromislər üçün istək və cəsarət göstərəsiniz. Mən düşünürəm ki, 2024-cü il regionda sülh ili ola bilər və olmalıdır. Bu, özündə şanslar və məsuliyyətlər gətirir. Demarkasiya ilə əlaqədar ilkin razılıqlar bizi sevindirir. Yəni eşitdik ki, razılıq əldə etmisiniz. İndi bu dinamikanı saxlamağı və bu istiqamətdə cəsarətli addım atmağınızı istəyirəm. Həm Sizi, həm də Sizin əks tərəfiniz olan baş nazir Paşinyanı buna çağırıram".

Beləliklə, Prezidentin Almaniyaya səfərindən, aparılan danışıqlardan Avropa ölkələrinə bir daha bəlli oldu ki, İlham Əliyev konstruktiv, beynəlxalq hüququn norma və prinsiplərinə əsaslanan, regional və qlobal miqyasda sabitliyə xidmət edən siyasi xətt yürüdür. Belə olan halda Azərbaycanla qarşılıqlı faydalı əməkdaşlığa əsaslanan tərəfdaşlıq münasibətləri beynəlxalq münasibətlər sisteminin aktorları olan dövlətlər üçün strateji əhəmiyyət daşıyır.

Məhz bu faktlar təsdiq edir ki, bu gün dünyanın aparıcı dövlətləri və təşkilatları Azərbaycanı Cənubi Qafqazın təhlükəsizlik qarantı adlandırırlar. Aparıcı dövlətlər ölkəmizin Cənubi Qafqaz və Xəzər dənizi regionunda əvəzolunmaz tərəfdaş kimi böyük dəyərə malik olduğunu bəyan edirlər. Ermənistanla sülh müqaviləsinin imzalanmasından sonra isə regionda yaranacaq sabitlik Azərbaycanın gücünü, potensialını və imkanlarını daha da artıracaq.

*Rəşad BAXŞƏLİYEV,*
*"Azərbaycan"*

## İlham Əliyevin mesajlarından Ermənistan və havadarları nəticə çıxarmalıdırlar

**"Prezident İlham Əliyev aprelin 26-da Almaniyaya işgüzar səfərində bir çox mövzu barədə ətraflı və dərinməzmunlu çıxış edib. Dövlət başçısı Azərbaycan-Almaniya münasibətləri, COP29, Ermənistanla delimitasiya və demarkasiya prosesinin gedişatı, ölkəmizin enerji təminatçısı kimi əvəzedilməz rolu, insan haqları və mətbuat azadlığı kimi bir çox məsələ barədə məlumat verib. Prezidentin dünya siyasətində öz yeri olan Almaniyaya səfəri və oradan ötürdüyü mesajlar xüsusi əhəmiyyət kəsb edir".**



Bu fikirləri qəzetimizə açıqlamasında Milli Məclisin deputatı Cavanşir Paşazadə deyib. Deputat qeyd edib ki, bu səfər Azərbaycanla Almaniya arasında münasibətlərin hazırda sürətli inkişaf dövrünü yaşadığını sübut edir: "Bu, görüş çərçivəsində ikitərəfli münasibətlərin və regional təhlükəsizlik məsələlərinin sağlam şəkildə müzakirəsindən də aydın olur. Almaniya ilə münasibətlərimizin bu mərhələsi ölkəmizin bütövlükdə Avropa üçün əhəmiyyətli tərəfdaş olduğunu təsdiq edir. Dövlətimizin başçısı Almaniyanın Kansleri Olaf Şolts ilə birgə mətbuat konfransında deyib ki, Almaniya-Azərbaycan əlaqələrinin inkişafı həm ölkələrimiz üçün, həm də bütövlükdə Cənubi Qafqazın inkişafı və sabitliyi üçün çox böyük əhəmiyyət kəsb edir. Bu mənada Azərbaycan Prezidentinin Berlin səfərini və oradan ötürdüyü mesajları həm də regionumuzun təhlükəsizliyinə növbəti töhfə kimi də dəyərləndirmək olar".

Deputat Prezidentin çıxışında xüsusi toxunduğu digər məqamlara da diqqət çəkib: "Azərbaycanın belə böyük tədbirə ev sahibi seçilməsi Azərbaycanın "yaşıl gündəliy"ini dünyaya bir daha nümayiş etdirir. Bu həm də dövlətimizə, xüsusilə də Prezident İlham Əliyevə dünyada göstərilən etimadın bariz nümunəsidir. Ölkəmizin bu tərəqqisinə görə dövlət başçısına minnətdarıq".

Cavanşir Paşazadənin sözlərinə görə, Azərbaycanda həm sülhün təminatı, həm iqtisadi inkişafa nail olunması, həm də digər ölkələrlə münasibətlərin yaxşılaşdırılması istiqamətində görülən bütün işlər təqdirəlayiqdir: "Həyata keçirilən tədbirlər Azərbaycanın gələcəyi barədə nikbin danışmağa bizə haqq qazandırır. Təbii qaz təchizatçısı olan Azərbaycan yaxın gələcəkdə Avropanın "yaşıl enerji" təchizatçısına da çevriləcək. Eyni zamanda regionda sülh tam bərqərar olacaq, Ermənistanla delimitasiya və demarkasiya prosesi beynəlxalq hüquqa uyğun şəkildə həyata keçiriləcək və keçmiş məcburi köçkünlərimizin doğma dədə-baba yurdlarına qayıdışı prosesi yekunlaşacaq".

Deputat yekunda vurğulayıb ki, İlham Əliyevin toxunduğu və mühüm mesajlar verdiyi mövzular ətrafında bir sıra qüvvələr, xüsusilə də Ermənistan hökuməti dərindən düşünməlidir. Berlindəki mesajlardan bir daha aydın oldu ki, Azərbaycanı davam etdiyi haqq yolundan heç bir qüvvə döndərə bilməz.

*Nəzrin QAFARZADƏ,*
*"Azərbaycan"*

## Azərbaycan ilə Qırğızıstanın dostluğu və qardaşlığı əbədidir

**Keçmiş ittifaqın süquta uğraması türk dünyasının yenidən əvvəlki möhtəşəm günlərinə qayıtması üçün tarixi fürsət yaratdı. Bu fürsəti zamanında dəyərləndirərək 1992-ci ildə yenicə müstəqillik qazanmış qardaş dövlətlər Türkcə Danışan Ölkələr Zirvəsinə toplaşdılar. 2009-cu ildə Türk Dövlətləri Təşkilatı yaradıldı. Həmin vaxtdan türk dövlətləri arasında münasibətlərin inkişafı yeni mərhələyə qədəm qoydu. Xüsusilə də Vətən müharibəsi dönəmində digər türk dövlətlərinin dəstəyini yaxından hiss etdik.**

Bu il aprelin 24-də Türk Dövlətləri Təşkilatının üzvü olan Qırğız Respublikasının Prezidenti Sadır Japarov Azərbaycana dövlət səfərinə gəldi. İki gün davam etmiş səfərə Qırğızıstandan xeyli sayda dövlət rəsmiləri qatılmışdı. Onların siyahısında siyasi, sosial və iqtisadi sferaları təmsil edən nazirlərin də olması onu deməyə əsas verir ki, səfərin gündəliyi çox zəngin olacaq.

Tarixə nəzər yetirəndə görürük ki, Azərbaycanın Orta Asiyanın türk dövlətləri ilə əlaqələri həmişə geniş olub. Bütün türk dövlətləri ilə əməkdaşlığın daim inkişaf etdirilməsi respublikamızın xarici siyasətinin prioritet istiqamətlərindəndir. Azərbaycan ilə Qırğızıstan münasibətləri qədim tarixə malikdir. Belə ki, azərbaycanlılar və qırğızlar eyni kökə, mədəniyyətə və ənənələrə malikdirlər. Bundan başqa, bu xalqları dil və din eyniliyi də birləşdirir. Azərbaycanla Qırğızıstan arasında diplomatik əlaqələr 1993-cü ilin yanvar ayında qurulmuşdur. 1996-cı ilin ortalarında Azərbaycan Respublikasının Qırğızıstan Respublikasında, 1998-ci ilin may ayında Qırğızıstan Respublikasının Azərbaycan Respublikasında səfirlikləri fəaliyyətə başladı. İkitərəfli münasibətlərin inkişafında dövlət başçılarının səfərləri xüsusilə böyük əhəmiyyətə malikdir. Prezident İlham Əliyevin rəhbərliyi dövründə Azərbaycan-Qırğızıstan münasibətləri yeni inkişaf mərhələsinə qədəm qoyub. Azərbaycan bütün türkdilli dövlətlərlə olduğu kimi, Qırğızıstanla da geniş siyasi-iqtisadi və mədəni əlaqələrini getdikcə genişləndirir. Hər iki ölkənin məqsədi türk dünyasının inkişafına, siyasi və mədəni birliyinə yeni töhfələr verməkdir.

Qırğız Respublikasında 20 minə yaxın azərbaycanlı yaşayır. Onların da əksəriyyəti 1937-ci ildə Mərkəzi Asiyaya sürgün edilən repressiya qurbanlarının ailə üzvləridir. Həmvətənlərimiz Bişkek, Karabalta, Kant, Sokuluk, Oş şəhərlərində və ətraf rayonlarda yığcam halda məskunlaşıblar. Tarixi yurdlarından uzaqda yaşamalarına baxmayaraq, Qırğızıstandakı azərbaycanlılar dil və adətlərini qoruyub saxlayırlar.

Aprelin 24-də Azərbaycan və Qırğızıstan prezidentlərinin məhdud tərkibdə görüşü oldu. Görüşdən sonra Azərbaycan və Qırğızıstan Dövlətlərarası Şurasının 2-ci iclası keçirildi. Sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Qırğız Respublikasının Prezidenti Sadır Japarovun iştirakı ilə Azərbaycan-Qırğızıstan sənədlərinin imzalanması mərasimi oldu.

İmzalanma mərasimi başa çatandan sonra hər iki ölkənin dövlət başçıları mətbuata bəyanatlarla çıxış etdilər. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bəyanatında dedi: "Bizim hər il qarşılıqlı səfərlərin həyata keçirilməsi üzrə yaxşı ənənəmiz formalaşıb. Mən ötən il, ondan əvvəlki il Qırğızıstanda olmuşam, həmçinin keçən il və ondan əvvəlki il Sadır Nurqojoyeviç bizi ziyarət edib. Bizim hələ yayda Şuşada Türk Dövlətləri Təşkilatının qeyri-rəsmi Zirvə görüşünün keçirilməsi zamanı Azərbaycanda görüşmək imkanımız olacaq. Həmçinin Sadır Nurqojoyeviçi noyabr ayında COP29 beynəlxalq konfransında iştiraka dəvət etdim. Hər bir görüş qarşılıqlı fəaliyyətin, ünsiyyətimizin gücləndirilməsi, eləcə də ikitərəfli və çoxtərəfli əməkdaşlığın mühüm məsələlərinin həlli baxımından əhəmiyyətli və dəyərlidir".

Qırğızıstan Prezidenti Sadır Japarov isə bəyanatında xüsusi olaraq vurğuladı: "Bu gün müxtəlif sahələrdə daha sıx fəaliyyətə yönəlmiş ikitərəfli sənədlər imzaladıq. İmzalanan sənədlər arasında Qırğız Respublikası ilə Azərbaycan Respublikası arasında ortamüddətli perspektivdə ikitərəfli qarşılıqlı fəaliyyətin əsas yol xəritəsi qismində istifadə olunacaq əməkdaşlığın inkişafına dair beşillik kompleks proqramı ayrıca qeyd etmək istərdim. Həmçinin Qırğız Respublikası ilə Azərbaycan Respublikası arasında gəlirlərə görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergidən yayınmanın qarşısının alınması haqqında sazişi qeyd etmək istərdim ki, bu, iki ölkənin təsərrüfat subyektlərinin qarşılıqlı iqtisadi fəaliyyətinin həyata keçirilməsində böyük əhəmiyyətə malikdir".

Qırğız Respublikasının Prezidenti Sadır Japarovun və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin iştirakı ilə Bakıda görkəmli qırğız yazıçısı Çingiz Aytmatovun abidəsinin açılış mərasimi keçirilib. Açılış mərasimində çıxış edən dövlət başçımız Ç.Aytmatovun yaradıcılığından və fəaliyyətindən ətraflı danışıb. Azərbaycan və Qırğızıstan dostluğundan söz açan Azərbaycan Prezidenti deyib: "Əminəm ki, Qırğızıstan ilə Azərbaycanın, xalqlarımızın dostluğu və qardaşlığı əbədi olacaq".

Azərbaycan Respublikasında dövlət səfərində olan Qırğız Respublikasının Prezidenti Sadır Japarov aprelin 25-də Füzuli və Ağdam rayonlarına səfər edib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Qırğız Respublikasının Prezidenti Sadır Japarov Füzuli və Ağdam şəhərlərinin erməni işğalçılarının dağıtdıqları yerlərinə baxıblar, şəhərlərin baş planları ilə tanış olublar. Dövlət başçıları Ağdam rayonunun Xıdırlı kənd tam orta məktəbinin birgə təməlqoyma mərasimində iştirak ediblər. Qırğızıstan Prezidentinin təşəbbüsü ilə Qırğızıstan dövləti adından məktəb binasının tikintisi iki ölkə arasında sarsılmaz qardaşlıq münasibətlərinin göstəricisi oldu. Tikinti işlərinin 2024-cü ilin sonunadək başa çatdırılması planlaşdırılır.

Qırğızıstan Respublikasının Prezidenti Sadır Japarovun Azərbaycana rəsmi səfəri bir daha onu göstərdi ki, dövlət başçımız dünya səviyyəsində uğurlu xarici siyasət yürüdür. Aparılan məqsədyönlü siyasət Azərbaycanı beynəlxalq birliyin ən etibarlı və ən layiqli tərəfdaşına çevirib. Bakı ilə Bişkek arasında əlaqələrin daha da inkişaf etməsi baxımından qarşılıqlı səfərlər çox əhəmiyyətlidir. Bütün bunlar nəticə etibarilə hər iki dövlətin milli maraqlarına xidmət edir. Azərbaycanın da, Qırğızıstanın da əsas məqsədi türk dünyasının inkişafına, siyasi və mədəni birliyinə layiqli töhfə verməkdir. Aparılan danışıq və imzalanan sənədlər göstərir ki, Azərbaycan-Qırğızıstan münasibətləri yeni mərhələyə qədəm qoyacaq, ölkələr arasındakı qardaşlıq və dostluq əlaqələri bundan sonra daha da möhkəmlənəcək.

*Vahid MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*

# Azərbaycanın xarici siyasətinin uğurları

## Delimitasiya davam edir

**"Bu gün isə artıq Azərbaycanla Ermənistan arasında gedən proses nəticəsində sərhədlərin delimitasiyası və hətta demarkasiyası prosesi də başlamışdır. 1990-cı və 1992-ci illərdə işğal edilmiş 4 Azərbaycan kəndi bizə qaytarılır".**



Prezident İlham Əliyevin Almaniyada mətbuat konfransında vurğuladığı kimi, Cənubi Qafqazda dayanıqlı sülhə nail olunması üçün əməli işlər görülür. İki ölkə rəsmiləri problemləri masa arxasında həll edərək razılaşmaya gəlirlər.

Bunun nəticəsidir ki, artıq delimitasiya və demarkasiya işlərinə də başlanılıb. Baş nazirin müavini Şahin Mustafayevin Xidmətinin məlumatına əsasən, Azərbaycanla Ermənistan arasındakı sərhəddə koordinatların dəqiqləşdirilməsi işləri çərçivəsində aparılan geodeziya ölçmələri əsasında nəzərdə tutulan işlərin təxminən 35 faizi 2024-cü il aprelin 26-dək yerinə yetirilib, 28 sərhəd dirəyi quraşdırılıb. Hər iki dövlətin ekspert qruplarının işi davam edir.

### Rusiya-Türkiyə Birgə Monitorinq Mərkəzi fəaliyyətini dayandırdı

Azərbaycanın 44 günlük müharibədə, eləcə də 23 saatlıq antiterror tədbirləri zamanı qazandığı ardıcıl zəfərlər sayəsində onilliklərin ardından bölgədə barış üçün tarixi fürsət yaranıb. Eyni zamanda başda Fransa olmaqla ölkəmizin uğurlarını heç cür qəbul edə bilməyən və bölgədə müharibəyə yenidən başlamaq niyyətində olan qərəzli Qərb təsisatlarına da layiqli cavablar verilərək yerlərinə otuzdurulub. Cənubi Qafqazı koloniyasına çevirmək kimi məkrli planları olan Fransanın davamlı siyasi təxribatları, Ermənistanı silahlandıraraq savaşa qızışdırması sülhə başlıca maneə idi. Məhz Makron hökumətinin sülhpozucu səyləri nəticəsində 2020-ci ildən ötən dövr ərzində iki ölkə arasında normallaşmaya, sülh müqaviləsinin imzalanmasına nail olunmamasıdır. Paris danışıqlarda vasitəçi kimi iştirak etmək adı ilə sülh prosesinə zərbə vurmaqla məşğul idi. O da gerçəklikdir ki, Azərbaycan Ermənistan münaqişəsinin nizamlanmasında 25 illik vasitəçiliyi dövründə də Fransa eyni riyakar siyasəti yürütmüş, problemin əbədiyyətədək çözümsüz qalmasında xüsusi çaba göstərmişdi.

Həyata keçirilən antiterror tədbirləri nəticəsində ərazilərimizdə separatizmə dəstək verən Fransanın da burnu qırıldı, eyni zamanda ondan sonrakı dövrdə Bakının siyasi, diplomatik həmlələri ilə regionda ayırıcı xətlər yaratmaq istəyi iflasa uğradıldı.

Azərbaycanın sülh təşəbbüskarlığı sayəsində bölgədə barışla bağlı gerçək işlərə də start verildi. Həmçinin yeni yaranan vəziyyət özü ilə bərabər bir çox reallıqları da diktə etməyə başladı. Belə ki, Qarabağda separatizmin məhv edilməsi ilə Rusiya sülhməramlılarının fəaliyyətinə də bölgədə ehtiyac qalmadı. Bu, rəsmi şəkildə də təsdiqini tapdı və vaxtından əvvəl Rusiya sülhməramlı kontingenti Azərbaycan ərazilərini tərk etməyə başladı.

Ehtiyac duyulmadığı üçün aprelin 26-da səhər saatlarında Azərbaycanda yerləşmiş Rusiya-Türkiyə Birgə Monitorinq Mərkəzi də öz fəaliyyətini dayandırdı.

### İlham ƏLİYEV: "Sülhə nail olmaq üçün yaxşı fürsətlər var"

Bir gülə atılmadan, bir itki verilmədən Qazax rayonunun işğal altında olan 4 kəndi - Bağanıs Ayrım, Aşağı Əskipara, Xeyrimli və Qızılhacılı kəndlərinin azad edilməsi isə iki ölkə arasında normallaşma istiqamətində atılan ilk mühüm addım kimi də xüsusi əhəmiyyətə malikdir.

Bu kəndlərin qeyd-şərtsiz qaytarılmalı olduğunun mesajını Prezident İlham Əliyev bu ilin əvvəlində yerli televiziya kanallarına müsahibəsində də vermişdi: "O ki qaldı işğal altında olan kəndlərə, hesab edirəm ki, bizim təklifimiz də çox məntiqlidir. Bildiyiniz kimi, orada anklav və qeyri-anklav kəndlər var. O kəndlər ki, anklav kəndlər deyil, həmin dörd kənd Azərbaycana qeyd-şərtsiz qaytarılmalıdır".

Xatırladaq ki, hələ 2020-ci ildə dövlət başçısı qeyri-anklav kəndlərin qaytarılması məsələsini qaldırmış və ötən müddət ərzində mövzu daim gündəlikdə saxlanılmışdı. Əldə olunmuş razılıq delimitasiya istiqamətində atılan ilk addımdır və delitimasiyanın məhz bu istiqamətdən başlaması Azərbaycanın təkidi ilə olub. Tərəflər razılaşıblar ki, delimitasiya prosesində 1991-ci il Alma-Ata Bəyannaməsinə əsaslanacaqlar.

Göründüyü kimi, Ermənistan və Azərbaycan heç bir vasitəçiyə ehtiyac görmədən birgə qarşılıqlı anlaşma şəraitində dil tapıb məsələni həll etdilər. Hadisələrin bu məcrada inkişafı isə tezliklə bölgədə dayanıqlı sülhə nail olunacağına böyük inam yaradır.

Almaniya Federativ Respublikasının Kansleri Olaf Şoltsla birgə keçirdiyi mətbuat konfransında "Regional təhlükəsizliyə gəldikdə, Azərbaycan ilə Ermənistan arasında gedən sülh danışıqlarını biz yüksək qiymətləndiririk", - deyən Prezident İlham Əliyev qeyd etdi ki, sülhə nail olmaq üçün çox yaxşı fürsətlər var. Dövlət başçısı onu da qeyd etdi ki, bütün bu işdə bizə kömək etmək istəyən ölkələrlə əməkdaşlıq etməyə hazırıq: "Ümid edirik ki, çox vaxt keçmədən bu istiqamətdə də müsbət addımlar atılacaq".

Xatırladaq ki, bu il fevralın 28-də Berlində Azərbaycanla Ermənistan arasında sülh sazişi layihəsini müzakirə etmək üçün iki ölkənin xarici işlər nazirləri arasında ikitərəfli görüş keçirilib. İki ölkə XİN başçılarının növbəti görüşü isə Qazaxıstanda keçiriləcək.

Göründüyü kimi, Azərbaycanın sülh istiqamətində davamlı səyləri uğurlu bəhrəsini verir, hər ötən gün sülh müqaviləsinin imzalanmasına doğru əlavə addımlar atılır.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

## Bakının təklif etdiyi birbaşa dialoq ən düzgün formatdır

### Bu, regional təhlükəsizliyə müsbət təsirini göstərəcək

**"Vətən sərhəddən başlayır, çünki dövlət sərhədi onun suverenliyinin, ərazi bütövlüyünün və siyasi müstəqilliyinin təcəssümüdür. Sərhədlər müstəqil dövlətlərin suverenliyinin ən mühüm elementi olmaqla yanaşı, onlar arasında konkret məkan münasibətlərinin formalaşmasında vacib rol oynayan əsas amillərdən biridir".**



Bu fikirləri qəzetimizə açıqlamasında Milli Məclisin deputatı Rəşad Mahmudov deyib. Deputat bildirib ki, Azərbaycan dövləti sərhədlərin müəyyənləşdirilməsini həyati məsələ sayır və bu istiqamətdə qətiyyətli siyasət yürüdür. Son zamanlar otuzillik qarşıdurmadan sonra Ermənistan ilə sərhədlərin delimitasiyası və demarkasiyası prosesində mühüm irəliləyişin əldə olunması belə deməyə əsas verir ki, İrəvan ilə sərhədlərin qeyri-müəyyənliyinə son qoyulması prosesi öz məntiqi sonluğuna yaxınlaşır. Bu da regional təhlükəsizliyə öz müsbət təsirini göstərəcək.

R.Mahmudov qeyd edib ki, Cənubi Qafqaz getdikcə yeni ticarət və tranzit imkanları, eləcə də intensivləşən geosiyasi və təhlükəsizlik rəqabəti ilə qidalanan xarici oyunçular üçün ağırlıq mərkəzinə çevrilir. "Region Avropa və Asiya arasında körpü rolunu oynadığı üçün beynəlxalq tranzit və ticarət yolu kimi strateji əhəmiyyəti böyükdür. Bundan əlavə, onun strateji yerləşməsi həm regional, həm də qlobal bazarlara enerji resurslarının tədarükünü asanlaşdırmağa imkan verir. Amma bütün bunlar, təbii ki, Cənubi Qafqaz regionunda güclü təhlükəsizliyin olmasını tələb edir. Təhlükəsizliyin təmin edilməsi də dövlətlərarası sərhədlərin müəyyənləşdirilməsindən keçir. 44 günlük müharibədə qalib gələn Azərbaycan birmənalı şəkildə bəyan etdi ki, sərhədlərin dəqiq delimitasiyası və demarkasiyası aparılmadan bölgədə davamlı sülhün bərqərar olması mümkünsüzdür. Ən əsası, Bakı həmişə vurğulayır ki, bu proses Ermənistan və Azərbaycan arasında birbaşa dialoq yolu ilə aparılmalıdır, çünki bu ünsiyyət formatı problemlərin həllinin və birgəyaşayışın ən səmərəli yoludur", - deyə o əlavə edib.

Müsahibimiz vurğulayıb ki, Ermənistan bu məsələdə siyasi bəyanatlar səsləndirsə də, regiondankənar qüvvələrin təsiri altına düşərək sərhədlərin müəyyənləşdirilməsində adekvat davranmayıb. Burada problem ondan ibarət idi ki, Ermənistan ənənəvi olaraq hər hansı ikitərəfli əlaqələrdən imtina edirdi. Erməni siyasətçiləri son vaxtlara qədər qeyd edirdilər ki, bir sıra məsələlərdə İrəvan Bakı ilə yalnız vasitəçilər vasitəsilə danışa bilər. Həmin vasitəçilər də regiondan kənarda olan qüvvələrdir. Ancaq Bakının yaratdığı reallıqları dəyişə bilməyəcəyini anlayan İrəvan aprelin 19-da iki ölkə arasında üçüncü tərəfin iştirakı olmadan tarixi razılaşmanın əldə olunmasına əngəl törədə bilmədi.

Deputat bildirib ki, sərhədlərin müəyyənləşdirilməsi məsələsində müşahidə edilən son proseslər ikitərəfli dialoqun, həqiqətən, effektiv və indiki vəziyyətdə ən uğurlu format olduğunu göstərir: "Üçüncü qüvvənin bu vəziyyətə müdaxilə cəhdləri arzulanan nəticələri vermir. Azərbaycan və Ermənistan arasında delimitasiya və demarkasiya prosesi onu göstərir ki, iki ölkə vasitəçi olmadan problemləri həll edə bilir. Artıq iki ölkə arasında 28 sərhəd dirəyinin quraşdırılması məhz belə deməyə əsas verir. Tərəflər mayın 15-dək yerlərdə geodeziya ölçmələri əsasında koordinatların dəqiqləşdirilməsi nəzərə alınmaqla sərhəd xətlərini təsvir edən protokol imzalamalıdırlar. Əlbəttə, sərhədlərimizin müəyyənləşdirilməsi, işğal altında olan dörd kəndimizin geri qaytarılması Azərbaycanın növbəti tarixi qələbəsidir. Bu, eyni zamanda bir daha göstərir ki, Bakının uzun zamandır təklif etdiyi birbaşa dialoq formatı ən doğru modeldir və iki ölkə arasında münasibətlərin normallaşmasında mühüm rol oynayacaq vasitələrdən biridir".

R.Mahmudov yekunda qeyd edib ki, Azərbaycanın tələblərinin yerinə yetirilməsindən sonra növbə sülhün imzalanmasıdır, sərhədlərin müəyyənləşdirilməsi də bu istiqamətdə atılmış ilk addımdır.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

## "Türkiyə təkcə qardaşı olduğu üçün deyil, həm də haqlı olduğu üçün Azərbaycanın yanındadır"

**Azərbaycan ilə Ermənistan arasındakı gərginlik tarixin dərinliklərindən gələn bir məsələdir. Xüsusilə son yüz ildə ermənilərin Azərbaycana qarşı işğalçı və təcavüzkar siyasəti mütəmadi olaraq davam edib. Bu, tarixi faktlarla da bəllidir.**



Türkiyə təbii ki, bir qardaş dövlət olaraq hər zaman Azərbaycanın yanındadır. Ümumiyyətlə, Türkiyə siyasət olaraq daim "Yurdda sülh, cahanda sülh" prinsipi ilə hərəkət edərək mənsubiyyətindən asılı olmayaraq məzlumun yanında olub. Türkiyənin xarici siyasətinə baxdığımızda da biz bunu görürük. Bu baxımdan, Azərbaycan ilə Ermənistan arasındakı məsələdə Türkiyə təkcə qardaş ölkə olduğu üçün deyil, həm də haqlı olduğu üçün Azərbaycanın yanındadır. Azərbaycan, torpaqları ermənilər tərəfindən işğal edilən və çox uzun zaman işğala məruz qalan ölkədir. Ermənistanın Azərbaycan torpaqlarının işğalı və bu ərazilərin sahiblərinə qaytarılmasına dair BMT-nin 2008-ci ildə aldığı bir qərar var. Lakin qarşı tərəf buna məhəl qoymadı. Buna qarşılıq olaraq Azərbaycan 2020-ci ildə başlatdığı əməliyyatla torpaqlarını öz gücü ilə almağa məcbur oldu. Son vəziyyətə gəldikdə, Azərbaycan ilə Ermənistan arasındakı sülh işartıları hər birimiz üçün sevindiricidir. Bir neçə gün əvvəl dörd kəndin sakit bir şəkildə Azərbaycana qaytarılması da alqışlanacaq haldır. Bu fikirləri AZƏRTAC-a açıqlamasında İstanbul Aydın Universitetinin siyasi elmlər və beynəlxalq münasibətlər üzrə mütəxəssisi Canan Tercan söyləyib.

Ermənilərin qondarma "soyqırımı" iddialarına toxunan siyasi şərhçi deyib: "Azərbaycanın işğal olunan bölgələrdə azərbaycanlılara qarşı soyqırımı törədilməsi ilə bağlı 2021-ci ildə Beynəlxalq Ədalət Məhkəməsində Ermənistana qarşı açdığı bir iddia var. Bu gün baxdığımızda, yaxın keçmişdə bütün dünyanın gözü önündə canlı şahidlər və sübutlarla ortada olan bir soyqırımı törədən dövlətin keçmişdə yaşanan hadisələri soyqırımı olaraq qələmə verməyə çalışması absurddur. Osmanlı dövründə baş verən 1915-ci il hadisələrinin günümüzdə siyasətə daşınması da ağlasığmazdır. Tarixin müxtəlif vaxtlarında baş verən hər bir hadisəni o dövrün şərtləri daxilində dəyərləndirmək lazımdır. O dövrə baxsaq, başda Qərb olmaqla dünya ölkələrinin öz gələcəklərini qoruya bilməsi üçün hansı addımları atdığına da nəzər salmalıyıq. Bu baxımdan, 1915-ci il hadisələrini günümüzdə aktual tutmağa çalışsaq, hazırda dünyada baş verən bir çox qarşıdurmanı heç bir əsasla izah edə bilmərik. Burada qlobal dünyada dövrlərə görə dəyişən aktorları da nəzərə almaq vacibdir. Bu gün hələ də 1915-ci il hadisələrində qalsaq, heç bir şey əldə edə bilmərik. Belə ki, bu hadisələr Birinci Dünya müharibəsindən əvvəl, ozamankı dövlətin mövcud şərtlərə görə aldığı qərarlar əsasında meydana gəlib ki, burada da soyqırımından bəhs etmək mümkün deyil. Qısa izah etsək, bu, onsuz da xarici qüvvələrlə mübarizə aparmaq məcburiyyəti qarşısında qalan Osmanlı dövləti tərəfindən ölkənin bütövlüyünü qoruyub-saxlamaq məqsədilə daxildə baş qaldıran etnik azlıqların ölkədən uzaqlaşdırılması üçün alınan bir qərar idi. Hadisənin əsası budur və burada soyqırımından bəhs etmək belə mümkün deyil. Sənədlərə baxdıqda da bu azlıqların yol güzərgahı, əsgərlərin onları müşayiət etməsi, gedəcəyi bölgələrdə yaşayışlarının təmininə dair maddələr də var. Bütün bunlar hadisələrin soyqırımı olmadığının sübutudur. Əgər mütləq bir soyqırımı sözü istifadə edilməlidirsə, o vaxt ilk növbədə xüsusilə bir gecədə ermənilər tərəfindən törədilən Xocalı hadisələri və bu kimi digər cinayətlərdən danışa bilərik".

## Qızılhacılılı şəhid ailələrinin sevinci ikiqatdır

### Kəndlərinin azad olunması ilə övladlarının ruhu şaddır

**32 illik erməni işğalından sonra dinc yolla Azərbaycana qaytarılmasına qərar verilən Qızılhacılı kənd sakinlərinin də sevinci hədsizdir. Bu müddət ərzində yurd həsrəti ilə döyünən ürəkləri rahatlıq tapıb. Baxmayaraq ki, 1992-ci il mayın 11-də öz dədə-baba yurdlarından çıxmağa məcbur olan kənd sakinləri köçkünlüyə bir gün son qoyulacağına inanırdılar.**



Qızılhacılılılar kəndi tərk etdikdən sonra ermənilər bütün evləri yandıraraq viran etmişlər. İşğal etdikləri digər yerlərdə olduğu kimi, bu kənddə də daşı daş üstə qoymamışlar. Oğurladıqlarını oğurlamış, talan etdiklərini talan etmiş, qalanlarını isə yandırmışlar. Sanki bilirlərmiş gec-tez bu yerləri tərk edəcəklərini.

Bütün çətinliklər arxada qalsa da , kənd sakinləri ermənilərin onlara etdikləri bu vəhşilikləri unuda bilmirlər. Belə sakinlərdən biri də Eldar Quliyevdir. Kənd ağsaqqalı deyir ki, Qarabağ müharibəsi başlayandan ailəsinə böyük zərbələr dəyib. Oğlu Babək Quliyev Birinci Qarabağ müharibəsində şəhid olub. 44 günlük Vətən müharibəsində isə nəvəsi Tural Məmmədov düşmən gülləsinə tuş gəlib: "Var olsun ordumuzu. Oğlumun və nəvəmin qanı yerdə qalmadı. Ermənilərə ağır zərbələr endirdi, torpaqlarımızı işğaldan azad etdi. İndi doğma kəndimizə qayıdacağım günü gözləyirəm. Bilirəm ki, Prezident kəndimizi yenidən tikəcək. Bax, onda ağrı-acılarımız bir xeyli azalacaq".

Kənd sakini Qəndab Hüseynovanın da oğlu Sərdar Birinci Qarabağ müharibəsində şəhid olmuşdur. Sərdar 1993-cü ildə Kəlbəcər uğrunda gedən döyüşlərdə haqq dünyasına qovuşmuşdur. Qəndab Hüseynova deyir ki, oğul Vətən sipəridir: "Vətənin dar günündə əlinə silah alaraq düşmənə qarşı vuruşan və bu yolda şəhid olan hər bir oğul xalqın qürurudur. Mənim oğlum Sərdar da qədirbilən xalqımız tərəfindən unudulmur. Tez-tez yad edilərək döyüş yolundan söhbət açılır. Belə bir oğul böyütdüyümə görə bir ana kimi fəxr edirəm. Bu gün isə keçirdiyim hissləri sözlə ifadə edə bilmirəm. 32 illik ayrılıqdan sonra kəndimizə dönəcəyik. Bundan böyük bəxtəvərlik olarmı?! Bilirəm ki, bu günlər bütün şəhidlərimizin, o cümlədən oğlum Sərdarın ruhu şaddır. Axı, qanları yerdə qalmayıb, Vətənimizin hər qarışı işğaldan azad olunub".

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

## Elm xadimləri

# Şəxsiyyəti də, peşəsi də işıqlı idi

**Böyük fitri istedadı, dərin zəkası və möhkəm iradəsi ilə seçilən Azərbaycan qadınları tariximizin bütün dövrlərində səmərəli fəaliyyət göstərərək, dünya elm və mədəniyyət xəzinəsinə öz dəyərli töhfələrini vermişlər. Belə qadınlarımızın sayı çoxdur. Onlardan biri də görkəmli alim, bacarıqlı həkim, tanınmış ictimai xadim, gözəl və qayğıkeş ana, sədaqətli ömür yoldaşı, etibarlı dost, səmimi insan Zərifə Əziz qızı Əliyevadır. Bu il xalqımız akademik Zərifə xanım Əliyevanın anadan olmasının 101-ci ildönümünü qeyd edir.**



Zərifə xanımın dünyaya gəldiyi ailədə bütün yüksək əxlaqi keyfiyyətlər nəsildən-nəslə irsi olaraq keçmişdi. Azərbaycanın görkəmli ictimai-siyasi və dövlət xadimlərindən olan Əziz Əliyev övladlarını mənəvi təmizliyə, paklığa, nəcibliyə öyrətmiş, milli ənənələrə uyğun tərbiyə etmişdi. Uşaqlıqdan bu ziyalı ailədə yiyələndiyi xüsusiyyətlər bütün həyatı boyu Zərifə xanıma çox kömək etmişdi. Yüksək vətəndaşlıq ruhunun daşıyıcısı olmuş Əziz Əliyev haqqında qədirbilən insanlarımız çox oxuyub, çox eşidiblər. O, xalqı qarşısında ictimai məsuliyyətini dərindən dərk edərək dövlətinə ləyaqətlə xidmət göstərmiş, övladlarını da bu ruhda böyüdüb ərsəyə gətirmişdir. Üzeyir bəy Hacıbəyli, Müslüm Maqomayev, Əbülfəz Qarayev, Mirəsədulla Mirqasımov, Bülbül və başqa böyük şəxsiyyətlər ruhən bu ailənin yaxınları olublar. Geniş ensiklopedik biliyə malik Zərifə xanım da belə yüksək mənəvi dəyərlər zəminində yetişmişdir.

Zərifə xanımın anası Leyli xanım ləyaqət təcəssümü idi. Həyat tərzinə görə çox sadə davranmağı sevən bu qadın qızlarına da həyatda təvazökar olmaq mədəniyyəti aşılamışdı. Və çox maraqlı idi ki, bu ailənin hər bir üzvü musiqi alətlərində ifa etməyi bacarırdı. Mərhum akademik M.Topçubaşov Əziz Əliyevi təkcə tibb xadimi deyil, "cəmiyyəti müalicə edən həkim" deyə çağırardı. Zərifə xanım təmkinli, səbirli, dözümlü idi. Biliyi, bacarığı, müdrik söhbətləri, səmimi, xoş rəftarı, ətrafındakılara mərhəməti ilə hamının rəğbətini qazanmışdı. Zərifə xanım Əliyeva atasının - görkəmli dövlət və elm xadimi, pedaqoq-alim, professor Əziz Əliyevin yolunu davam etdirmişdi. İstedadlı alimin səhiyyə sahəsini, xüsusən də oftalmologiyanı seçməsi daxilindən, mənəvi dünyasından, insanlara həssas münasibətindən irəli gəlirdi.

Zərifə Əliyeva Azərbaycan səhiyyəsi sahəsində silinməz iz buraxmışdır. O, şöhrətli alim, görkəmli oftalmoloq kimi Azərbaycan elminə öz töhfələrini verməklə gənc oftalmoloqların inkişafı naminə də çalışmışdır. Novator alimin zəngin elmi irsi, öz sahəsi üzrə apardığı tədqiqatlar, müəllifi olduğu əsərlər ölkəmizin tibb sahəsinin genişlənərək inkişaf etməsində çox mühüm əhəmiyyət kəsb edir. Alimin əsərləri oftalmoloqların daim müraciət etdiyi, yaşanan zamandan asılı olmayaraq onları qane edən, bilik və təcrübələrini artırmağa kömək göstərən dərsliklərdir. Akademik Zərifə xanımın Azərbaycan oftalmologiyasını dünya səviyyəsində tanıtması və öz dəst-xəti ilə hər zaman seçilməsi də onun fərqliliyindən, qabiliyyətindən xəbər verirdi.

Qeyd etmək lazımdır ki, Zərifə Əliyevanın bütün varlığı ilə göz həkimliyinə - oftalmologiya elminə bağlanmasının bir səbəbi də ilk növbədə dövrün gerçəkliklərindən irəli gələn sosial mənəvi tələbat idi. Həmin dövrdə Azərbaycanda görmə orqanını zədələyən, ağır fəsadlara, hətta tam korluğa səbəb olan traxoma infeksion xəstəliyi geniş yayılsa da, ona qarşı təsirli üsullar demək olar ki, yox idi. Ona görə də bu infeksiya və onun ağır nəticələri ilə effektiv mübarizə məsələsi təkcə oftalmologiya elminin deyil, bütövlükdə respublika səhiyyəsinin qarşısında vacib problem kimi dururdu. Belə bir zamanda Zərifə xanım Əliyeva traxoma xəstəliyinə qarşı aparılan müalicəvi və profilaktik tədbirlərin təşkilinə və həyata keçirilməsinə fəal dəstək verirdi. Konkret müalicə təcrübəsindən əlavə Azərbaycanda traxoma xəstəliyinin daha geniş yayıldığı rayonlara gedir, həkim-oftalmoloqlara məruzələr oxuyur, əhali arasında maarifləndirmə tədbirlərində yaxından iştirak edirdi. Həmin dövrdə respublikada regional əhəmiyyət kəsb edən göz xəstəliklərinə, o cümlədən gözün peşə xəstəliklərinə dair fundamental tədqiqatlar aparmaq, bu xəstəliklərin səmərəli müalicə üsullarını, profilaktika tədbirlərini işləyib hazırlamaq da ciddi tələbata çevrilmişdi. Zərifə xanım nursuz gözlərə işıq paylamaq, insanlara həyat eşqini qaytarmaq arzusunda idi.

Görkəmli alim yerinə yetirdiyi elmi istiqamətlərin nəticələrinə əsasən, 1959-cu ildə "Traxomanın digər terapiya üsulları ilə birlikdə sintomisinlə müalicəsi" mövzusu üzrə dissertasiya işini müvəffəqiyyətlə müdafiə edərək tibb elmləri namizədi elmi dərəcəsinə yiyələnmişdir. Onun təklif etdiyi müalicə metodunun tezliklə respublikada tətbiqinə başlanılmış və beləliklə, ciddi bir göz xəstəliyinin həllində əsaslı dönüşə nail olmuşdur. Bu baxımdan dünya oftalmoloqları traxomanın sosial xəstəlik kimi ləğvində Zərifə Əliyevanın tarixi xidmətlərini bu gün də böyük ehtiramla qeyd edirlər.

Çoxillik müşahidələrin, klinik tədqiqatların və eksperimentlərin nəticələri Zərifə xanıma doktorluq dissertasiyası üzərində işləmək imkanı yaratmışdır. O, 1976-cı ildə Helmqolts adına Moskva Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda "Azərbaycanın bir sıra kimya müəssisələri işçilərinin görmə orqanının vəziyyəti" mövzusunda dissertasiya işini uğurla müdafiə edərək əsl elm xadimi olduğunu bir daha təsdiqləmişdir. Dissertasiya işi alim-oftalmoloqların yüksək qiymətini almış, bu sahədə ilk fundamental tədqiqatlardan biri kimi dəyərləndirilmişdir. 1977-ci ilin əvvəllərində tibb elmləri doktoru elmi adına layiq görülən Zərifə Əliyeva Ə.Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunda bir sıra səmərəli elmi-tədqiqat işlərinin təşkilatçısı olmuşdur. Görkəmli alim burada ətrafına istedadlı gənc həmkarlarını toplayaraq elmi-tədqiqat işlərini, kadrların və elmi işçilərin hazırlanmasını müvəffəqiyyətlə təşkil edə bilmişdir.

Zərifə xanım Azərbaycanda oftalmologiya sahəsində ilk akademik qadın olmuşdur. Onun səyi və təşəbbüsü ilə ölkədə peşəkar göz patologiyası laboratoriyaları yaradılmışdır. Alimin elmi fəaliyyətini yüksək qiymətləndirən Ulu Öndər Heydər Əliyev demişdir: "Zərifə xanımın tibb elmi sahəsində xidmətlərindən biri də gözün müalicəsi, tədqiqatı idi. Mənə belə gəlir ki, onun iki dəyərli irsi vardır. Birincisi, Azərbaycanda ilk dəfə deontologiyanı bir elm kimi meydana atıbdır. İkincisi, Zərifə xanım çalışıb ki, bizim gələcək nəsilləri irsi xəstəlikdən xilas etsin, sağlamlaşdırsın". Zərifə xanım nadir sahə olan iridodiaqnostika və iridoterapiya problemləri ilə də ciddi məşğul olmuş, həmin sahəyə dair iki monoqrafiya hazırlamışdır. Bu monoqrafiyalardan "İridodiaqnostikanın əsasları" Bakıda, "İridodiaqnostika" isə 1988-ci ildə Moskvada nəşr olunmuşdur. Xüsusi qeyd etmək lazımdır ki, dünya miqyasında iridodiaqnostikaya aid kitablar ilk dəfə Zərifə xanım Əliyeva tərəfindən yazılmışdır.

İstər Oftalmoloqlar Cəmiyyətinin qurultaylarında, plenumlarında, Moskva Oftalmoloqlar Cəmiyyətinin plenar iclaslarında etdiyi məruzələr, istərsə də digər çıxışlarında Zərifə xanım özünün natiqlik istedadını göstərmişdir. Müxtəlif səviyyəli auditoriyalarda belə onun deontologiya məsələlərinə həsr olunmuş məruzələri heyranlıqla dinlənilirdi, istər-istəməz məruzəçinin fəlsəfəyə, səhiyyəyə aid ədəbiyyatı dərindən bildiyi hiss olunurdu. Zərifə xanım uzun müddət Sülhü Müdafiə Komitəsinin sədr müavini, Azərbaycan "Bilik" Cəmiyyətinin üzvü, Oftalmoloqların Elmi Cəmiyyətinin Rəyasət Heyətinin üzvü, "Oftalmologiya xəbərləri" jurnalının redaksiya heyətinin üzvü olmuşdur. Əlbəttə, bütün bunlar çoxlu enerji tələb edirdi, lakin Zərifə Əliyeva üçün bu gərginlik adi hal idi.

Elmi fəaliyyətində etika və tibbi deontologiya məsələlərinə də xüsusi yer verən görkəmli alim mövzuya dair baxışlarını "Həkimin yüksək vəzifəsi" və "Oftalmologiyanın aktual problemləri" monoqrafiyalarında geniş şərh etmişdir. Zərifə xanımın mənəvi zənginliyi, vəzifə borcuna, tibbi etika və deontologiyaya dair baxışları onun "Həkimin əxlaqi tərbiyəsi, deontologiya, tibbi etika və əxlaq məsələləri" əsərində daha ətraflı şəkildə əks olunmuşdur. Alim haqlı olaraq belə hesab edirdi ki, həkimin peşə mövqeyi onun xəstəyə münasibətini müəyyənləşdirən başlıca amildir: "Yalnız o şəxs əsl həkimdir ki, xəstənin ağrılarını məhz özünün ağrıları hesab edir. Belə bir həkim üçün hər dəfə xəstəni qəbul etmək, hər dəfə xəstəliyə düçar olmuş insanla söhbət etmək həm xəstə qarşısında, həm də cəmiyyət qarşısında, ən başlıcası isə öz vicdanı qarşısında əxlaqi məsuliyyət deməkdir".

Xəstələrə dünya işığı bəxş etmiş Zərifə xanım Əliyeva gələcəyimiz olan uşaqları bir ana kimi sevir, onlara xüsusi qayğı və nəvazişlə yanaşırdı. O deyirdi ki, uşaqlıq çağları hər bir kəsin özünü dərk etməsində həlledici mərhələdir və ömrü boyu müraciət etdiyi uşaqlıq dünyasını heç nə ilə əvəz etmək mümkün deyil, insan məhz uşaqlıqda xeyrin və şərin nə olduğunu anlayır. Zərifə xanım həm gözəl dost, həm də yaxşı sirdaş idi. Dostlarının yalnız yaxşı deyil, pis günlərində də yanlarında olur, dərdlərini öz dərdi kimi qəbul edirdi. Bir çoxları bu nəcib insanı çox savadlı, diqqətli, mərhəmətli və mehriban həkim və elm xadimi olmaqla yanaşı, həm də yaxşı bir dost kimi xatırlayırlar.

Onun bir insan, həkim kimi portretini çəkmək, nurlu simasını canlandırmaq istəyən hər bir kəs dünya oftalmologiya elminin tanınmış simalarının söylədikləri tarixi fikirlərə mütləq nəzər salmalıdır.

Görkəmli oftalmoloq, akademik A.Nesterov deyib: "Zərifə Əliyeva çox ağıllı insan və böyük professional idi. Mən onu öz sahəsinin məşhur alimi hesab edirəm. Oftalmologiyada o, birnömrəli idi". Akademik N.Puçkovskaya "xeyirxahlıq Zərifə xanımın həyat tərzi idi" deyərək, alimin yüksək insani keyfiyyətlərə malik olduğunu vurğulayıb. Professor A.Brovkina onu "nəciblik və mənəvi paklıq timsalı" adlandırıb. Professor V.V.Şmelyeva demişdir: "Əgər mən peşəkar ədəbiyyatçı kimi Zərifə xanım Əliyeva haqqında əsər yazmalı olsaydım, heç şübhəsiz ki, onu "Əvəzolunmaz insan haqqında povest" adlandırardım".

Elmi və ictimai fəaliyyətinin çox geniş olmasına baxmayaraq, Zərifə xanımın həyatda ən ağır məsuliyyəti Ümummilli Lider Heydər Əliyev ilə ailə qurması idi. Çünki bu incə təbiətli, kövrək qadın öz zərif çiyinlərində dünyaşöhrətli siyasətçinin yaxın silahdaşı və övladlarının anası olmaq missiyasını şərəflə daşımış, Ulu Öndərin inam və etibarını hər addımında doğrultmuşdur. Birgə yaşadıqları o xoşbəxt illərdə Heydər Əliyev həmişə gərgin iş rejimi ilə gecə-gündüz işləmiş, xalqının gələcəyi yolunda ömrünü şam kimi əritmişdir. Ən ağır, ən təhlükəli vaxtlarda belə Zərifə xanım həyat yoldaşını tək qoymamış, onun dayağına çevrilmişdir. Cəmiyyət həyatında fəal rol oynayan görkəmli alim ailəsinə son dərəcə bağlı olan gözəl ana idi. Öz analıq missiyasını sevdiyi peşəsi ilə birləşdirən bu xanımı bir qadın, bir alim və həkim kimi cəmiyyətin inkişafına xidmət edən ailəsindən ayrı düşünmək olmazdı. Bir ictimai-siyasi xadimi xarakterizə edəndə mütləq onun şəxsi keyfiyyətləri, əqidəsi, həyata baxışı da nəzərdən keçirilməlidir. Və əgər biz bu kontekstdən yanaşsaq, deyə bilərik ki, Heydər Əliyev fenomenal insan idi. O, müxtəlif dövlət orqanlarında çalışanda da, sovet dövründə və müstəqillik illərində Azərbaycana rəhbərlik edəndə də cəmiyyətə yeni tendensiyalar gətirirdi. Özü və ailəsi nümunə idi. Biz hər zaman deyirik ki, ailə cəmiyyətin nüvəsidir. Ulu Öndər öz şəxsi nümunəsi və ailə üzvlərinə olan münasibəti ilə yeni normaları, qaydaları, daha doğrusu, vaxtilə mövcud olmuş ziyalılıq, alicənablıq, qarşılıqlı anlaşma, hörmət, yüksək insani-əxlaqi keyfiyyətləri yenidən aktuallaşdırdı.

Böyük zəka sahibi olan Zərifə Əliyeva analıq vəzifəsinin öhdəsindən də çox gözəl gəlirdi. O, hər zaman övladları ilə də səmimi olmuş, onlara dost münasibəti bəsləmişdir. Zərifə xanım ömür-gün yoldaşı Heydər Əliyev ilə birlikdə qəlblərində daim Azərbaycan sevgisi yaşayan, vətənimizin qüruru sayılan övladlar yetişdirmişlər. Zərifə xanım özünə xas olan xeyirxahlıq, alicənablıq, insansevərlik, səmimilik kimi xüsusiyyətlərini övladlarına da ötürmüşdü. Onun təmkinliliyi, səbirliliyi, dürüstlüyü, düşüncəsi, ağlı, savadı və digər müsbət xüsusiyyətləri övladlarının seçdikləri yolda özünü büruzə verir, onların bu yolu getməklərinə daim kömək edir.

Dahi şəxsiyyət Heydər Əliyev öz xanımı haqqında çox haqlı olaraq demişdi: "Gənc yaşlarımdan mənim həyatım dövlət işi ilə bağlı olubdur. Mən bütün həyatımı buna sərf etmişəm və bu gün də bu yolda çalışıram. Bu yolda mənim həmişə səmərəli, müvəffəqiyyətlə çalışmağımda hesab edirəm ki, ailəmin çox böyük rolu olub... Mən bu barədə çox danışa bilərəm, ailəmin yaşaması, bu günlərə çatması, övladlarımın tərbiyəsi üçün və həyatımda onun əvəzsiz rolu üçün mən bu gün Zərifə xanımın məzarı qarşısında baş əyirəm. On il keçsə də, onu bir dəqiqə belə unutmuram və unutmayacağam. Mənim övladlarım da bu əhval-ruhiyyədədirlər. Onlar bu əhval-ruhiyyə ilə tərbiyələniblər, formalaşıblar". Bu bir insanın öz həyat yoldaşı və ömrünün sadiq sirdaşı haqqında etdiyi ən böyük etirafdır.

Vətənə, valideynlərinə yüksək məhəbbət hissi bəsləyən, milli ruha, yüksək mənəvi keyfiyyətlərə malik uşaqların böyüyüb boya-başa çatması, tərbiyə alması hər valideynin, ailənin arzusudur. Bu gün onun müqəddəs ailə çırağını iki gözəl övladı, nəvələri yandırır. Xalqa xidmət amalını bir ailə ənənəsi kimi yaşadan Prezident İlham Əliyev anası Zərifə xanımı dərin ehtiramla xatırlayaraq deyir: "Onun bütün fəaliyyəti, gördüyü bütün işlər insan amilinə dayanırdı. Çünki o həm peşəkar həkim, eyni zamanda çox xeyirxah insan idi. Böyük Lider, Ulu Öndər Heydər Əliyevin ömür-gün yoldaşı olan Zərifə xanım bütün işlərdə ona dayaq olur, onu dəstəkləyirdi. Hər bir insan üçün valideynləri əziz və müqəddəsdir. Mən çox xoşbəxtəm ki, Zərifə xanım kimi anam olmuşdur". Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva Zərifə xanımın ənənələrini davam etdirir. Yüksək dəyərləri öz şəxsiyyətində birləşdirmiş Mehriban xanım milli-mənəvi sərvətlərimizin qoruyucusudur. O, Azərbaycanda təhsilin, səhiyyənin, mədəniyyətin və digər sahələrin inkişafı üçün əlindən gələni edir. Özünün ictimai fəallığı və şəxsi örnəyi ilə müasir Azərbaycan qadınını bütün dünyada ləyaqətlə təmsil edir, Azərbaycan ailəsinin yüksək mənəvi dəyərlərə söykəndiyini və ümumbəşəri ideallar əsasında yaşadığını təcəssüm etdirir.

Artıq uzun illərdir ki, tanınmış oftalmoloq alim, akademik Zərifə xanım Əliyeva bizim aramızda yoxdur. Hər dəfə bu gözəl insanı xatırlayanda dərin kədər hissi keçiririk.

Zərifə xanım Əliyeva bir həkim, alim və vətəndaş kimi bütün ömrü boyu xalqı üçün çalışmışdı və o, səhiyyənin inkişafında oynadığı rol, insanların sağlamlığı yolunda gördüyü işlərlə əbədi olaraq xatirələrdə, xalqın yaddaşında daim yaşayacaqdır. Adını daşıyan Milli Oftalmologiya Mərkəzi, Naxçıvan şəhər poliklinikası, Elmi Tədqiqat Göz Xəstəlikləri İnstitutu, küçələr, xəstəxanalar, körpələr evi, təlim-təhsil ocaqları və sairə Zərifə xanım Əliyevaya bəslənilən rəğbətin, göstərilən ehtiramın nəticəsidir.

Görkəmli şair Səməd Vurğun deyirdi: "Mən sadəcə istəyirəm ki, hər şey bizdə iz qoysun, istəyirəm ki, yüz yaşa qədər yaşaya bilməyənlər bir gününü on il kimi yaşasınlar". Sanki bu sözlər Zərifə xanım üçün deyilib. Akademik Zərifə Əliyevanın gördüyü nəhəng işlər, yazdığı fundamental əsərlər, hazırladığı çoxsaylı mütəxəssislər, böyütdüyü, tərbiyə verdiyi övladlar, nəvələr - onun bu dünyada bizlərə qoyub getdiyi əmanətlərdir. Zərifə xanımın saldığı izlər əbədi olaraq Azərbaycan tarixində qalacaqdır. Elə hər il aprelin 28-də böyük alimin doğum günü, 15-də isə anım gününün dərin ehtiramla qeyd olunması xalqımızın bu böyük ziyalı insana sonsuz məhəbbətinin ifadəsidir. İnanırıq ki, zaman keçdikcə, nəsillər dəyişdikcə, bu məhəbbət xalqın ürəyində bir sevgi abidəsi kimi ucalacaq.

*Hicran HÜSEYNOVA,*
*Milli Məclisin komitə sədri,*
*professor*

# DSX Aparatında Zərifə Əliyevanın anadan olmasının 101-ci ildönümü münasibətilə tədbirlər keçirilib

**Aprelin 27-də görkəmli alim, Əməkdar elm xadimi, tibb elmləri doktoru, professor, Azərbaycan Elmlər Akademiyasının həqiqi üzvü Zərifə Əliyevanın anadan olmasının 101-ci ildönümü münasibəti ilə Dövlət Sərhəd Xidmətinin (DSX) Aparatında, struktur qurumlarında və hərbi hissələrində silsilə tədbirlər keçirilib.**



DSX-nin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, xidmətin qadın hərbi qulluqçuları Fəxri xiyabanda Zərifə Əliyevanın məzarını ziyarət edib, ehtiramlarını bildiriblər.

DSX Aparatında davam edən tədbirdə dünyaşöhrətli alim Zərifə Əliyevanın həyat və fəaliyyətini əks etdirən sərgi nümayiş olunub. Tədbirdə müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, Ümummilli Lider Heydər Əliyevin vəfalı ömür-gün yoldaşı, sədaqətli dostu və etibarlı silahdaşı, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin anası Zərifə xanımın elm üçün gözəl tədqiqatçı, övladlarına qayğıkeş valideyn, zəngin mənəviyyata sahib əsl ziyalı kimi keçdiyi ömür yolunun gənc xanımlarımızın formalaşmasına parlaq nümunə olması xüsusi vurğulanıb.



Əhatəli elmi fəaliyyəti ilə ölkəmizdə tibb sahəsinin inkişafına əhəmiyyətli töhfələr verən görkəmli alimin vaxtilə Azərbaycanda geniş yayılmış traxomanın, xüsusilə kimya və elektron sənayelərində peşə fəaliyyəti ilə bağlı göz xəstəliklərinin öyrənilməsi, profilaktikası və müalicəsinə, habelə oftalmologiyanın müasir problemlərinə dair bir çox sanballı tədqiqatlar apardığı, eyni zamanda "Terapevtik oftalmologiya", "İridodiaqnostikanın əsasları" kimi nadir elmi əsərlərin müəlliflərindən biri, 12 monoqrafiya, dərslik və dərs vəsaitinin, 150-yə yaxın elmi işin, 1 ixtira və 12 səmərəli təklifin müəllifi olduğu qeyd edilib.

Tədbirin sonunda görkəmli oftalmoloq, akademik Zərifə Əliyevanın həyat və fəaliyyətinə həsr edilmiş "Sönməyən işıq" sənədli filmi nümayiş etdirilib.

# Milli Kitabxanada Zərifə Əliyevaya həsr olunan materiallar hazırlanıb

**Azərbaycan Milli Kitabxanası görkəmli alim, Əməkdar elm xadimi, tibb elmləri doktoru, professor, Azərbaycan Elmlər Akademiyasının həqiqi üzvü Zərifə Əliyevanın həyat və yaradıcılığını əks etdirən "Akademik Zərifə Əliyeva" adlı virtual sərgi və "Oftalmoloq alim, akademik Zərifə xanım Əliyeva" adlı elektron məlumat bazası hazırlayıb.**




Kitabxanadan AZƏRTAC-a bildirilib ki, virtual sərgidə Zərifə Əliyeva haqqında görkəmli şəxslərin fikirləri, müəllifi olduğu və haqqında yazılan kitablar, həyat və fəaliyyətinə dair sənədlər, məqalələr və fotolar nümayiş etdirilib.

Elektron məlumat bazasında isə "Rəsmi sənədlər", Həyat və yaradıcılığının əsas tarixləri", "Bioqrafiyası", "Görkəmli şəxslər Zərifə Əliyeva haqqında", "Əsərləri", "Haqqında (Kitablar, Məqalələr)", "Zərifə xanım Əliyeva dünya kitabxanalarında" və bir sıra materiallar təqdim olunub.




# Azərbaycanın "yaşıl gündəliyi" artıq bəllidir

## Ölkəmiz ev sahibi olaraq COP29-un yüksək səviyyədə keçməsi üçün ciddi hazırlaşır

**Almaniyanın paytaxtı Berlində keçirilən "15-ci Petersberq İqlim Dialoqu"nu BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına - COP29-a gələn yol adlandırdılar. Çünki COP29 ərəfəsində təşkil olunan bu tədbir, adından da göründüyü kimi, iqlim böhranının aradan qaldırılması istiqamətində konkret addımları müzakirə etmək məqsədi daşıyırdı. COP29-a evsahibliyi edəcək ölkənin rəhbəri kimi, Azərbaycan Prezidenti İlham Əliyev bu mühüm tədbirin Yüksək Səviyyəli Seqmentində iştirak və çıxış etmişdir.**




"COP29-a evsahibliyi edəcək ölkə kimi yekdil qərarla seçilmək bizim üçün həqiqətən böyük şərəfdir. Biz bunu beynəlxalq ictimaiyyətin Azərbaycana və gördüyümüz işlərə, o cümlədən "yaşıl enerji" sahəsindəki fəaliyyətimizə hörmətinin əlaməti hesab edirik. Nəhayət, bu, böyük məsuliyyətdir, çünki biz nəinki yaxşı tədbir təşkil etməli, o cümlədən yaxşı nəticələrə nail olmalıyıq. Hesab edirəm ki, Azərbaycanın müxtəlif beynəlxalq təşkilatlarla beynəlxalq əlaqələri və onlarda fəal iştirakı bizə müxtəlif qitələrin ölkələri arasında körpülər salmaq və ya onları gücləndirmək, eləcə də onların həmrəyliyini möhkəmləndirmək imkanını yaradacaq".

Çıxışına bu məzmunda başlayan Prezident İlham Əliyev digər bir vacib məqamı da vurğuladı. Belə ki, COP29-un keçirilməsinə qərar veriləndən dərhal sonra bəzi mətbuat orqanları bir məsələdən narazılıqlarını bildirdilər. Bundan əvvəlki - 28-ci sessiyanın Birləşmiş Ərəb Əmirliklərində keçirildiyini vurğulayaraq soruşdular ki, iqlim dəyişmələrinə həsr olunan bu mötəbər tədbirə nə üçün növbəti dəfə yenə neft-qaz ölkəsi evsahibliyi edəcək? Prezident İlham Əliyev Berlindəki bütün çıxışlarında məhz həmin məsələyə də toxundu. Bildirdi ki, neftlə, qazla zəngin olan ölkələr haqqında hansısa miflər yaradılmamalı, onlar buna görə qınaq obyektinə çevrilməməlidir. Çünki bu ölkələr, o cümlədən Azərbaycandan əvvəl COP-u keçirmiş Misir və Birləşmiş Ərəb Əmirlikləri iqlim məsələlərinin həlli üçün böyük səylər göstərmişlər. Dünyada bu məsələ ilə bağlı ayrı-seçkilik, diskriminasiya aparılmamalıdır. Bu təbii sərvət Tanrıdan verilən bir paydır və ölkələrə bu nemətə görə qiymət verilməlidir. Əsas məsələ isə həmin sərvətdən düzgün istifadə etməkdir.

Azərbaycana gəldikdə, ölkəmizdə karbohidrogen ehtiyatlarından əldə olunan gəlirlərdən düzgün istifadə olunur. Buna görə də yoxsulluğun səviyyəsi son 20 il ərzində 50 faizdən 5 faizə enmişdir. Borcumuz ümumi daxili məhsulun cəmi 7,9 faizinə bərabərdir. Neftdən, qazdan gələn gəlirlər cəmiyyətdə ədalətli bölünür. Bu gün biz həm də erməni vandallarının 30 il ərzində xarabaya çevirdiyi Qarabağı və Şərqi Zəngəzuru yenidən tikib-qururuq.

COP29-a evsahibliyi etməyi ölkəmiz özü üçün böyük şərəf sayır. Lakin bu həm də məsuliyyətdir. İndi Azərbaycan bu qlobal tədbirə evsahibliyi edəcək ölkə kimi hazırlığın fəal mərhələsindədir. Artıq COP29-a az vaxt qalır. Odur ki, yaxşı nəticələrə nail olmaq üçün əlimizdən gələni edirik. "Yaşıl gündəliyimiz" də artıq dünyaya bəllidir. Əslində, Azərbaycanın bu gündəliyi hələ COP29 qərarından əvvəl icra olunmağa başlanıb. Xarici tərəfdaşlar və sərmayədarlarla "yaşıl keçid" üzrə nəhəng layihələrə start verilib. 2024-cü il ölkəmizdə "Yaşıl dünya naminə həmrəylik ili" elan edilib.

Təkcə bu il 1300 meqavat günəş və külək enerjisini istehsal etmək gücü olan stansiyaların təməli qoyulacaq. 2027-ci ilin sonuna qədər isə 2000 meqavat "yaşıl enerji"miz olacaq. Həmin vaxta qədər 9 günəş və külək elektrik stansiyası istismara veriləcək. 2030-cu ilə qədər isə əlavə olaraq 10 günəş və külək enerjisi stansiyaları qurulacaq ki, onların da gücü 5000 meqavat (5 qiqavat) təşkil edəcək. Bu potensial qaz istehlakının əksər hissəsini elektrik enerjisi ilə əvəzləməyə imkan verəcək. Nəticədə Avropaya ən azı əlavə 5 milyard kubmetr qaz ixrac etmək mümkün olacaq. Dövlətimizin başçısı bununla bağlı demişdir: "Neft və qazımız həmçinin Avropa bazarlarına hələ uzun illər ərzində lazım olacaq. 2022-ci ildə Avropa İttifaqı və Azərbaycan arasında enerji sahəsində Strateji Tərəfdaşlıq haqqında Anlaşma Memorandumu imzalanıb və bizim Avropa İttifaqına təbii qaz təchizatımız artmaqdadır. Bu, Avropa Komissiyasının xahişi idi. Biz buna müsbət cavab verdik. Hazırda təbii qaz ixracımızın yarısı, xüsusən də 12 milyard kubmetri Avropa İttifaqının bazarına gedir. Qeyd edilən memoranduma əsasən, 2027-ci ilə qədər Avropa İttifaqına ixracımız 20 milyard kubmetrə çatmalıdır. Hamımız anlayırıq ki, bu geosiyasi durumda həmin məsələ Azərbaycanın məsuliyyətli olmağının təzahürüdür, çünki biz qaz hasilatımızın artırılmasına böyük həcmdə sərmayə yatırırıq və Avropaya yeni mənbələrdən daha çox qaz lazımdır".

"Yaşıl enerji"nin də dünya bazarlarına çıxışı hazırda Azərbaycanın enerji siyasətinin prioritetlərindəndir. Xəzərdə külək enerjisi stansiyalarından Avropaya vahid ötürülmə xətləri, o cümlədən Qara dənizin dibi ilə kabel çəkmək üçün texniki əsaslandırma işləri son mərhələsinə çatıb. Bu da Azərbaycana 4 qiqavat (4000 meqavat) həcmində "yaşıl enerji"ni Avropaya ixrac etmək imkanı yaradacaq. Xatırladaq ki, Xəzərdə 157 qiqavat külək enerjisi ehtiyatlarımız təsdiq olunub.

Bir sözlə, Azərbaycanda energetika sahəsində bərpaolunan enerji mənbələrindən istifadənin genişləndirilməsi Prezident İlham Əliyev tərəfindən prioritet vəzifə olaraq irəli sürülüb və 2030-cu ilədək elektrik enerjisinin qoyuluş gücündə bərpaolunan enerjinin payının 30 faizə çatdırılması hədəf kimi müəyyənləşdirilib. Ölkəmizdə keçiriləcək BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası iqlim dəyişikliyinə yeni yanaşmalar yaradacaq və müxtəlif maraqlı tərəflər arasında əməkdaşlığı təşviq edəcək. Başqa sözlə, Azərbaycan körpülər yaradacaq, o cümlədən "yaşıl enerji"yə keçidlə və iqlim dəyişikliyi ilə bağlı. Dünyada hər kəs gündəliyimizin "yaşıl enerji" ilə bağlı olduğunu bir daha görəcək.

Prezident İlham Əliyev Berlində bunları bir daha vurğulayaraq demişdir: "Yekun fikrim ondan ibarətdir ki, enerji təhlükəsizliyi birmənalı olaraq ölkələrin milli təhlükəsizlik məsələsi hesab edilməlidir. Ayrı-seçkilik olmamalıdır. Faydalı qazıntı ilə zəngin olan ölkənin rəhbəri kimi, əlbəttə ki, biz həmin ölkələrin sərmayəni və hasilatı davam etdirmək hüququnu müdafiə edəcəyik, çünki dünyanın buna ehtiyacı var. Lakin eyni zamanda artıq qeyd etdiyim kimi, faydalı qazıntısı olan ölkələr iqlim dəyişmələri məsələlərinə aid həmrəyliyi nümayiş etdirən ölkələr sırasında olmalıdırlar".

*Flora SADIQLI,*
*"Azərbaycan"*

# Mərakeş Kralı COP29-a dəvət olunub

**Aprelin 26-da Azərbaycanın Mərakeş Krallığındakı səfiri Nazim Səmədov Mərakeşin xarici işlər, Afrika əməkdaşlığı və xaricdə yaşayan mərakeşlilər naziri Nasser Burita ilə görüşüb.**



Azərbaycan Respublikasının Mərakeşdəki səfirliyindən AZƏRTAC-a bildirilib ki, görüş zamanı 2024-cü ilin noyabrında ölkəmizin evsahibliyi edəcəyi BMT-nin İqlim dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasında (COP29) iştirakla bağlı Azərbaycan Prezidenti İlham Əliyevin Mərakeş Kralı VI Məhəmmədə ünvanladığı dəvət məktubu N.Buritaya təqdim olunub.

# "COP29 və Azərbaycan üçün Yaşıl Baxış" - Azərbaycan modelinin təqdimatı üçün mühüm platforma

**"Azərbaycan dünya miqyasında ən mühüm beynəlxalq tədbirlərdən birinin keçirilməsi ərəfəsindədir. Bu ilin payızında ölkəmiz COP29-a evsahibliyi edəcək. Hazırda Azərbaycan bu mötəbər tədbirə ciddi şəkildə hazırlaşır. Aprelin 23-də ADA Universitetində təşkil olunan "COP29 və Azərbaycan üçün Yaşıl Baxış" mövzusunda beynəlxalq forum məsələnin önəmi barədə geniş fikir mübadiləsi aparmaq baxımından önəmli platforma oldu.**



Çünki forumda dünyanın müxtəlif nüfuzlu beyin mərkəzlərinin nümayəndələri iştirak edirdilər". Bu fikirləri AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı, YAP İdarə Heyətinin üzvü Pərvin Kərimzadə deyib.

O bildirib ki, forumda Prezident İlham Əliyev dərinməzmunlu çıxış edib, iştirakçıların çoxsaylı suallarını cavablandırıb. Qeyd olunub ki, COP29-un ölkəmizdə keçirilməsi beynəlxalq ictimaiyyətin Azərbaycana olan böyük hörmətinin və dəstəyinin təzahürüdür. Azərbaycanın COP29-a sədrliyi həm də ən təxirəsalınmaz məsələlərin həllinə qlobal aləmdə töhfə vermək fürsətidir. Forumda diqqət mərkəzində olan əsas məsələlərdən biri də Cənubi Qafqazda vəziyyət, Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşdırılmasıdır. Azərbaycan Prezidenti vurğulayıb ki, COP29 üç Cənubi Qafqaz ölkəsi arasında ən azı məsləhətləşmələri aparmaq üçün fürsət yaradacaq və gələcək əməkdaşlıq üçün yol açacaq.

Deputatın sözlərinə görə, müstəqil Azərbaycan özünün hər cəhətdən müsbət reallıqları ilə dünyaya nümunəvi inkişaf modeli təqdim edir: "Bunun nəticəsidir ki, ölkəmizə və onun liderinə beynəlxalq səviyyədə böyük etimad və hörmət göstərilir. Prezident İlham Əliyev ADA Universitetində keçirilən "COP29 və Azərbaycan üçün Yaşıl Baxış" mövzusunda beynəlxalq forumda ölkəmizin uğurlarının səbəblərindən danışıb. Bu xüsusda fikirlərini ifadə edən dövlətimizin başçısı deyib ki, ölkəmiz heç vaxt Azərbaycan üçün potensial təhlükə yarada biləcək heç bir işə qoşulmayıb, hər zaman İran, Rusiya, Gürcüstan və Avropa, həmçinin qardaş Türkiyə ilə münasibətlərində ədalətli olub. Azərbaycanın uğurunun səbəbi də məhz bundadır. Uğurlu inkişafın təmin olunması üçün bir sıra fundamental amillər zəruri şərtlər qismində çıxış edir. Regional sabitlik və təhlükəsizlik də bu sırada yer alır. Prezident İlham Əliyev dəfələrlə özünün konstruktiv yanaşmasını diqqətə çatdıraraq bildirib ki, təcrid olunmuş hansısa ölkənin uğurlu inkişafı mümkün deyil, bundan ötrü mütləq regional səviyyədə qonşularla yaxşı münasibətlər qurmaq lazımdır. Hazırda Azərbaycan Ermənistan istisna olmaqla, bütün qonşularla yüksəksəviyyəli münasibətlərə malikdir. Eyni zamanda respublikamızda tam daxili sabitlik mövcuddur. Azərbaycan məhz belə bir şəraitdə tərəfdaş dövlətlərin iştirakı ilə regional və qlobal əhəmiyyət daşıyan bir sıra transmilli layihələrin uğurla reallaşdırılmasına nail olub. Hazırda bu layihələr sayəsində regional inkişaf dəstəklənir və bütün tərəfdaş dövlətlər bundan faydalanırlar. Qeyd olunan layihələrdə Azərbaycanın tərəfdaşları sırasında bir qayda olaraq qardaş Türkiyə öndə gəlir. Bu gün ölkəmizin inkişafına təkan verən və çoxlu sayda tərəfdaş dövlətin bəhrələndiyi enerji və nəqliyyat layihələrinin təşəbbüskarı qismində məhz Azərbaycan çıxış edir. Hazırda Azərbaycan şaxələndirilmiş nəql marşrutları ilə Gürcüstanın, qardaş Türkiyənin və Avropanın enerji təhlükəsizliyinə mühüm töhfələr verir".

YAP İdarə Heyətinin üzvü vurğulayıb ki, Azərbaycanla Ermənistan arasında sərhədlərin delimitasiyası, o cümlədən Qazaxın dörd kəndinin dinc yolla qaytarılması sülh üçün yaxşı imkan yaradır. Prezident İlham Əliyevin dediyi kimi, COP29-dan əvvəl Azərbaycan ilə Ermənistan arasında sazişə nail olmaq, ən azı baza prinsipləri üzrə razılığa gəlmək tam real görünür. Bu, qarşı tərəf üçün ciddi mesajdır. Çünki regionumuzun sülh və əməkdaşlıq məkanına çevrilməsi ilk növbədə bölgədə yaşayan xalqların rifahına xidmət edir. Ona görə də Azərbaycanın sülh təşəbbüsləri dəstəklənməlidir. Qısa müddət ərzində sülh sazişi imzalanarsa, regionumuzun tarixində yeni bir mərhələ başlanmış olacaq.

# "Əsrin yaşıl müqaviləsi" Azərbaycanın dəniz külək enerjisi ilə bağlı arzusunu reallığa çevirə bilər

**Bakının Qərb ölkələri ilə tarixi neft sazişini imzalamasından 30 il sonra "oxşar sazişlər" dəniz külək enerjisi sektoru üçün start meydançası ola bilər.**

AZƏRTAC xəbər verir ki, bunu bərpaolunan enerji sahəsində xəbərlər yayan "Recharge" jurnalında "Əsrin yaşıl müqaviləsi" Azərbaycanın dəniz külək enerjisi ilə bağlı arzusunu reallığa çevirə bilər" sərlövhəli məqalədə Azərbaycanın energetika nazirinin müavini Elnur Sultanov deyib.

Energetika nazirinin müavini və Bakıda keçiriləcək BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının - COP 29-un baş icraçı direktoru Elnur Sultanov bildirib ki, dəniz külək elektrik stansiyalarının tikilməsi Azərbaycan hökumətinin Avropa istehsalçıları ilə birgə "elektrik enerji hasilatının pay bölgüsü müqaviləsi"nə oxşar layihəyə açıq olmasını göstərir.

"Energetika sahəsində strateji tərəfdaşlıqlar bizim üçün həmişə çox əhəmiyyət kəsb edəcək" deyən energetika nazirinin müavini Azərbaycanda bərpaolunan enerji sahəsində layihələr icra edən "Masdar" və BP şirkətləri ilə əməkdaşlıqlara diqqət çəkib. "Əgər biz Xəzərdə dəniz külək enerji layihəsini inkişaf etdirmək istəyiriksə, onda bizim mütləq yerli istehsala ehtiyacımız var, bütün komponentlər Avropa ölkələrindən (quru yolla - red.) gələ bilməz", - deyə o bildirib.




SOCAR - Dövlət Neft Şirkətinin nümayəndəsi Teymur Quliyev isə Dünya Bankı ilə əməkdaşlıq çərçivəsində ortaya çıxan bir sıra texniki məsələlər barədə danışıb. Bildirilib ki, "Masdar" keçən il Azərbaycan hökuməti ilə 10 qiqavat gücündə bərpaolunan enerji stansiyası, o cümlədən 2 qiqavat gücündə dəniz külək enerjisi stansiyası layihəsinə dair müqavilə imzalayıb. Səudiyyə Ərəbistanının "ACWA Power" şirkəti həmçinin Bakı ilə dördlayihəli sazişin bir hissəsi olaraq 1,5 GVt-lıq dəniz külək enerji stansiyası layihəsini həyata keçirir.

"Bu elektrik enerjisinin milli şəbəkəyə inteqrasiyası ilə bağlı çətinliklər olacaq. Ona görə də biz bu enerji ilə nə edəcəyimizi düşünməliyik: yerli bazar elə də böyük deyil, həm də enerjini bir ölkədən digərinə rahat şəkildə ötürmək üçün Aİ-də olduğu kimi, sinxron elektrik bazarı yoxdur" deyən Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyinin direktor müavini Kamran Hüseynov qeyd edib. Onun sözlərinə görə, burada Avropaya ixrac vacib rol oynayacaq və Azərbaycan gələcəkdə dəniz külək enerjisi stansiyalarından alınacaq əlavə enerjidən hidrogen və elektrik yanacaq istehsal edə bilər.

Azərbaycan $CO_2$ emissiyalarını 2030-cu ilə qədər 35 faiz və əsrin ortalarına qədər 40 faiz (1990-cı il səviyyəsindən) azaltmaq üzrə milli hədəfinə çatarsa, dəniz külək enerjisinin neft dövləti üçün əsas mühərrik olacağını söyləmək mümkündür. "ACWA Power"in baş icraçı direktoru Selim Güven deyib ki, zəngin dəniz külək enerjisi ehtiyatı var və ondan istifadə olunmasa, bu, bir növ günah olardı: "Biz bu resursu iki istiqamətdə inkişaf etdirmək istəyirik: "yaşıl hidrogen" və "yaşıl elektrik". Hidrogen daha yaxşı və dəyərli enerji növü ola bilər".

Məqalədə bildirilir ki, Azərbaycanın energetika nazirinin müavini Elnur Sultanovun sözlərinə görə, Xəzərdən Qara dənizə və Avropaya uzanan 1200 kilometr uzunluğundakı 1 qiqavat yüksəkgərginlikli ötürücü kabel Mərkəzi Asiya və Aİ dövlətlərini birləşdirən "yaşıl dəhliz" çərçivəsində regiondan kənarda formalaşan dəniz külək enerjisi də daxil olmaqla, bərpaolunan enerji üçün ən yaxşı "yeni marşrut" olacaq.

"Bu, Trans-Xəzər enerji dəhlizi həm uzun məsafələr üzrə tələb və təklif (enerji - red.) baxımından daha yaxşı tarazlıq üçün şəbəkələri "birləşdirmək" baxımından faydalı olacaq, həm də digər Xəzəryanı ölkələrdə bərpaolunan enerji resurslarının bəzilərinin inkişafına töhfə verəcək... Bir növ "sülh elektrik xətti" kimi", - deyə E.Sultanov vurğulayıb.

# Demokratiyanın iki üzü - ədalətin ikili standartı

## Avropa Parlamentinin "qoca qitə"nin özündə belə nüfuzu qalmayıb

**"Avropa Parlamenti Azərbaycanla bağlı növbəti qərəzli qətnaməni qəbul etməklə öz riyakarlığını və ikiüzlülüyünü bir daha nümayiş etdirdi. Ermənistan və erməni lobbisinin təsiri altında olan dairələr tərəfindən hazırlanan bu qətnamə Azərbaycana qarşı qarayaxma kampaniyasının tərkib hissəsidir. Avropa Parlamenti ölkəmizlə bağlı qəbul etdiyi qərarlarında bütün faktları saxtalaşdırmağa adət edib".**

Bu fikirləri qəzetimizə açıqlamasında Milli Məclisin deputatı Müşfiq Cəfərov deyib. Deputat bildirib ki, Avropa Parlamenti Azərbaycanın daxili işlərinə və Ermənistanla münasibətlərinə müdaxilə etmək əvəzinə, Avropanı bürüyən daha ciddi problemlər, o cümlədən irqi ayrı-seçkilik, islamofobiya, ksenofobiya, ekstremizm və miqrantlara münasibətdə qeyri-insani davranış kimi məsələlərə diqqət yetirsə, daha faydalı olar: "Bu parlamentin bəyan etdiyi prinsiplərlə heç bir əlaqəsi olmayan belə qətnamələr Avropa Parlamentinin mötəbər bir qurum kimi rolunu tamamilə heçə endirib. Bu kimi çoxsaylı birtərəfli və qərəzli qətnamələrin adekvat olaraq dəyərləndirilmədən qəbul edilməsi Avropa Parlamenti üçün sanki bir ənənəyə çevrilib. Mütəmadi olaraq davam edən bu proses Avropa İttifaqının Azərbaycanla münasibətlərinin daha da pisləşməsinə yönəlmiş açıq siyasi sifarişindən başqa bir şey deyil. Bu sənədləri qəbul etməyi



təşviq edənlərin niyyəti Avropa cəmiyyətini aktual sosial-iqtisadi və siyasi problemlərdən yayındırmaqdır. Avropada son illərdə demokratiyadan əsər-əlamət qalmayıb".

Müşfiq Cəfərovun sözlərinə görə, Avropa Parlamenti unudur ki, Beynəlxalq Hüquq Prinsipləri haqqında Bəyannamə, ATƏM-in Yekun Aktı, BMT-nin dövlətlərin daxili işlərinə müdaxilə edilməsinin yolverilməzliyi və 21 dekabr 1965-ci il tarixli müstəqillik və suverenliyinin qorunması haqqında Bəyannaməsi var. Bu sənədlər dövlətlərin daxili səlahiyyətlərində olan məsələlərə qarışmamağı yekdilliklə ifadə edir. Avropa Parlamenti ona üzv olan ölkələrdəki xaosu unudub, Azərbaycanın daxili məsələlərinə reaksiya verməklə, dövlətimizi xarici məsələlərdəki qətiyyətli mövqeyindən yayındırmağa çalışır.

"Avropa Parlamentinin deputatlarını Azərbaycan vətəndaşlarının hüquq və azadlıqları maraqlandırmır. Bu qurumun otuz il müddətində doğma yurdlarından didərgin düşən, ağır işgəncələrə məruz qalan azərbaycanlılarla bağlı canfəşanlıq etmək əvəzinə, daim Ermənistanı dəstəkləyən qətnamələr qəbul etməsi bunu sübuta yetirir. Avropa Parlamenti torpaqlarımızın işğalı dövründə doğma yurdlarından qovularaq, bütün hüquq və azadlıqlarından məhrum edilmiş bir milyondan çox azərbaycanlı qaçqın və məcburi köçkünün ləyaqətinin tapdalanması ilə bağlı həmişə susmağa üstünlük verib", - deyə müsahibimiz əlavə edib.

Deputat qeyd edib ki, Avroparlament bu davranışları ilə öz nüfuzuna zərbə vurur: "Qoca qitə"nin özündə belə nüfuzunu itirən bu qurumun apardığı qərəzli kampaniyalar ikitərəfli münasibətlərin inkişaf perspektivlərinə də xələl gətirir. Lakin unudulmamalıdır ki, heç bir qüvvə Azərbaycanı demokratik inkişaf yolundan döndərə bilməz".

*Nəzrin QAFARZADƏ,*
*"Azərbaycan"*



## Ankarada keçirilən forumda Qərbi Azərbaycanın tarixi irsi müzakirə olunacaq




**Mayın 3-də Ankarada Qərbi Azərbaycanın mədəni-tarixi irsinə, eləcə də iki qardaş ölkənin strateji əməkdaşlığının genişlənməsi yollarının müzakirəsinə həsr olunan Türkiyə-Azərbaycan forumu keçiriləcək.**

AZƏRTAC xəbər verir ki, Ankara Şəhər Şurasının binasında keçiriləcək tədbirin təşkilatçıları sırasında Türkiyə İnternet Media Birliyi (TİMBİR) də yer alır. Forum çərçivəsində Türkiyə Mədəniyyət və Turizm Nazirliyi, Azərbaycan Mətbuat Şurası, Ankara Şəhər Şurası, TRT telekanalının təmsilçilərinin, elm adamlarının iştirak edəcəyi iki sessiya planlaşdırılıb.

Türkiyə İnternet Media Birliyi Türkiyənin 817 müxtəlif media strukturunu birləşdirir. TİMBİR-in dünyanın 20 ölkəsində nümayəndəliyi var.

## *Dmitri PESKOV:* "Moskva Azərbaycanla Ermənistan arasında sülh sazişinin tezliklə imzalanmasının tərəfdarıdır"

**Moskva Azərbaycanla Ermənistan arasında sülh sazişinin tezliklə imzalanmasının tərəfdarıdır.**

AZƏRTAC xəbər verir ki, bu barədə Rusiya Prezidentinin mətbuat katibi Dmitri Peskov jurnalistlərin xahişi ilə Ermənistanda Azərbaycanla sərhədin delimitasiyası əleyhinə etirazları şərh edərkən bildirib.



D.Peskov deyib: "Biz bunu şərh etmək istəməzdik. Biz Bakı ilə İrəvan arasında təmasların davam etdirilməsinin tərəfdarıyıq, çünki onlar gərginliyin ümumi azaldılması və tezliklə sülh sazişinin imzalanmasına nail olmaq məqsədilə gündəlikdə duran bütün mübahisəli məsələlərin qəti şəkildə nizamlanması üçün zəruridir."

# ABŞ qərəzli hesabatları ilə Azərbaycana təzyiq göstərmək istəyir

## Unudur ki, ölkəmizlə bu cür davranmaq mümkün deyil

**Açıqladığı hesabatlar o qədər qeyri-ciddi xarakter daşıyır ki, artıq onu oxuyanlar yazılanlara inanmırlar. Söhbət ABŞ Dövlət Departamentinin yaydığı yalanlarla dolu hesabatlardan gedir. Bu günlərdə Dövlət Departamenti 2023-cü il üzrə insan haqlarına dair ənənəvi hesabatını açıqlayıb.**

Həmişə olduğu kimi, hesabatın Azərbaycana aid hissəsində yenə də qərəzli, obyektiv olmayan məlumatlar yer alıb. Artıq hamıya gün kimi aydındır ki, ABŞ-nin bu cür həqiqətdən uzaq olan riyakar hesabatları real vəziyyəti əks etdirməkdən daha çox ölkələrə təzyiq aləti rolunu oynayır. Ümumiyyətlə, ABŞ-nin hər il "insan haqlarına" dair hesabatı dünyada qeyri-ciddi qəbul olunur. Ona görə ki, reallığı əks etdirmir, məlumatlar yalanlar üzərində qurulur. Onun hazırlanması zamanı ikinci, ya da üçüncü dərəcəli ABŞ diplomatlarının ölkələrdə sosial mediada yayılan neqativ məlumatları toplayıb dəqiqləşdirmədən, peşəkar təhlil aparılmadan, tələm-tələsik hesabata daxil edilir. Buna görə də reallığı əks etdirmir.

Təəssüf ki, real faktlar bəzən bir sıra xarici dairələr tərəfindən təhrif olunur və ölkəmizə qarşı açıq ikili standartlar tətbiq edilir. Azərbaycanın daim yalnız milli mənafeyə köklənmiş siyasət yürütməsindən narahat olan bu dairələr korporativ maraqlarının əsirinə çevrilirlər. ABŞ Dövlət Departamentinin 2023-cü il üzrə insan haqlarına dair hesabatı da bu istiqamətdə atılan növbəti addımlardan biridir.

Əgər ABŞ həqiqətən də dünyada insan haqları sahəsinə "nəzarət" rolunu üzərinə götürürsə, tamam fərqli yanaşma sərgiləməlidir. Ən başlıcası sosial mediada yayılan, çox vaxt həqiqəti əks etdirməyən və təsdiqlənməyən şayiələrə deyil, təsdiqlənmiş real məlumatlara əsaslanmalıdır. Özünə yaxın bildiyi ölkələrdəki kriminogen, repressiv, qeyri-hüquqi addımları görməyən ABŞ insan hüquq və azadlıqlarının təmin olunduğu, vətəndaş cəmiyyətinin formalaşdırıldığı və daha da təkmilləşdirilməsi istiqamətində mühüm addımların atıldığı dövlətləri bu hesabatla hədəfə alır.

Digər tərəfdən, ABŞ əgər bütün dünyada insan hüquq və azadlıqlarına nəzarəti üzərinə götürürsə, bu işə özündən başlasa daha yaxşı olardı. Qoy Dövlət Departamenti ölkəsində insan haqları sahəsində vəziyyətə dair könüllü və açıq şəkildə hesabatla çıxış etsin. Hazırlanacaq həmin hesabatda ABŞ-dəki rasizmi, islamofobiya, miqrantların hüquqlarının pozulması, həbsxanalarda dözülməz şəraitin olması və digər mənfi məsələlər əks olunsun. Olunacaqmı?




Təbiidir ki, yox. Amerikada hələ də fərqli irqi ayrı-seçkiliyin hökm sürdüyü hamıya yaxşı məlumdur. Fərqli irqə, rəngə mənsub olduğu üçün insanlara qarşı tolerant davranılmaması haqda minlərlə sübut və misallar var. Eyni mənzərə dini müstəvidə də hökm sürməkdədir - insanların dini inancına qarşı dözülməzlik nümayişi addımbaşı hiss olunur. ABŞ Dövlət Departamenti məgər bunları görmürmü? Görürsə niyə hesabatına daxil etmir? Öz ölkəsində haqları pozulan insanlara kömək etməyən Dövlət Departamentinin hesabatının səmimiliyinə, doğruluğuna necə inanasan?

Söz yox ki, ABŞ böyük və güclü dövlətdir. Amma unudulmamalıdır ki, bu amil hələ hər şey demək deyil. Qlobal gücə sahib olmaq Amerikaya belə bir səlahiyyət vermir. Təəssüf ki, dünyaya demokratiya dərsi keçməyə çalışan bir ölkədə kalloabolosionist yanaşma hələ də aktuallığını saxlamaqdadır. Amerikada hər addımbaşı insanların haqları pozulur. Amma ABŞ "öz gözündəki tiri" görmür. Təbidir ki, görür, sadəcə olaraq, özünü görməməzliyə və bilməməzliyə vurur. Dövlət Departamentinin bəyan etdiyi bu "hesabatların" qeyri-ciddi obrazı isə get-gedə rəsmi Vaşinqtonun özünün siyasi imicinə qarışıq rənglər qatır.

Həmişə olduğu kimi, ABŞ Dövlət Departamenti hazırladığı hesabat vasitəsilə Azərbaycana təzyiq göstərmək istəyir. Təəssüf doğuran odur ki, Azərbaycana aid hesabatda digər əsassız iddialarla yanaşı, ölkəmizdə ermənilərin hüquqlarının guya pozulması kimi böhtanlara genbol yer ayrılıb. Lakin Ermənistana aid hesabatda oradan azərbaycanlıların qovulması, onların mədəni irsinin dağıdılması və qayıdışına imkan verilməməsi kimi kütləvi insan haqları pozuntuları məsələlərinə toxunulmur. Bu vacib məsələnin üstündən sükurla keçilir. Sanki elə bu cür də olmalıdır.

Daim yalan, uydurma hesabatlar yayan ABŞ onu da bilməlidir ki, Azərbaycanla bu cür rəftar etmək yolverilməzdir. Azərbaycanda olan vəziyyətlə bağlı belə qərəzli mövqe bəsləmək olmaz. Bu cür hesabatlar real təhlillərə, dövlətlərin, hökumətlərin müvafiq hesabatlarına əsaslanmalıdır. Amma buna baxmayaraq, ildən-ilə ABŞ-nin Dövlət Departamenti yanlış mövqe tutaraq ölkələrin daxili işlərinə qarışmaqla məşğuldur. Azərbaycanın sabit və davamlı inkişafı, dövlət maraqlarına söykənən daxili və xarici siyasət kursu yürütməsi, eləcə də demokratik prinsiplərə sadiqlik nümayiş etdirməsi ölkəmizi yerləşdiyi Cənubi Qafqaz regionunun lider dövləti olduğunu göstərir. Bölgədə yeni siyasi reallıqlar formalaşdırmaqla yanaşı, davamlı olaraq həyata keçirilən islahatlar, qanunların yeni, müasir standartlar əsasında hazırlanması, o cümlədən insan hüquqlarının, söz azadlığının qorunması yönündə atılan addımlar, azad, şəffaf və demokratik seçkilərin keçirilməsi Azərbaycanın əsas təməl prinsiplərinə çevrilib. Cənubi Qafqazda söz sahibi olan Azərbaycan insan haqlarının qorunmasını daim diqqət mərkəzində saxlayır. Bu istiqamətdə yeni qanun və qərarlar qəbul olunur. Bu qanun və qərarlar insan haqlarının qorunmasına, müdafiə olunmasına hərtərəfli zəmin yaradır.





*Vahid MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*




# BP bəyan edir: "Strategiyamız gələcəyin enerji sisteminə sərmayə qoymaqdır"

## Hasilata başlayan yeni ACE platforması da məhz bu məqsədə xidmət edir



**Xəzərin Azərbaycan sektorundakı "Azəri-Çıraq-Günəşli" (AÇG) yataqlar blokundan indiyədək 4,3 milyard bareldən çox neft hasil edilib. 1994-cü il sentyabrın 20-də "Əsrin müqaviləsi" ilə işlənməsinə start verilən və üç il sonra - 1997-ci il noyabrın 12-də hasilata başlayan blokun bu və digər uğurları vaxtilə AÇG-nin sərvətindən bədgüman olanlara ən tutarlı cavabdır.**

Üstəlik, bu dünya səviyyəli yataqlardan hasilatın gələcək onilliklər ərzində davam edəcəyi də gözlənilir. Sadəcə, yeni texnologiya və qurğular, irihəcmli davamlı investisiyalar və digər vasitələrlə maksimum neftverməyə nail olmaq üçün səylər tələb olunur. Cari il aprelin 16-da AÇG-nin işlənməsi çərçivəsində yeni "Azəri Mərkəzi Şərqi" (ACE) platformasından neft hasilatının alınması deyilənləri əyani təsdiq edir. ACE "Çıraq", "Mərkəzi Azəri", "Qərbi Azəri", "Şərqi Azəri", "Dərinsulu Günəşli" və "Qərbi Çıraq"dan sonra yeddinci hasilat platformasıdır.

ACE platforması eyniadlı layihə çərçivəsində inşa edilib. 6 milyard dollarlıq ACE layihəsi Xəzər dənizində nəhəng AÇG yataqlarının işlənməsinin növbəti mərhələsidir. Belə ki, ACE platformasının təhlükəsiz şəkildə işə salınması 2017-ci ilin sentyabrında "Azəri-Çıraq-Günəşli" üzrə Hasilatın Pay Bölgüsü haqqında Sazişin müddətinin 2050-ci ilin əvvəlinədək uzadılmasından sonra AÇG tərəfdaşlarının qəbul etdiyi ilk böyük investisiya qərarının reallaşmasıdır. Layihə üzrə yekun investisiya qərarı 2019-cu ilin aprelində qəbul olunub.

ACE texnoloji və rəqəmsal baxımdan BP-nin dünyada ən qabaqcıl, həmçinin qurudan idarə etdiyi ilk platformadır. Suyun dərinliyinin 137 metr olduğu sahədə yerləşən 48 qazma şaxtalı bu yeni hasilat, qazma və yaşayış bloklu platforma adını yaxın qonşuları "Mərkəzi Azəri" və "Şərqi Azəri"dən alıb. Yeni platformanın dayaq blokunun çəkisi 16 min ton, hündürlüyü 153 metrdir. Dayaq bloku Heydər Əliyev adına Bakı Dərin Özüllər Zavodunda inşa edilib və 2023-cü ilin əvvəlində Xəzər dənizinə, öz daimi yerinə yola salınıb. ACE-nin çəkisi 19 min 600 ton olan üst modulları Bakı yaxınlığında yerləşən Bayıl tikinti-quraşdırma sahəsində tikilib. Üst modullar keçən ilin avqustunda dənizdə quraşdırılmaq üçün öz daimi yerinə göndərilib. İşlərin pik dövründə Azərbaycanda ACE layihəsinin tikinti işlərinə 8500 nəfərdən çox işçi cəlb olunub.

ACE platforması və qurğuları gündəlik 100 min barelədək neft hasilatı gücündə layihələndirilib. Layihənin istismar müddəti ərzində ümumilikdə 300 milyon barelədək neft hasil ediləcəyi gözlənilir. ACE-dən çıxarılan neft platformadakı texniki emal qurğularından keçəndən sonra 30 düymlük mövcud sualtı ixrac boru kəmərinə qoşulmuş yeni yataqdaxili xətlə təxminən 130 kilometr keçərək Səngəçal terminalına ixrac ediləcək.

ACE-dən ilk neft ötən ilin sonunda platformadan qazılmasına başlanmış birinci quyudan əldə olunub. Bu il ərzində daha iki quyunun qazılıb istismara verilməsi planlaşdırılır. Bununla da ACE-dən hasilatın tədricən artaraq ilin sonuna gündə təxminən 24 min barelə çatacağı gözlənilir.

Xatırladaq ki, AÇG layihəsinin tərəfdaşları bunlardır: BP (30,37 faiz), SOCAR (25 faiz), MOL (9,57 faiz), INPEX (9,31 faiz), "Equinor" (7,27 faiz), "ExxonMobil" (6,79 faiz), TPAO (5,73 faiz), ITOCHU (3,65 faiz), ONGCVidesh (2,31 faiz).

AÇG-nin əməliyyatçısı olan BP şirkəti bəyan edir ki, onun strategiyası ACE kimi layihələrin işlənməsinə, bu günün və həm də gələcəyin enerji sisteminə sərmayə qoymaqdır.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# T.İBRAYEV: "Azərbaycan Qırğızıstana neft məhsulları ixrac etməyə hazır olduğunu bildirib"

**Azərbaycan Qırğızıstana neft məhsulları ixrac etməyə hazır olduğunu bildirib. AZƏRTAC xəbər verir ki, bu barədə "Kabar" agentliyinə müsahibəsində Qırğızıstanın energetika naziri Taalaybek İbrayev bildirib.**



Onun sözlərinə görə, Qırğızıstan Prezidenti Sadır Japarovun dövlət səfəri çərçivəsində Heydər Əliyev adına Bakı Neft Emalı Zavodunun rəhbərliyi ilə danışıqlar aparılıb. Danışıqlar çərçivəsində tərəflər Azərbaycandan neft məhsullarının Qırğızıstana tədarükü imkanlarını müzakirə ediblər. Qırğız nazir qeyd edib: "Azərbaycan neft məhsullarının ən böyük ixracatçılarından biridir. Tezliklə Qırğızıstanda "Cunda" neft emalı zavodu da fəaliyyətə başlayacaq və onun tələbatı ildə 1 milyon tondan çox olacaq. Bununla bağlı SOCAR rəhbərliyi ilə Qırğızıstana neft tədarükü məsələləri müzakirə olunub. Öz növbəsində onlar da əməkdaşlığa hazırdırlar. Hazırda logistika məsələsi üzərində işləyirik".

# Laçının Sus kəndinə ilk köç olacaq

**Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsində Laçın rayonunun Sus kəndinə köçürüləcək ailələr arasında püşkatma keçirilib.**

"Trend" xəbər verir ki, tədbirdə komitənin rəhbər şəxsləri, Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Laçın rayonunda Azərbaycan Prezidentinin xüsusi nümayəndəliyinin, Laçın Rayon İcra Hakimiyyətinin və Dövlət Komitəsi yanında İctimai Şuranın nümayəndələri iştirak ediblər. Sus kəndində yeni inşa edilmiş fərdi evlər indiyədək müvəqqəti məskunlaşma yerlərində yaşayan və həmin kənddə daimi qeydiyyatda olan məcburi köçkünlərə verilir. Püşkatma 59 ailə arasında keçirilib. Ailə tərkibinə uyğun olaraq, onlardan 13-ü ikiotaqlı, 28-i üçotaqlı, 14-ü dördotaqlı, 4-ü isə beşotaqlı fərdi evə köçürüləcək.

Püşkatmada iştirak etmiş ailələrin yaxın günlərdə Laçın rayonunun Sus kəndinə yola salınmasına başlanacaqdır.

● **Alim təklif verir**

# Emal sənayesi: dayanıqlı inkişafın lokomotivi

**Azərbaycanın dinamik inkişafını təmin edən başlıca amillərdən biri iqtisadiyyatın şaxələndirilməsi siyasətinin həyata keçirilməsidir. Bir sıra ölkələrin, o cümlədən Azərbayacanın təcrübəsində uğurla sınaqdan çıxmış, özünü doğrultmuş bu iqtisadi siyasət dayanıqlı iqtisadi artıma, əhalinin məşğulluq səviyyəsinə və iqtisadi fəaliyyətin səmərəliliyinin yüksəldilməsinə güclü təsir edir.**

Milli Məclisdə Nazirlər Kabinetinin 2023-cü il üzrə fəaliyyətinə dair Baş nazirin hesabatında vurğulanmışdır ki, neft hasilatının sabitləşməsi istiqamətində işlər ciddi nəzarətlə davam etdiriləcək. Ortamüddətli dövrdə qeyri-neft-qaz sektoru neft-qaz sektorunda azalmanı kompensasiya edəcəyi və iqtisadi artımın sürətləndirilməsinə töhfə verəcəyi proqnozlaşdırılır. Bu tezisdən belə nəticəyə gəlmək olar ki, Azərbaycanda şaxələndirmə siyasətinin özünəməxsus xüsusiyyəti dayanıqlı qeyri-neft sektorunun inkişafına üstünlük verilməsindən, tarazlı regional inkişafın təmin edilməsindən, xammal və yarımfabrikatları dəyər zənciri əsasında istehlaka hazır olana qədər emal etdirməkdən ibarətdir. Nəticədə 2023-cü ildə makroiqtisadi sabitlik təmin olunmuş, ölkə üzrə iqtisadi artım 4,6, qeyri-neft-qaz sektorunda ümumi daxili məhsul üzrə artım 3,8, qeyri-neft-qaz sənayesində 8 faiz təşkil etmişdir.

Bu artımın əsas səbəbi Azərbaycanda emal sənayesinin zəngin xammal bazasının olmasıdır. Bu baza təbii filiz sərvətlərindən, kənd təsərrüfatı məhsullarından və emal sənayesinin bir neçə sahəsində hazırlanan yarımfabrikatlardan ibarətdir. Bu yerdə Prezident İlham Əliyevdən sitat gətirmək istərdik: "Mən tələb edirəm ki, ciddi təkliflər verilsin: nəyi etməliyik, hansı sahələri inkişaf etdirməliyik. Mən hesab edirəm ki, biz istənilən sahəni inkişaf etdirə bilərik. Amma ilk növbədə Azərbaycanda bazası, təcrübəsi olan, yerli xammalı olan müəssisələri yaratmalıyıq". Dövlət başçısının bu tövsiyəsinə uyğun olaraq hökumət sənayenin qeyri-neft emal sektorunun lokomotivinə çevrilməsi istiqamətində tədbirlər həyata keçirir. Nəticədə ölkənin iqtisadi-sosial inkişafında emal sənayesinin rolu xeyli yüksəlmişdir. Məsələn, 2022-ci ildə 2003-cü illə müqayisədə emal sənayesində məhsul istehsalı 3,3 dəfədən çox artmışdır. Yeni müəssisələr ən çox xalq istehlakı malları, yeyinti məhsulları istehsal edən sahələrdə yaradılmışdır. Bununla belə emal sənayesində Prezidentin müəyyənləşdirdiyi hədəflərə çatdığımızı elan etmək hələ tezdir. Xüsusən Azərbaycanda qeyri-neft emal sənayesinin davamlı və sürətli inkişafı istiqamətində təsirli tədbirlər həyata keçirilsə də, onun hazırkı inkişaf miqyası real potensialımızdan aşağıdır. Bunun nəticəsidir ki, 2022-ci ildə ölkədə yaranan əlavə dəyərin ancaq 3,5, sənaye sektorunda yaranan əlavə dəyərin isə 6,4 faizi qeyri-neft emal sənayesində formalaşmışdır.

2012-ci ildə dövlət başçısı tərəfindən təsdiq edilmiş "Azərbaycan-2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası"nın hədəflərindən biri 2020-ci ilə qədər Azərbaycanı iqtisadi cəhətdən inkişaf etmiş ölkələr sırasına çıxarmaq olmuşdur. 2017-ci ildə Prezident demişdir: "Dünyanın ən inkişaf etmiş ölkələrinin meyarlarının Azərbaycanda tətbiqi mütləqdir". Həmin meyarlardan biri isə emal sənaye məhsullarının ümumi sənayedə payının 45-50 faiz olmasıdır. Qeyd edək ki, 2022-ci ildə Azərbaycanda bu göstərici 21, qeyri-neft emal sənayesində isə 16 faiz təşkil etmişdir. 2022-ci ildə emal sənaye məhsullarının cuzi bir hissəsi (0,59 faizi) innovasiya təyinatlı olmuşdur.

Məlum olduğu kimi, dövlət başçısının 2022-ci il 2 fevral tarixli fərmanı ilə "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" təsdiq edilmişdir. Orada nəzərdə tutulan hədəflərdən biri 2020-ci ilə nisbətən 2030-cu ildə ölkə üzrə ÜDM istehsalının 2 dəfə artırılmasıdır. Bu hədəfin uğurlu icrası üçün 2020-2030-cu illərdə ÜDM-in hər il orta hesabla 7,2 faiz artırılması tələb edilir. Ancaq hələlik (2020-2023-cü illərdə) bu artım tempi hər il orta hesabla 4 faiz civarında olmuşdur. Cari il üçün isə hökumət tərəfindən təsdiq edilmiş proqnozlarda ÜDM-in artım tempi 2,4 faiz nəzərdə tutulmuşdur. Halbuki sözügedən sənəddə nəzərdə tutulan hədəfə çatmaq üçün bu artım 7,2 faiz olmalı idi.

İqtisadi siyasətin tərkib hissəsi kimi qeyri-neft emal sənayesi sahələrinin, o cümlədən aqrar sektorun aqroemal prinsipi əsasında miqyaslı və səmərəli inkişafının təmin olunması tələb edilir. Ancaq ölkədə bu gün kənd təsərrüfatı, yüngül sənaye və istehlak bazarı arasında istehsal-ticarət əlaqələri istənilən səviyyədə deyil. Nəticədə yüngül, maşınqayırma və yeyinti sənaye sahələri ölkə iqtisadiyyatında öz mövqelərini qoruyub saxlaya bilməmişdir. Yüngül sənaye müəssisələrinin çoxu profilini dəyişmiş və ya fəaliyyətini dayandırmışdır. 2022-cı ildə yüngül sənaye sahəsinin ümumi sənaye məhsulunda xüsusi çəkisinin 0,6 faiz olması məhz bu səbəbdəndir. Elə 10 milyon nəfərdən çox əhalisi olan Azərbaycanda 1,4 milyon cüt ayaqqabının istehsal edilməsi, əvəzində ölkəyə (2022-ci il) 91,5 milyon dollarlıq 33 milyon cüt ayaqqabının idxal olunması da bu üzdəndir.

Emal sənayesinin digər iqtisadi fəaliyyət növləri ilə müqayisədə bir çox üstünlüyü mövcuddur. Onlardan biri bu sahədə qadınların işləməsi üçün önəmli olmasıdır. Rəsmi statistikaya görə, 2000-ci ildə emal sənayesində muzdla işləyənlərin 40 faizi (50,2 min nəfər) qadınlar olmuşdur. 2022-ci ildə isə bu göstərici 34,2 min nəfər olmaqla 26,4 faiz təşkil etmişdir. Göründüyü kimi, rəqəmlərdə azalma meyli var. Halbuki 2022-ci ildə ölkə üzrə 164 min işsiz qadın olmuşdur. Üstəlik, əlimizdə olan son (2023-cü il) rəqəmlərə görə, emal sənayesində məşğul qadınların orta aylıq nominal əməkhaqqı kişilərlə müqayisədə 1,6 dəfə azdır. Bundan əlavə, sənayedə yaranan əlavə dəyərin 88,1 faizini təmin edən xam neft və təbii qaz hasilatı daxil olmaqla mədənçıxarma sənayesində məşğul əhalinin 10,4 faizi çalışdığı halda, emal sənayesində həmin göstərici 73,3 faizdir. Bu rəqəm özü əhalinin, xüsusilə qadınların məşğulluğunun vacibliyi baxımından emal sənayesinin əhəmiyyətini aydın göstərir.

Emal sənayesinin digər üstünlüyü onun iqtisadi və sosial səmərəliliyidir. Apardığımız elmi araşdırmalar göstərir ki, bir manat əlavə dəyər istehsal etmək üçün bütünlükdə sənayedə 6,9, emal sənayesində isə ondan 3 dəfə az - 2,3 manat investisiya tələb olunur. Digər misal: əgər 2022-ci ildə 2020-ci illə müqayisədə mədənçıxarma sənayesində əmək məhsuldarlığı aşağı düşmüşsə, emal sənayesində 14 faiz artmışdır. Bundan əlavə, 2022-ci ildə 2003-cü illə müqayisədə emal sənayesi üzrə məhsul istehsalında 3,3 dəfə artım qeydə alınmışdır. Mədənçıxarma sənayesində isə bu artım 2,5 dəfə olmuşdur.

Azərbaycanda emal sənayesinin inkişaf səviyyəsinin qiymətləndirilməsi onun xammal bazasının araşdırılmasını da tələb edir. Bu məqsədlə emal sənayesinin xarici ticarət əlaqələrinə diqqət yetirmək zəruridir. Öncə qeyd edək ki, sənayedə istehsal olunan məhsulların ixracı yarımfabrikat formasında sürətlə artır. Yeri gəlmişkən, Nazirlər Kabinetinin 8 fevral 2011-ci il tarixli sərəncamı ilə təsdiq edilmiş tədbirlər planında ölkədən ixrac olunan xammal və yarımfabrikatların hazır məhsuladək istehsalının çatdırılması nəzərdə tutulmuşdur. Sərəncamın icrasının təhlili göstərir ki, bu qrupa daxil olan məhsulların ixracı nəinki azalmamış, hətta dəfələrlə artmışdır. Məsələn, 2022-ci ildə 2011-ci ilə nisbətən pambıq mahlıcının ixracında 29, pambıq ipliyinin, fermentləşdirilmiş tütünün, ilkin formada etilen polimerlərinin ixracında 1,3-2,4, emal olunmamış alüminiumun ixracında 4,6, təzə meyvə-tərəvəz ixracında 2,3 dəfə artım qeydə alınmışdır. Halbuki Prezidentin 15 iyul 2021-ci il tarixli "Aqrar sahədə istehsalın və emal sənayesinin inkişafına dair bir sıra tədbirlər haqqında" fərmanında klasterləşmənin vacibliyi növbəti dəfə vurğulanmışdır. Kənd təsərrüfatının əsas məhsullarından birinin - pambığın misalında problemin araşdırılması nəticəsində müəyyən etmişik ki, 2021-ci ildə ölkə üzrə ən çox pambıq istehsal olunan Mil-Muğan iqtisadi rayonu olmuşdur. Həmin il ölkədə istehsal olunan pambığın 40, pambıq mahlıcının isə 45 faizdən çoxu həmin iqtisadi rayonun payına düşmüşdür. Təəssüf ki, Mil-Muğan regionunda nə pambıq ipliyi və pambıq parçası, nə də istehlaka hazır digər məmulatlar istehsal olunmuşdur. Nəticədə, məsələn, 2022-ci ildə ölkəyə 13,5 milyon kvadratmetr pambıq parça idxal edilmişdir. O səbəbdən Mil-Muğan, Şirvan-Salyan və Qarabağ iqtisadi rayonlarında pambıq xammalı əsasında klasterlərin yaradılması zəruridir. Bunun üçün hökumət stimullaşdırıcı tədbirləri nəzərdə tutan qərarlar qəbul etməlidir.

Həlli vacib problemlərdən biri də siqaret istehsal edən müəssisələrin yerli tütün xammalı ilə təmin olunmasıdır. Belə ki, 2018-2022-ci ildə ölkəmizə ümumi dəyəri 278,6 milyon dollar olan 27,9 min ton tütün idxal edilmişdir. Həmin illər Azərbaycan özü də istehsal etdiyi tütünün 27,6 min tonunu xarici bazarda satmışdır. Belə çıxır ki, yerli tütün istehsalı praktiki olaraq xarici ölkələrə işləyir. Burada da problemin həlli üçün tənzimləmə mexanizmlərindən istifadə və klasterlərin yaradılması tələb olunur.

2021-ci ildə Prezident çıxışlarının birində demişdir: "Dağ-mədən sənayesi bizim qeyri-neft sektorumuzda aparıcı sahəyə çevrilir və perspektivlər çox gözəldir". Yenə də rəqəmlərə nəzər salaq: 2022-ci ildə Azərbaycan 27,4 min tondan çox qara metaldan yarımfabrikatlar ixrac etmişdir. Eyni zamanda xaricdən ümumi dəyəri 526,4 milyon dollardan çox olan 487,2 min tondan çox qara metaldan müxtəlif təyinatlı məhsullar almışdır. Bu yerdə vurğulayaq ki, emal sənayesinin inkişafı bilavasitə ölkədə aparılan daxili bazarın mühafizəsi ilə bağlıdır. Prezidentin hələ 2005-ci ildə Siyəzən rayonunda çıxışı zamanı irəli sürdüyü konsepsiyalardan biri "idxalı əvəzedən iqtisadi siyasət" aparılması olmuşdur. Bu istiqamət üzrə ölkədə xeyli tədbir görülsə də, həyata keçiriləsi işlər də az deyil. Hələlik idxalın həcmini istənilən qədər azalda bilməmişik. Məsələn, qeyri-neft məhsullarının idxalı 2014-cü ildəki 8,9 mlyard dollarlıqdan 2022-ci ildə 13,3 milyard dollarlığa çatmışdır. Bu idxalın 88 faizi sənaye mənşəli məhsullar olmuşdur. Qeyri-neft məhsullarının, o cümlədən ərzağın adambaşına düşən dəyəri də az deyil - müvafiq olaraq 1308 və 198 dollar.

Bu reallıq onu diktə edir ki, emal sənayesi məhsullarının idxalının və ixracının daxili bazarın tələbi ilə uzlaşdırılmasını təmin edən mexanizmlərin tətbiqini nəzərdə tutan qanunun tələblərinə əməl edilməsi vacibdir. Söz düşmüşkən xatırladaq ki, 2016-cı ildə "Antidempinq, kompensasiya və mühafizə tədbirləri haqqında" qəbul edilmiş qanunda daxili bazarın mühafizəsi üçün tədbirlərin həyata keçrilməsi nəzərdə tutulmuşdur. Tələb və təklifin tarazlaşdırılmasını və taraz istehlak qiymətlərinin formalaşdırılmasını təmin edən qanuna uyğun olaraq gömrük ərazisinə artmış idxala qarşı xüsusi rüsum, müvəqqəti rüsum və idxal kvotası tətbiq oluna bilər (maddə 1.0.14). Həmin tədbirlərdən istifadənin mexanizmləri də qanunda əksini tapmışdır. Tədbirlərin həyata keçirilməsi isə Nazirlər Kabinetinə və İqtisadiyyat Nazirliyinə həvalə edilmişdir. Təəssüf ki, bu qanunun tələbləri lazım olan səviyyədə həyata keçirilmir. Bunu məişət kondisionerlərinin, məişət soyuducularının, avtomobil şinlərinin və digər emal sənaye müəssisələrinin misalında görmək olar. Məsələn, 2022-ci ildə Azərbaycana 26 mindən çox məişət soyuducusu, 203 mindən çox məişət kondisioneri, 304 mindən çox televiziya qəbuledicisi, 2,2 milyon rezin şin idxal edilmişdir. Halbuki bu məhsullar nəinki vaxtilə Azərbaycanda istehsal olunmuş, hətta respublikamız onu ixrac etmişdir.

Emal sənayesinin arzuolunan miqyasda inkişafını təmin edə bilən birinci amil qeyri-neft emal sənayesinin idarə olunmasını təkmilləşdirmək, prioritetliyini qəbul etmək və daxili bazarı mühafizə etməkdirsə, ikinci amil hökumətin investisiya siyasətidir. 2006-cı ilə qədər Azərbaycanda hökumətin investisiya siyasətində qeyri-neft emal sənaye sahələrinin və aqrar sektorun maddi-texniki bazasının yenidən qurulmasının özəl investisiyalar hesabına həyata keçirilməsi konsepsiyası üstünlük təşkil etmişdir. 2006-cı ildə dövlətə məxsus Azərbaycan İnvestisiya Şirkəti yaradılmaqla Azərbaycanda dövlət-özəl və dövlət sektorlarının birgə partnyorluq sisteminin tətbiqinə və emal sənayesində dövlət investisiyalarından istifadə edilməsinə başlanıldı. Statistika göstərir ki, 2018-2022-ci illərdə əsas kapitala daxili investisiyaların 9,7, xarici investisiyaların 3,8 faizi qeyri-neft emal sənayesində istifadə edilmiş, əsas kapitala xarici investisiyaların 3,8 faizi qeyri-neft emal sənayesinə, 0,2 faizi aqrar sektora yönəldilmişdir. Xarici investisiyalar emal sənayesinin əsasən ərzaq və kimya məhsullarının, tikinti materiallarının istehsalına qoyulmuşdur.

İqtisadçılar arasında qeyri-neft emal sənaye sahələrində dövlət investisiyalarından birbaşa istifadənin bazar iqtisadiyyatının baza prinsiplərinə zidd olması barədə fikirlər mövcuddur. Bu, yalnış fikirdir. Dünya təcrübəsi göstərir ki, ölkə iqtisadiyyatının mövcud durumundan asılı olaraq dövlətin investisiya siyasəti formalaşır. Azərbaycanda isə mövcud durum tələb edir ki, qeyri-neft emal sənayesinə və aqrar sektora dövlət investisiyaları əhəmiyyətli dərəcədə artırılsın. Bunun üçün 2025-2029-cu illərdə Azərbaycanda qeyri-neft emal sənaye sahələrinin inkişafı və yerləşdirilməsi sxemi hazırlanmalıdır. Bu sxemin əsasını ölkənin təbii sərvətləri, xammal və yarımfabrikat ehtiyatları, regionların ixtisaslaşması, əmək ehtiyatlarının mövcudluğu, kadrların təhsil və ixtisas səviyyəsi, cinslər üzrə əmək ehtiyatları, daxili və xarici bazarlarda tələb və təklif təşkil etməlidir. İkincisi, ölkənin iqtisadi rayonlarının ixtisaslaşdırılması üzrə hökumət səviyyəsində qərar qəbul olunmalıdır. Üçüncüsü, beynəlxalq təcrübə göstərir ki, emal sənayesinin hamısını eyni vaxtda inkişaf etdirmək və idxaldan asılılığı minimuma endirmək mümkün deyil. Bu sxem dövlət və özəl investisiyalardan istifadəyə əsaslanmalıdır. Sxemdə yaxın 5 ilə qeyri-neft emal sənaye sahələri üzrə seçim edilməli və o, hökumət tərəfindən rəsmləşdirilməlidir. Onların inkişafı üçün əvvəlcədən investisiya mənbələri müəyyən edilməlidir. Birbaşa və Azərbaycan İnvestisiya Şirkətinin iştirakı ilə dövlət-özəl investisiyalarından istifadə əhəmiyyətli dərəcədə artırılmalıdır.

Hazırda ölkədə formalaşmış olan sahəvi və regional inkişaf dövlət investisiyalarından sahəvi diversifikasiya şərti ilə qeyri-neft emal sənayesinin prioritet sahələrində və aqrar bölmədə daha böyük həcmdə istifadəni tələb edir. Çünki mövcud durumda göstərilən sahələrin inkişafında həlledici amil məhz investisiyalardır. Burada diqqət yetirilməli ən mühüm məsələ kənd təsərrüfatı kooperativlərinin yaradılmasıdır. Çünki aqrar sektorda dövlət maliyyə vəsaitlərindən indiki istifadə sistemi, fikrimizcə, səmərəli formalaşmamışdır. Bu mövzu geniş tədqiqat predmeti olduğuna görə təkcə onu diqqətə çatdırmaq istərdik ki, beynəlxalq təcrübə əsasında Azərbaycanda kənd təsərrüfatı kooperativlərinin yaradılması sistemi işlənilməlidir. Məsələn, Yaponiyada belə kooperativləri dövlət yaradır. ABŞ-də kənd təsərrüfatı kooperativlərinin əksəriyyəti səhmdar kimi formalaşır. Lakin kooperativlərin səhmləri alver obyekti deyil və fond birjalarında satılmır. Malayziyada kooperativlərin fəaliyyətini dövlət peşəkar məmurlar vasitəsilə bütün ciddiliyi ilə idarə edir. Avropa və Asiya ölkələrində kooperativlərə dövlətin maliyyə köməyi müqayisə olunmaz dərəcədə həm miqyaslıdır, həm də çoxtərəflidir. Bu ölkələrin aqrar sektorunda idarəetmə strukturu kollektiv mülkiyyətə əsaslanan kooperativlərdir.

Qeyri-neft emal sənayesində genişmiqyaslı tədbirlərin maksimum səmərə ilə və vaxtında icrası onların investisiya təminatından həlledici dərəcədə asılıdır. 2014-cü ildə dövlət başçısı çıxışlarının birində demişdir: "Azərbaycanın gələcək inkişafı sənayenin inkişafı ilə bağlı olmalıdır... Dövlət investisiyalarını da bizim üçün strateji əhəmiyyət daşıyan sənaye sahələrinə cəlb etməliyik". Bu baxımdan hesab edirik ki, qeyri-neft emal sənayesi ölkəmiz üçün strateji əhəmiyyət kəsb edir. Odur ki, Strateji Yol Xəritəsində nəzərdə tutulduğu kimi, bu sahənin idarəetmə strukturu və mexanizmləri təkmilləşdirilməli və iqtisadi fəaliyyətə dövlət nəzarəti gücləndirilməlidir.

Emal sənaye sektorunun inkişafının mühüm göstəricilərindən biri də investisiya qoyuluşlarının həcminin yüksəldilməsi və strukturunun təkmilləşdirilməsidir. 2018-2022-ci illərdə qeyri-neft emal sənayesinin əsas kapitalına daxili mənbələr hesabına 6,2 milyard, xarici mənbələr hesabına 909,3 milyon manat investisiya qoyulmuşdur. Bu dövr kənd təsərrüfatında 2,8 mlyard manat və ya daxili investisiyaların 4,3 faizi həcmində əsas kapitala daxili investisiyadan istifadə edilmişdir. Əvvəlki illərlə müqayisədə bu rəqəmlər xeyli çox olsa da, hesab edirik ki, yeni imkan var. Xüsusən xarici investorları hər iki sektora cəlb etmək lazımdır. Bundan əlavə, ölkənin strateji valyuta ehtiyatlarından istifadə etmək olar. Ancaq həmin vəsaitlər klasterlərə və kənd təsərrüfatı kooperativlərinə verilməlidir.

Klasterlərdən söz düşmüşkən. "Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramı"nda prioritet sənaye sahələri üzrə ərazi istehsal klasterlərinin və sənaye klasterlərinin təşviqi və inkişafı tədbirlərinin gücləndirilməsi nəzərdə tutulmuşdur. Sənaye klasterlərinin yaradılması emal sənaye sahələri üçün əhəmiyyətli və vacibdir. Çünki bu sənaye sektoru üzrə müəssisələrin 80 faizə qədəri mikro, kiçik və orta müəssisələrdir. Təəssüf ki, Strateji Yol Xəritəsində də yazıldığı kimi, onlar arasında biznes tərəfdaşlığı zəif inkişaf etmişdir. Odur ki, onları klasterlərdə birləşdirmək məqsədəuyğundur. Bununla bağlı Rusiyanın təcrübəsi də var. Həmin təcrübə göstərir ki, müxtəlif sektorları təmsil edən kiçik və orta sahibkarlıq subyektləri xüsusi zonalarda klaster əsasında yaradılan infrastruktur obyektlərindən (kanalizasiya, elektrik enerjisi şəbəkəsi, laboratoriya və sınaq xidmətləri, logistika və s.) istifadə etməklə istehsalın səmərəliliyini yüksəldə bilərlər.

1995-ci ildə qəbul edilmiş "İnvestisiya fəaliyyəti haqqında" Azərbaycan Respublikasının qanununda amortizasiya ayırmaları investisiya fəaliyyətinin maliyyə mənbələrindən biri kimi nəzərdə tutulmuşdur (maddə 9). Həmin qanunun 11-ci maddəsində göstərilirdi ki, amortizasiya siyasəti investisiya fəaliyyətinin dövlət tənzimləmə vasitələrindən biridir. Ancaq indiyə qədər Azərbaycanda amortizasiya ayırmalarından təyinatı üzrə, yəni investisiya mənbəyi kimi istifadə edilməmişdir. Bu azmış kimi, 2022-ci ilin iyul ayında qəbul edilmiş "İnvestisiya fəaliyyəti haqqında" yeni qanunda amortizasiya ayırmalarının investisiyaların maliyyə mənbəyi olması haqqında müddəa tamamilə çıxarılmışdır. Nəticədə hökumət illik məbləği 5,8 milyard manat (2022-ci il) olan vəsaitdən investisiya kimi istifadə etmək imkanından məhrum olmuşdur. Bundan əlavə, "Vergi Məcəlləsi"ndə amortizasiya ayırmaları xərc maddəsi kimi nəzərdə tutulur. Əvvəla bu, mənfəətdən vergi bazasını azaltmaq üçün təsərrüfat subyektlərinin əlində sanballı vasitədir. İkincisi, bu yanaşma ölkənin 2 normativ aktına ziddir. Belə ki, amortizasiya ayırmaları Azərbaycanın milli hesablarında və Azərbaycanın toplu maliyyə balansında təsərrüfat subyektlərinin mənfəəti kimi uçota alınır.

Bütün bunları və digər amilləri nəzərə alaraq, "Amortizasiya ayırmaları haqqında" yeni qanunun qəbul edilməsi, onların mənfəətdən vergitutma bazasına aid edilməsi, onlardan prioritet sahələrdə ancaq investisiya məqsədləri üçün hökumətin icazəsi ilə istifadə olunması, amortizasiya güzəştləri sisteminin tətbiqi, investisiya kimi istifadə edilən amortizasiya ayırmalarının mənfəət vergisindən azad olunması məqsədəuyğundur. Unutmayaq ki, əgər amortizasiya məbləği öz təyinatına uyğun istifadə edilsəydi, məsələn, 2018-2022-ci illərdə kənd təsərrüfatına 1,5 milyard, qeyri-neft emal sənayesinə 4 milyard məbləğində əlavə investisiya yönəldilmiş olardı.

Sonda onu qeyd edək ki, "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf strategiyası"nın hədəflərinə nail olmaq üçün dövlətin iqtisadi tənzimləmə mexanizmləri təkmilləşdirilməlidir. İndiki mərhələdə mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq, təsərrüfat subyektlərinin iqtisadi fəaliyyətinin tənzimlənməsinin, koordinasiyasının və ona dövlət tərəfindən nəzarət edilməsinin gücləndirilməsi də vacibdir. Tarazlı reqional inkişafa, aqrar sahədə kooperativlərin, regionlarda yeni emal sənaye müəssisələrinin dövlət investisiyaları hesabına yaradılmasına, emal sənayesində məşğulluğun artırılmasına xüsusi diqqət verilməlidir.

***Tofiq HÜSEYNOV,***
***Elm və Təhsil Nazirliyi İqtisadiyyat İnstitutunun şöbə müdiri, iqtisad elmləri doktoru, professor, Əməkdar iqtisadçı***

**«AZƏRBAYCAN» qəzetinin 1919-cu il 27 fevral (Cümə axşamı günü) tarixli 124-cü nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası**



# AZƏRBAYCAN

Pəncşənbə, 26 cəmadiyələvvəl sənə 1337.
27 şubat sənə 1919.

Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir

Məhəlli-idarə:
Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi.

Telefon nömrə: 39-60.

Tək nüsxəsi 80 qəpik.

Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır.

Dərc olunmayan övraq iadə edilməz.

Dərc edilən məqalatın mükafatını idarə təyin edir.

Abunə şəraiti:
Bakı üçün 1 aylığı 18 rublə,
2 aylığı 32 rublə, 3 aylığı 45 rublə.
Qeyri şəhərlər üçün 1 aylığı 20 rublə,
2 aylığı 35 rublə, 3 aylığı 50 rublədir.

Elan fiatı: sətri 3 rublə. Kərratla gedən elanlar üçün güzəşt edilir.

## QİSMİ-RƏSMİ [RƏSMİ HİSSƏ]

Azərbaycan Cümhuriyyəti Məşixəti-İslamiyyə [Şeyxülislamlıq] İdarəsindən:

İşbu 1919 sənəsinin fevral 13-ündən etibarən Şamaxı şəhəri sakinlərindən Əbülqasım əfəndi Əminzadə cənabları əlində mövcud əfəndilik attestatına və ləyaqəti-elmiyyəsinə nəzərən münhəll [boş] olan Şamaxı uyezdinin sünni məzhəb qazılığına nəsb və təyin edilmişdir.

*Məşixət sədrləri: [Axund Ağa] Ağəalizadə və [Mustafa] Əfəndizadə*

## ÜMURİ-XEYRİYYƏ VƏ NAFİƏ NƏZARƏTİNDƏN

Həyati-siyasiyyə içrə camaat müharibə və hərc-mərcliyin minlərcə nahaq qurbanlarını yadlarından çıxarmışdır. Evsiz, ac və naxoş qaçqınlar Azərbaycanın hər yerinə dağılmışlardır. Bir tək Qarabağda arvad, uşaq və qocalar üzərinə hücum edən quldur dəstələrinin xainanə əli ilə 119 müsəlman kəndi xarabazara döndərilmişdir və 50 mindən ziyadə bu kəndlərin qaçqınları Qarabağın düzlərində və çöllərində ahzar edirlər. Onların arasında səpmə yatalaq azarı dəhşətli bir surətdə hökmfərma olub [hökm sürüb], üsrətdən [çətinliklərdən] və qəm-qüssədən özünü itirmiş insanları amansız bir surətdə biçməkdədir. Bundan əlavə, arvad və uşaqları tanınmaz bir hala salmış olan aclıq və bir köynək ilə bədənləri göyərmiş balaca uşaqları titrətməkdə olan soyuq daha amansız bir surətdə hökm-fərmadır. Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti [Sosial Təminat Nazirliyi] tərəfindən Qarabağ qaçqınlarının ehtiyacını öyrənmək və onlara müavinət etməkdən ötrü təşkilatlar düzəltməyə göndərilən xüsusi komissiya bir çox arvad və uşaqların ac və çılpaq qaldığını görmüşdür. Bir tək Qarabağda 50 min nəfər qaçqın vardır. Bunlardan əlavə, Şamaxıda, Lənkəranda və İrəvan quberniyasından Gəncəyə, Qazaxa gələn nə qədər qaçqınlar vardır. Bu bədbəxtlər Azərbaycanın hər yerində soyuqdan, aclıqdan və xəstəlikdən məhv olurlar. Bu biçarələri ölümdən xilas etməkdən ötrü təcili surətdə pul, paltar və ərzaq şeyləri ilə geniş bir dairədə müavinət [kömək] lazımdır. Bunun üçün böyük pul lazımdır. Hökumət, camaatın köməyi olmadan bu qaçqınları lazımi qədər təmin etmək iqtidarında deyildir. Buna görə hökumət, Azərbaycan vətəndaşlarına müraciətlə bu qaçqın qardaşlara müavinət göstərməyə dəvət edir. Sizin köməyiniz gözlənir. İsti evdə qarnı tox, salamat və aclıq, soyuqluq dəhşətini görməyənlər qulaqlarını tutmamalıdırlar. Öz uşaqlarınıza baxaraq çörəksiz, paltarsız, soyuqda titrəyən bədbəxt yetimləri yadınıza salınız! Hər kəs öz qüvvəsinə görə pul və paltarla müavinət etsin. Bir qəpiyə də utanmayınız. Dama-dama göl olar, deyirlər. Yüz minlərcə öz qardaşlarınızı amansız əcəldən xilas etməkdən ötrü hər kəs öz payını versin. İanələr qəbul olunur. Pul vermək istəyənlər Naberejnı küçədə 33 nömrəli evdə Ümuri-Xeyriyyə və Nafiə Nəzarətinin Qaçqınlar şöbəsinə, şey vermək istəyənlər Nikolayevski küçədə Parlaman binası altında "İsmailiyyə" binası tərəfindən Ümuri-Xeyriyyə və Nafiə Nəzarətinin mərkəzi anbarına müraciət etməlidirlər.

## AZƏRBAYCAN MƏCLİSİ-MƏBUSANINDA

**16-ncı iclas**

**25 fevral**

Bu gün mühüm məsələ müzakirəsi gözlənildiyi hiss olunur. Parlaman Divani-Rəyasət əzası [üzvləri] tam heyətlə; camaat həmişəkindən çox ziyadə, böyük intizar, sükut və diqqət hökmfərmadır [hökm sürməkdədir].

**Sədr** - Həsən bəy Ağayev.

**Katib** - Əhməd Cövdət.

İclas açılır saat 11-ə 5 dəqiqə işləmiş.

**Sədr** - Parlamanın iclası açılır. Bugünkü iclasın ruznameyi-müzakiratı [müzakirə gündəliyi] Divani-Rəyasət tərəfindən bu qərar ilə tərtib verilmişdir:

1) Varid olmuş [daxil olan] məktublar. O cümlədən istefa haqqında Rəisi-vükəlanın [Baş nazirin] göndərmiş olduğu məktub; "Müsavat" fraksiyonunun komisyonlar intixabı [seçkisi] haqqında təklifi; bəzi üzvlərə məzuniyyət: o cümlədən Asəf bəy Şıxəlibəyova, Abdulla bəy Əfəndiyevə və Bəhram bəy Vəzirova.

2) Keçən səfərdən natamam qalmış iki komisyona əza intixabı.

3) Bir neçə qanun layihələri:

a) Hərbiyyə Nəzarətinin qanun layihəsi;

b) Bakı Bələdiyyə İdarəsinə 4 milyon istiqraz haqqında qanun layihəsi;

c) Dəmiryol tarifəsinin təzayüdü [artırılması] haqqında qanun layihəsi;

d) Alkol vergisi (aksiz) layihəsi;

e) Tənbəki və spirto vergisi (patent) layihəsi;

4) Məclisi-Məbusan nizamnaməsi.

Hərgah bu cür tərtib olunmuş müzakirati-yövmiyyəyə [gündəlik müzakirələrə] etiraz yoxsa, qəbul olunur.

**[Heybətqulu] Məhəmmədbəyov** - *(yerindən)* Müsaidə veriniz.

**Sədr** - Buyurunuz!

**Məhəmmədbəyov** (İttihad) - Mən təklif edərdim ki, Məclisi-Məbusan nizamnaməsi məsələsi ikinci növbəyə qoyulsun. Qaldı ki, "Müsavat" fraksiyonunun təklifi üçüncü məsələ olsun. Əvvəlcə nizamnaməyə baxılsın, sonra komisyonlar intixabı təklifinə.

**Sədr** - Söz Cavad bəy Məlik-Yeqanovundur.

**Məlik-Yeqanov -** "Müsavat" fraksiyonu tərəfindən təklif olunur ruznameyi-müzakirat tərtib olunduğu qərar üzrə qalsın.

**Sədr** - "İttihad" fraksiyonu növbeyi-müzakiratı dəyişməyi təklif edir. Hər kəs ruznameyi-müzakiratı, elan edildiyi tərtiblə qəbul edirsə, rica edirəm əlini qaldırsın. *(Əllər qalxır.)* Deməli, əksəriyyətlə qəbul olunur.

**Katib** - *(Fətəli xanın məktubunu oxuyur.)*

**Sədr** - Bu məktub bərayi-məlumat [məlumat üçün] oxundu. Bu barədə müzakirə ola bilməz. Malik olduğum haqqa istinadən bu barədə Parlaman rəisi tərəfindən lazımi tədbirlər olacaqdır. *(Dərin sükut)* Müəyyən təklif ola bilər.

**Rəsulzadə** - Müsaidə buyurunuz.

**Sədr** - Söz Rəsulzadə Məhəmməd Əminindir.

**Rəsulzadə** - Böylə mühüm bir zamanda Rəisi-vükəla [Baş nazir], əsəblərinin yorğun və xəstə olub dövlət işlərindən ötrü lazımi qədər işləməyə təhəmmül etmədiyindən dolayı [dözmədiyi üçün] istefa verir. Bu barədə yalnız təəssüf etməlidir ki, böylə mühüm zamanda məmləkətin siyasəti-ümumiyyəsi pərişan bir halda ikən Rəisi-vükəla səhhətinin pozulmasından dolayı istefa verir ki, bizcə Məclisi-Məbusan bu motivi qəbul etməyə bilməz. Adətən, Məclisi-Məbusan bildiyiniz kimi bir namizəd dəvət edib kabinə təşkilini ona tapşırmasını kəndi rəisinə mühəvvəl etməlidir [tapşırmalıdır].

**Sədr** - Hərgah başqa bir təklif yoxsa, "Müsavat" tərəfindən edilən təklif qəbul olunur. Keçək növbədəki məsələyə.

**Rəsulzadə** - *(yerindən)* Müsaidə veriniz: əlbəttə, yeni hökumət təşkilinə qədər indiki hökumət iş başında qalmalıdır.

**Sədr** - Üzr istəyirəm, ruznameyi-müzakiratı elan edərkən bir şeyi unutdum, Parlamanda iştirak edən Erməni fraksiyası tərəfindən bəyənnamə (deklarasiya) oxunacaqdır. Ona görə növbədən xaric olaraq Erməni fraksiyonu üzvü Malxazyana söz verilir.

**Erməni fraksiyasının bəyannaməsi**

**Malxazyan** - Şu bəyannaməni oxuyur:

Biz Gəncə və Bakı şəhərləri erməni milli şuraları nümayəndələri, Azərbaycan Cümhuriyyətinin Ali Müəssiseyi-Təşriiyyəsinə [Ali Qanunverici Orqanına] daxil olaraq siz məbus cənabları və sizin şəxsinizdə kəndi müqəddəratını kəndi əlinə almış olan türk millətini təbrik ediriz. *(Şiddətli alqış)*

Biz Parlamana gəldikdə gərək türk millətinin və gərək Azərbaycan Cümhuriyyəti daxilində yaşayan ümum sair millətlərin mənfəəti üçün səmimi surətdə çalışmaq arzusu ilə gəldik. Bu məqsədə çatmaq üçün biz Cümhuriyyət həyatında ciddi və doğru bir surətdə sarsılmaz etirafi-hüquq və nizam-asayiş əsasları yürütməyi lazım biliriz; həm də Azərbaycan daxilində bütün vətəndaşlar qanun hüzurunda tam mənası ilə və şübhəsiz müsavati-hüquqa [hüquq bərabərliyinə] malik olmalıdırlar. Bizcə bu intizam və hüquq ancaq o vaxt olar ki, Azərbaycan daxilində əqəliyyət [azlıq] təşkil edən ümum millətlərə türk milləti ilə bərabər milli, mədəni məsələlərdə təyini-müqəddərat ixtiyarı verilsin.

Biz var qüvvəmizlə gərək Cümhuriyyət daxilində və gərək onun xaricində hər dürlü təməssül [assimilyasiya], cahangirlik [imperializm] və qəsbkarlıq arzusu ilə mübarizə edəcəyiz. Böylə arzuları bu həqiqi demokratik-hüquqi dövlət fikrinə müğayir [zidd] və cümhuriyyətin mövcudiyyəti üçün təhlükəli hesab ediriz.

Biz dərin bir etiqad ilə inanırız ki, gərək təşəkkül etmiş cümhuriyyətlər daxilində və gərəksə onların xaricində Zaqafqaziya millətləri biri-biri ilə sülh ilə yaşayıb, sıxı və səmimi bir surətdə birləşməsələr nə sakitlik ola bilər, nə də doğru sülh. Sakitlik və möhkəm sülh olmadıqca nahiyənin mədəni tərəqqi və təalisi [ucalması] və əhalinin rifah və səadəti mümkün olmaz. Halbuki, hər bir hökumət buna çalışmalıdır. Ona görə biz var qüvvəmizlə Zaqafqaziya millətləri arasında hüquq və ədalət əsası ilə birlik və müvafiqət [həmrəylik] hüsuluna çalışacağız. Çünki, nə qədər Zaqafqaziya millətlərindən vələvinki bir qisminin belə [bir qisminin belə olsa da] qanuni hüquq və tələbatına əməl edilməsə və hissiyyati-milliyyəsi mühəqqər [alçaldılmış] olsa, nə sakitlik ola bilər, nə möhkəm sülh və Zaqafqaziya daima bir beynəlmiləl münaqişə, ədavət və müsadimə [toqquşma] meydanı olar.

Binaənileyh [ona görə], biz var qüvvəmizlə ayrı-ayrı millətlərin, sair cümhuriyyətlər zərərinə olaraq özü üçün xüsusi və faiq [üstün] bir mövqe hüsuluna [əldə edilməsinə] çalışması müqabilinə və qonşu millətlərin və yeni cümhuriyyətlər daxilində azlıqda qalan millətlərin hüququna hər dürlü təcavüz əleyhinə mübarizə edəcəyiz.

Biz, təcavüzkaranə xarici siyasət əleyhdarı olaraq biz Azərbaycan Hökuməti ilə qonşu millətlər arasında olan ümum ixtilaflı məsələlərin ədalət üzərinə sülh təriqi [yolu] ilə həllinə çalışacağız.

Böylə ixtilaflı məsələlər cümləsinə biz əsasi Qarabağ məsələsini də daxil ediriz. *(**Mərkəzdən:** İxtilaflı deyil! **Məhəmməd Əmin:** Həll olunmuş məsələdir!)* Ki buraya eyni zamanda Ermənistan Hökuməti də həqqi-hakimiyyət elan edir, Azərbaycan Hökuməti də və bu məsələ hər bir sair ixtilaflı məsələlər kimi, inanırız ki, istəsək sülh təriqi ilə həll edilə bilər.

Ümumiyyətlə, cari işlərimizdə biz cahan demokratiyasına azadlıq gətirmiş olan idealları rəhbər tutacağız. Geniş zəhmətkeş əhali mənafeyi nöqteyi-nəzərində duraraq biz həmişə Azərbaycan Cümhuriyyəti millətlərinin iqtisadi və mədəni tərəqqisinə bais olacaq ümum tədabiri-qanuniyyəni [bütün qanuni tədbirləri] müdafiə edəcəyiz. Fəhlə və torpaq haqqındakı qanunlar məsələsində zəhmətin tamamilə azadi və torpağın zəhmətkeş əkinçilərə verilməsinə və həqiqi xalq hakimiyyətinə səy edəcəyiz.

Bu Parlamanı müvəqqət bir müəssisə hesab edərək biz, camaat ixtiyarına kənar təzyiqləri qeyri-mümkün edən və azad surətdə arzusunu söyləməyə imkan verən əsaslarla çağırılmış Cümhuriyyət Məclisi-Müəssisanı vasitəsilə camaatın həqiqi arzusunun bəyanına nail olmağa çalışaçağız.

İştə, məbus əfəndilər, biz bu əsasları rəhbər tutacağız. Nəhayət, bunu da əlavə etməyi lazım biliriz ki, Azərbaycan millətlərinin həqiqi mənfəətlərinə səmimi bir surətdə çalışaraq, biz erməni məbusları Azərbaycan Parlamanına girərkən, erməni parlamanına girsəydik hiss edəcək olduğumuz qədər şimdidə, gələcəkdə dövləti vəzayif və məqasid [dövlətə məxsus vəzifə və məqsədlər] və dövlət quruluşu məsələlərində öhdəmizə düşən məsuliyyəti hiss edərək giririz. *(Gurultulu alqış)*

**Sədr** - Növbədəki məsələ "Müsavat" fraksiyonu təklifidir. Məzmunu da budur: *(Oxuyur)*

Şimdiyə qədər əksər komisyonların təşkilində qəbul olunan hər fraksiyondan bir nümayəndə vermək üsulu əvəzinə, Məclisi-Məbusan komisyonlarının aşağıdakı tərtiblə təşkilini təklif ediriz: 10-a qədər əzası [üzvü] olan fraksiyon bir nümayəndə verib, 10-dan yuxarı əzaya malik olan fraksiyonlar isə 5-dən yuxarı olan küsurun [qalığın] tamam 10 kimi hesab edilməsi şərti ilə hər on adama bir nümayəndə verirlər. Bundan sonra təşkil olunacaq komisyonlar bu üsulla təşkil olunduğu kimi, bundan əvvəl təşkil olunmuşlar dəxi bu tərtiblə təkmil olunmalıdırlar [tamamlanmalıdırlar].

**Sədr** - Bu barədə kim danışmaq istəyir, buyursun.

**Mahmudov Mustafa** - *(yerindən)* Tərcümə ediniz.

**Sədr** - Söz Aslan bəy Qardaşovundur.

**Qardaşov** (Əhrar) - Parlamanda baxılmaq üçün bir nakaz [təlimat] təklif olunacaqdır. Bu nakazda komisyonların surəti-təşkili barəsində izahat vardır. Nə cür təşkil olunacağı göstərilmişdir. Bu layihəni qəbul etsək, nakaza ehtiyac qalmayır. Mahmudbəyovun sözünə mən də şərikəm. Əvvəl nakaza baxılsın, ondan sonra "Müsavat"ın təklifinə.

**Sədr** - Söz Əhmədzadə Yusifindir.

**Yusif Əhmədzadə** (bitərəf) - "Müsavat" firqəsi tərəfindən təklif edilən layihənin müzakirəsi bizim Bitərəflər fraksiyası lazım bilir ki, saxlanılsın, ta ki nakazdan sonra baxılsın.

**Sədr** - Mahmudov Mustafa.

**Mahmudov** (Müsavat) - "Müsavat"ın təklifi ki, komissiyalara verilən üzvlərin ədədi nəzərə alınsın, bu, fraksiya tərəfindən havayı bir xahiş deyildir. Biz görürüz ki, hər fraksiya komissiyaya bir adam verəndə az mövcudlu fraksiyaların adamları üç-dörd komisyonda üzv bulunurlar və məzkur komissiyaların bütün iclaslarında isbati-vücud [iştirak] edəmməyirlər. O səbəblə də komissiyaların iclası kvorum yoxluğundan qalır. Burada deyirlər ki, nakazda komissiya haqqında düsturüləməl [nizamnamə] göstəriləcəkdir. Fəqət, mən o komissiyanın katibi olduğum üçün ərz edərim ki, orada böylə şey yoxdur. Əgər öylə bir iş olsa da, nakaz ruznameyi-müzakiratın axırında olduğundan, ola bilər ki, heç bu gün müzakirə edilməsin, gələcək iclasa qalsın. Bu surətlə də komissiyaların iclasları təxirə düşəcəkdir. Halbuki vaxt təng [dar], iş çoxdur. Gündən-günə komissiyaların işi daha da artır. Binaənileyh, mən fraksiyon tərəfindən təklif edərdim ki, "Müsavat" firqəsinin təklifi bu gün müzakirə və qəbul olunsun. Çoxüzvlü fraksiyalar az ədədlilərin yerini doldurmaq surəti ilə komisyonların əza miqdarını təkmil etsin.

**Sədr** - Söz Qardaşov Aslan bəyindir.

**Qardaşov** - Mən məsələnin eyni mətləbini danışmayıram. Bircə onu deyirəm ki, bu məsələ "Müsavat" deyən kimi nakazda olmalı bir maddədir. Hərgah bu üsul göstərilsə, nakazdakı maddələr bir az təbdil ediləcək [dəyişdiriləcək] olarsa, eyni məsələ hasil olar. Mən təklif edirəm, əvvəl nakaza baxılsın.

**Sədr** - Söz istəyən yoxsa məsələni bitmiş hesab edərək səsə qoyuram.

**Rəfiyev** - *(yerindən)* Mənə söz veriniz.

**Sədr** - Söz Musa bəy Rəfiyevindir.

**Rəfiyev** *(Müsavat)* - Hərgah "Müsavat"ın təklif etdiyi məsələ nakazda olsaydı, biz də Aslan bəyin sözünə şərik olardıq. Məəttəəssüf [təəssüf ki], nakazda bu məsələyə dair bir şey yoxdur. Parlaman üzvləri bilirlər ki, komissiyalar nə cür işləyirlər, ələlxüsus büdcə komissiyasından 8 əza var. Əlbəttə, cənab sədr bu gün təklif edəcək ki, bu miqdar iki dəfə artsın. *(Sədr - Var, var.)* Nə üsul ilə olur-olsun, biz təklif ediriz nakaza baxılanadək bu təklif qəbul olunsun. Nə vaxt nakaza baxılsa, o gün bu da nakaza daxil olar.

**Sədr** - Söz istəyən yoxsa səsə qoyuram. Hər kəs "Müsavat"ın təklifini qəbul edirsə, əlini qaldırsın – 18, kim əleyhinədir əlini qaldırsın – 9, hər kəs səs verməyir rica edirəm əlini qaldırsın. Deməli, məsələ keçir.

Bərayi-məlumat [məlumat üçün] ərz etmək istəyirəm ki, fraksiyaların üzvləri bu miqdardır: "Müsavat" – 23, "İttihad" – 11, "Əhrar" – 8, "Hümmət" – 4, Sosialistlər İttifaqı – 7, Bitərəflər 12, Rus-slavyan – 5, Erməni – 6, iki üzv də heç bir firqəyə daxil deyildir. Bu münasibətlə təvəqqe edirəm onlar hangi fraksiyaya daxil olduqlarını bildirsinlər. Hacı Kərim Sanıyevdən təvəqqe edirəm hangi fraksiyadan olduğunu bildirsin. Adı bitərəflər siyahısında var.

**Sanıyev** - Mən "Hümmət"dənəm.

**Sədr** - Əşrəf Tağıyev hangi fraksiyadandır?

**Tağıyev** - "Əhrar"dan.

**Sədr** - Əfəndiyev Mirzə Muxtar hangi fraksiyadandır?

**Əfəndiyev** - "Əhrar!", "Əhrar!"

**Sədr** - Ağa Aşurov hangi fraksiyaya mənsubdur?

**Aşurov** - Mən heç bir fraksiyaya mənsub deyiləm.

**Səslər** - Dikidir *(Ümumi gülüş).*

**Sədr** - Tağıyev Ağazeynal bir aydan ziyadədir ki, gedib və heç bir məlumat verməmişdir. Parlamanda qəbul edilmiş qanuna görə mümaileyh [adı keçən şəxs] Parlaman üzvlüyündən xaric hesab edilir. Bələdiyyə İdarəsindən rica edərdim onun əvəzinə başqa bir adam göndərsin. Erməni fraksiyasından komissiyalara bu qərar ilə nümayəndə verilir:

Ləvazim komisyonuna – [Xoren] Amaspur, Nizamnamə - [Abqar] Papyan, Torpaq - Arşak Malxazyan, Maliyyə-büdcə - S. Taqianasov; Fəhlə komisyonuna – [Poqos] Çubaryan; Mandat – [Abqar] Papyan; Məclisi-Müəssisan dəvəti komisyonuna Yervand Taqianasov, Sorğu komisyonuna – Yervand Taqianasov. Etiraz yoxsa qəbul olunur.

Keçən səfər iki komissiyaya adam seçilirdi: Ləvayihi-qanuniyyə və Məmləkətin hasilatını hüsn-istifadə komissiyalarına.

Seçki tamam olmadı. Rica edirəm şimdi əza göstərəsiniz. Şimdiyə qədər göstərilənlər bunlardır: Ləvaehi-qanuniyyə komisyonuna: Malxazyan, [Qazı Əhməd] Məhəmmədbəyov, [Abqar] Papyan, Kujim Vasili, Ağa Əminov, Abdulla əfəndi Qəbulov, Vanseviç, [Əhməd bəy] Pepinov, [Qasım bəy] Camalbəyov.

Məmləkətin məhsulatını hüsn-istifadə komisyonuna: Tsaxakaya, Vəzirov Zeynal bəy, [Mixail] Vinoqradov, Əhmədov Yusif, [Arşak] Paronyan, Əliyev Yusifəli və Qardaşov Aslan bəy.

Bu miqdara daha əza əlavə edirmisiniz? Buyurun, Aslan bəy Qardaşov.

**Qardaşov** - Bir sualım var, nə səbəbə mənim təklifim səsə qoyulmadı, ona görə...

**Sədr** - Bağışlayın, məsələ qəbul olunub keçib. Bitərəflər fraksiyonundan komissiyalara bu məbuslar təklif olunurlar:

Etibarnamə komisyonuna - doktor Bəhram bəy Axundov, nizamnamə komisyonuna Əbdüləli bəy Əmircanov, Məclisi-Məbusan seçkiləri komisyonuna Behbud xan Cavanşir. Etiraz yoxsa, qəbul olunur. Növbədə məzuniyyətlər məsələsidir.

**Katib** - Asəf bəy Şıxəlibəyovun iki həftə, Abdulla bəy Əfəndiyevin üç həftə, Bəhram bəy Vəzirovun bir ay məzuniyyət haqqındakı ərizələrini oxuyur.

**Sədr** - Bu üç ərizəyə etiraz yoxsa, qəbul olunur. Söz Əliheydər Qarayevindir.

**Qarayev** (Hümmət) - Əfəndilər! Bu vaxtadək bizim komissiyalar işləyə bilməyirlər, çünki üzvləri gedirlər. Budur, üç üzv məzuniyyət istəyir. Mən təklif edərdim ancaq ikisinə birər həftə məzuniyyət verilsin.

**Sədr** - Daha kim danışmaq istəyir? Təklif var ki, ikisinə bir həftə məzuniyyət verilsin. Halbuki üçdürlər. Hangisinə verilsin?

**Səslər** - Üçünə də birər həftə!

**Sədr** - Söz Bəhram bəy Vəzirovundur.

**Vəzirov** (İttihad) - Həzərat! Məzuniyyət istəyənlərin biri mənəm. Mən Cəbrayıl uyezdi Qaryaginə gedəcəyəm. Dörd gün faytonla ora getmək və dörd gün gəlmək, bu 8 gün eylər. Bir həftə məzuniyyət mümkün olarmı? Məzuniyyət verirsiniz bir ay verin, verməyirsiniz heç verməyin!

**Səslər** - Doğrudur.

**Sədr** - Söz Qasım bəy Camalbəyovundur.

**Camalbəyov** - Şəxsi işləri üçün məzuniyyətə getmək istəyənlərə yoldaşım bir həftə məzuniyyət verilməsini təklif etdi. Fəqət, bu bir həftə məzuniyyətlə heç bir iş görmək olmaz, yoldaşımızın təklifi səhvdir. Məzuniyyətə gedənlərə – iki həftə istəyir iki həftə, bir ay istəyir bir ay məzuniyyət verilsin. Bu təklifi mən firqə tərəfindən edirəm.

**Sədr** - Təklif var ki, məzuniyyət istəyənlərə istədikləri müddətə məzuniyyət verilsin. Etiraz yoxsa, qəbul olunur. Keçəlim növbədəki məsələyə.

**Katib** *(oxuyur)* - Məclisi-Məbusan Divani-Rəyasətinə:

İşlərin çoxluğunu və mühümlüyünü nəzərə alaraq Maliyyə və büdcə komisyonu 19 fevral iclasında kəndi əzası [üzvləri] miqdarının ikiqat artırılmasını qət etmişdir [qərara almışdır]. Binaənileyh [ona görə], bu barədə lazımi təşəbbüsatda bulunmağı Məclisi-Məbusan Divani-Rəyasətindən rica olunur.

Maliyyə-büdcə komisyonu rəisi əvəzinə: Musa bəy Rəfiyev.

**Sədr** – Söz Musa bəy Rəfiyevindir.

**Rəfiyev** - Həqiqətən, Büdcə komisyonuna mühüm layihələr gəlir və komisyonun işi çoxdur. Büdcə komisyonu 8 əzadan ibarət olduğundan xeyli azdır. Bir də nəzərdə tutulmuşdur ki, Büdcə-maliyyə komissiyasında iştirak edən üzvlər, sair komisyonlarda da olduqlarından komissiya iclasına gələ bilməyirlər. Ona görə də layihələr haqqında öz fraksiyalarına xəbər verə bilməyirlər. Odur ki, Parlamana bir layihə təqdim olunanda və layihə təcili olduqda fraksiyalar xəbərdar olmadıqlarından məsələni təxirə salmağı təklif edirlər. Bundan dolayı biz təklif ediriz Maliyyə komisyonu 8 nəfər əvəzinə 20 və ya 21 olsun. Hər xırda fraksiyadan 2 və böyük fraksiyadan 3-4 üzv verilməsini təklif ediriz.

**Sədr** - Etiraz yoxsa, qəbul olunur. Rica edirəm iclasın axırınadək namizədlərinizi göstərəsiniz.

**Rəfiyev** - *(yerindən)* Namizədlər bu gün qəbul olunan üsul ilə təklif edilsinlər.

**Sədr** - Əvət! Keçəlim növbədəki məsələyə. Divani-Rəyasətə bir neçə layiheyi-qanuniyyə verilmişdir:

Maarif Nəzarətindən - Orucov mətbəəsinin qiymətinin özünə verilməsi haqqında.

Türüq və Məabir Nəzarətindən [Nəqliyyat və Rabitə Nazirliyindən] - Şose yollarının təmiratının Nəzarət ixtiyarına verilməsi haqqında.

Maliyyə Nəzarətindən - Quberniya mədən vergisi idarəsi təşkili haqqında.

Yenə Maliyyə Nəzarətindən - Quberniya və uçastok [sahə] gəlir vergisi idarələrinə üzvlər intixabı [seçilməsi] haqqında.

Yenə həman Nəzarətdən - Vergilər şikayətinə baxmaq üçün Şurayi-Ali [Ali Şura] İdarəsi təsisi haqqında.

Maliyyə Nəzarətinin Vergi şöbəsindən - konyak, üzüm və tut spirtolarına vergi təyini haqqında.

Post-Teleqraf Nəzarətindən - Post-teleqraf qanununun bəzi maddələrinin dəyişməsi haqqında.

Divani-Rəyasət bu layihələrin həpsinin Ləvaehi-qanuniyyə komisyasına verilməsi təklif edir.

*(yenə var)*

## TELEQRAF XƏBƏRLƏRİ

Klemanso cümə günü 40 nəfər yanına gələn şəxsləri qəbul eyləmişsə də, gecə əbədən [əsla] yata bilməmişdir. Şimdi Klemansoya danışmaq büsbütün qadağan edilmişdir. Xəstənin əhvalı barəsində verilən son məlumat böylədir: Fransa Rəisi-cümhuru Puankare, mümaileyh ilə [adı keçən şəxslə] uzun-uzadı müsahibədə bulunmuşdur. Klemanso daima səndəli [söykənəcəkli və qoltuqlu stul] üzərində yatır. Zira uzandığı halda çox öskürür. Ümumiyyətcə əhvalı yaxşı imiş. Bütün dünyanın hər bir tərəfindən Klemansoya teleqraflar göndərilərək tezliklə kəsbi-səhhət etməsini [sağalmasını] arzu edirlər.

**Almaniyada**

- Berlindən çəkilən teleqrafdan anlaşılır ki, 35 min nəfərlik hökumət qoşunları rus oblastına yaxınlaşırlar. Spartaklar Mulhaymda olan dövlət qızıllarını əllərinə keçirmişlərdir.

- Münxendə Bavariya Baş vəziri Eysner Parlamana gedərkən qətl edilmişdir. Bu əhvaldan sonra Daxiliyyə naziri Parlamanda Baş nazirin qətl edildiyini xəbər verdikdə, camaatdan bir nəfər bir neçə güllə atıb Daxiliyyə naziri və bir məbus qətl edilib, iki nəfər digər məbus yaralanmışdır.

- Bavariyada məşhur olan bir qatil əfradı [nəfəri] Bavariya Baş nazirini qətl eyləmişdir. Görünür ki, bu qətl irticakaranə bir məqsədlə icra edilmişdir. Münxendə adi həyat dəyişib, şəhərdə vətəndaş müharibəsi başlanmışdır. Bu saat şəhərdə olan mağazaları dağıdırlar. Orada idareyi-örfiyyeyi-əsgəriyyə [hərbi fövqəladə vəziyyət] elan və əlavə şura təşkil edilmişdir. Bu şuraya bolşeviklər də daxil olmuşlardır.

- Bavariya Baş naziri Eysner piyada olaraq Məclisi-Məbusana (Landtaqa) gedərkən student qraf Arko tərəfindən qətl edilmişdir. Qatil tövqif edilib [tutulub] dərhal matroslar tərəfindən güllələnmişdir. Eysneri müşayiət edən digər bir nazir də yaralanmışdır.

- Bavariya Parlamanının iclası təxirə salınmışdır. Eysnerin 52 yaşı var. Özü əslən Berlin əhlindən olub, vaxtilə "Frankfurt[er] çaytunq" qəzetəsinin müdiri imiş. Sonra uzun müddət sosialistlərin "Forverts" qəzetəsində işləmişdir.

- Almaniyanın ticarət flotuna nəzarət üçün Fransanın xüsusi heyəti Hamburqa varid olmuşdur [gəlmişdir].

- Paris, Vyana və Peştə arasında dəmiryol qatarı hərəkatı başlanmışdır.

**Hindenburqun bəyanatı**

Feldmarşal Hindenburq bəyan eyləmişdir ki, qərb cəbhəsində qoşunların tərxis edilməsinə razı olar, fəqət şərqdən bolşeviklərin və polyakların hədəsi olduğundan buna cəsarət edə bilməyir. Vətən qarşısında vəzifəsini icradan ötrü qulluğunda qalmağı əfzəl [vacib] bilir. Müşari-leyh [adıkeçən şəxs] bəyan eyləyir ki, şərq cəbhəsində əhval xətrəlidir [təhlükəlidir]. Buna da səbəb orada müntəzəm qoşun olmadığıdır. Hindenburqla zabitan [zabitlər] əksinqilabçı monarxistlik əleyhinədir. Baş ərkani-hərbdə [qərargahda] əksinqilab hərəkatı var deyə şaye olan [yayılan] xəbərlər doğru deyildir.

## DAĞISTAN NÜMAYƏNDƏSİLƏ MÜSAHİBƏ

Bu son günlərdə Könüllü ordu ilə Dağıstan Cümhuriyyəti arasında vaqe olan ixtilaf könüllülərin inquşlara ultimatum təqdimi, Könüllü qoşunların Dağıstan Cümhuriyyətinə icra etdiyi təzyiqi qəzetələrdə yazılmaqda və ümumi diqqəti cəlb eyləməkdədir.

Bu münasibətlə Dağıstan nümayəndəsi Kantemirov cənabları ilə "Azərbaycan" mühərriri fövqəlzikr [yuxarıda deyilən] məsələ haqqında müsahibədə bulunmuş və bu xüsusda nümayəndə cənabları böylə məlumat vermişlərdir:

Dağıstanın Könüllü ordu ilə münasibatı böylədir: İngilislər Bakıya gəldikdən sonra bizim hökumət Çermoyev başda olmaq üzrə ingilislərlə danışıqda bulunmaqdan ötrü Bakıya gəlmişlərdi. İngilislərlə olan əhdnamə maddələrinə ingilis ərkani-hərbi [qərargahı] bu maddəni də idxal etdi: Bolşeviklərlə mübarizədən ötrü biz ingilislərə müavinət [kömək] etməli və Denikin ilə əlaqədə bulunub da onun bolşeviklərlə olacaq mübarizəsinə mümaniət [maneçilik] etməmələrini. Biz cavabında dedik ki, Müttəfiqlərin bu təkliflərinin qəbulu mümkündür. Zira Denikini Etilaf [Antanta] dövlətlərinin müttəfiqi olan Rusiyanın və Rusiya ordusunun nümayəndəsi hesab edirdik. Biz Denikini ingilislərin müttəfiqi hesab edirdik və nə qədər ki, Denikin Müttəfiqlərlə hüsn-münasibatda bulunarsa, bizim də Denikinə münasibatımız o dərəcədə olmalıdır. Denikin təcavüzkarlıqda bulunarsa, bizim də buna cavabən əlaqəmiz dəyişəcəkdir. Tomson demişdi ki, Denikin sizin torpağa girməyəcəkdir. Amma Denikin şimdi bizim torpağa yürüşə başlamışdır.

# «AZƏRBAYCAN» qəzetinin 1919-cu il 27 fevral (Cümə axşamı günü) tarixli 124-cü nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası

Denikin Yekatrinodarda iş görərkən bizi xofa salmışdı. Vaqe olan hadisələr bizim xofumuzun əsaslı olduğunu göstərdi. Denikin ordusu ibtida Çernomor quberniyasına, sonra Qabarda torpağına yürüş etdilər. Hasili, o şərqə tərəf hücum etdikcə, bizi boğmaq istədiyinə şübhəmiz qalmadı.

Qafqaziyada Qafqaziya əhalisi namına [adına] Denikinin sadir etdiyi [yaydığı] əmrnaməsi onun nə məqsədlə Qafqaziyaya gəldiyini bizə göstərdi. Bu əmrnamədə “vahid Rusiyadan”, oradakı nizam, asayiş və qanundan bəhs edilərkən sair siyasi məsələlər sükutla keçilirdi. Bizim istiqlalımızdan, Qafqaziyanın müqəddəratından, Qafqaziyanın Rusiya ilə əlaqəsindən bir kəlmə də olsun danışılmayırdı. Denikin öylə mülahizə edirdi ki, Rusiyada vüqu bulan bu qədər hadisələri silah gücü ilə bərtərəf etmək [aradan qaldırmaq] olar. Lakin bizə böylə gəlir ki, bu mülahizə bir o qədər də doğru deyildir. Denikin siyasətcə Müttəfiqlərə müavinət etməyə borclu ikən, özü də müavinətə möhtacdır. Əks surətdə Denikin öhdəsinə aldığı işdə müvəffəq olmaz. Denikinin bu hərəkətlərindən nəinki Qafqaziya istiqlalçıları, hətta ruslar özləri belə xoşlanmayırlar.

Denikin ilə dağıstanlılar arasında olan hadisəni biz müsadimə [toqquşma] hesab ediriz. (Tələfat da çoxdur, inquşlardan 400, könüllülərdən isə bir qədər artıqdır.) Bu müsadimə isə bir sui-təfəhhüm [yanlış anlaşılma] və yaxud Müttəfiqlər komandanlığı ilə Denikin arasında etilaf [razılıq] olmadığı nəticəsidir. Biz Müttəfiqlərə olan etimadımızdan naşi [ötrü] bu qədər tələfatı qəbul etdik. Şimdi Müttəfiqlər komandanlığı Qafqaziya ilə Könüllü ordu arasına saziş verməlidir. Müttəfiqlər bizə yazdıqları məktubda bizi inandırırdılar ki, bizim istiqlalımız əmri-vaqe [fakt] olaraq qəbul edilir və bu məsələ qəti surətdə Sülh Konfransında həll ediləcəkdir. Konfrans bizim məsələyə keçmədən, bizim istiqlalımıza mühlik [öldürücü] zərbə endirildi.

Dağıstan istiqlaliyyəti məsələsi köhnə bir məsələdir.

Krım müharibəsindən sonra, 1856-cı ildə, Paris Konfransında İngiltərə dağıstanlılara istiqlaliyyət verilməsi məsələsini təklif eyləmişdi. Fəqət, təəssüf ki, III Napoleon ilə Rusiya bu alicənabanə təklifə zidd oldular. O zamandan sonra bir çox təbədüllat [dəyişiklik] əmələ gəlmişdir. Dağıstanlılar siyasətən o dərəcəyə yetişmişlər ki, öz istiqlaliyyətləri yolunda Şeyx Şamil dövründən əskik mübarizədə bulunmayacaqlardır. Biz zənn ediriz ki, nəcib rus milləti və həqiqi siyasət xadimləri, ələddavam [davamlı olaraq] bizim tərəfimizdə olacaqdır. Çar Rusiyası dağıstanlılara böyük zərbə endirmişdir. Şimdi inqilabçı Rusiyanın vəzifəsi o səhvləri düzəltməkdir. Biz zənn ediriz ki, hərgah Könüllü ordu Qafqaziya əhalisinə qarşı təcavüzkaranə siyasət yürütsə, bununla Qafqaziya əhalisindən artıq öz məqsədlərinə zərbə vurmuş olacaqdır.

Mərkəzi bolşevik şurası cənubi komissarı Orconikidze vasitəsilə bizə xəbər verilir ki, şura mükəmmələn Dağıstan istiqlalına razıdırlar. Hərgah, Denikin təcavüzkaranə siyasətdə bulunarsa, o zaman camaatın şura təklifinə nə nəzərlə baxacağı özü-özündən anlaşılır.

## VÜKƏLA ŞURASINDA [NAZİRLƏR KABİNETİNDƏ]

* Post və Teleqraf nazirlərinin neft istehsalatının Nəzarətə lazım əşya ilə mübadiləsi haqqındakı məruzəsindən sonra qət edilmişdir [qərara alınmışdır]:

Post və Teleqraf Nəzarətinin məruzəsini təsvib [təsdiq] etməklə ona tapşırmalı ki, neft istehsalatı qiyməti müəyyən edildikdən sonra Ticarət və Sənayə Nəzarəti ilə etilafa girsin [razılığa gəlsin]. Bununla da bərabər Gürcüstanla tranzit məsələsini nəzərdə tutmalıdır.

* Hərbiyyə nazirinin ərzaq ehtiyatını Nəzarət ixtiyarına vermək barəsindəki məruzəsindən sonra qət edilmişdir:

Türklər tərəfindən ordu üçün cəm edilən bütün ərzaq və mühimmat Hərbiyyə Nəzarəti ixtiyarına verilməlidir. Fəqət Zəngəzur, Cavanşir, Şuşa və Cəbrayıl qəzalarındakı buraya daxil deyildir. Bütün anbarlar da Hərbiyyə Nəzarətinə verilməlidir. Daxiliyyə və Ərzaq Nəzarətinə tapşırılsın ki, Hərbiyyə Nəzarətinə müavinətdə bulunsunlar.

* Xariciyyə nazirinin Ermənistanla post-teleqraf əlaqəsi vaxtı artırılması haqqındakı məruzəsindən sonra qət edilmişdir:

Post və Teleqraf Nəzarətinə tapşırılsın ki, xüsusi qərardadadək Ermənistanla post və teleqraf əlaqəsi [müddəti] artırılsın.

* Rəisi-vükəla [Baş nazir] həzrətlərinin general Əfəndizadənin ailəsinə maaş vermək haqqındakı məruzəsindən sonra qət edilmişdir:

Öz vəzifəsi ifasında vəfat etmiş general-mayor Əfəndizadənin qadını və üç övladına qanun layihəsi surətində təsdiq edilənədək bütün məvacibi və yemək xərci verilsin. İşbu xərc Hərbiyyə Nəzarəti məxaricatına artırılacaqdır.

## TƏƏSSÜFLÜ BİR ZİYA’ [İTKİ]

Bir qara xəbər daha eşidiriz! Və eşitdiyimiz qara xəbərlər nasıl qəlbimizi sızlatdı, fikir və zehnimizi tırmaladı isə, bu da öyləcə gələcəyə məxsus ümidlərimizə qara buludlar açır: Süleyman bəy Əfəndiyev ölmüş!

Bütün həyatını millətə xidmət, millət yolunda, haqq yolunda qeyrət etməklə Zaqafqaziya islamları arasında tanınmış, bilinmiş olan polkovnik Süleyman bəy Əfəndiyev ölmüş!

İsti yay aylarında, qışın soyuq günlərində Ağdamda, Tərtərdə və Qarabağın sair yerlərində vətənin hüdudlarını mühafizə edərək düşmən qarşısında ər kişilərə məxsus bir qəhrəmanlıqla çalışıb-çabalayan o aliqiymət əsgər, kiçik bir dövreyi-istirahətə nail olammadan və Azərbaycanın müşkül və zəhmətli şu zamanında həyata vida etdi!

Mərhumu yaxından tanıyanlar onun nasıl bir ənmuzəci-fəzail [fəzilətlər mücəssəməsi] olduğunu hörmətlə bilirlər. Bu zat geniş bir qəlbə malik idi. Öylə bir qəlb ki, orada lirik bir hiss, bir səmimiyyət bəlli olurdu. Qəlbi kimi fikri də səlim [sağlam] idi. Ən incə düşüncələrində, hətta hərarətli tənqidlərində belə cahanşümul bir səmimiyyət göstərirdi. Danışmaqdan heç də xoşlanmaz və iş tərəfini iltizam edərdi [öhdəsinə götürərdi, özünə borc bilərdi].

Bu zaye [itki] çox müəssifdir [kədərlidir]. Zavallı, həyatında oğlunun Batumda intihar etdiyindən də xəbərdar olmamışdı.

Bəradəri [qardaşı], Batumda camaat xadimliyi ilə bilinmiş Azərbaycan Hökumətinin Batum konsolosu doktor Mahmud bəy Əfəndiyev şübhəsiz bu bütün ailənin böyüyü olmaq etibarı ilə çox mütəəssir olacaqdır.

Biz bütün ailəsilə bərabər hörmətli Mahmud bəyə təziyət edir və səbr təmənni ediriz.

*Ə. Həmdi*

## BAKI XƏBƏRLƏRİ

**“Ərdahan” gəmisinin tərksilahı**

Portdan verilən xəbərlərə görə, bu günlərdə İngiltərə komandanlığının əmri ilə “Ərdahan” gəmisi doka daxil edilmişdir. Əvvəlcə İngiltərə müxribləri [destroyerləri] “Ərdahan”a yaxınlaşıb bir neçə dəfə “Ərdahan”ın ətrafında dövr vurmuşlardır.

**Çörək qiymətləri**

İngiltərə ərkani-hərb [qərargah] idarəsinin mərkəzi ərzaq heyəti əhaliyə məlum edir ki, çörək zeyldəki [aşağıdakı] qiymətlərlə satılır:

1. “Sentrodom”un dükanlarında 10 faiz buğda və 90 faiz arpa girvənkəsi 2 manat 75 qəpik.
2. “Kooperasiya” cəmiyyətinin dükanlarında 25 faiz arpa unu qarışıq - 2 manat 75 qəpik. Xalis buğda unundan - 3 manat, mədən-zavod dairəsində xalis arpa unundan - 1 manat 75 qəpik, 1 manat 85 qəpik.
3. Dəmiryol kooperativ dükanlarında 75 faiz buğda, 25 faiz arpa unundan ancaq dəmiryol qulluqçularına 2 manat.

*İngiltərə Ərzaq komissarı mayor Kenisq*

**Bakı-Şamaxı post və teleqraf müxabiratı [əlaqəsi]**

Maliyyə Nəzarəti Bakı qubernatoruna müraciətən rica etmişdir ki, tezliklə Bakı ilə Şamaxı arasında post-teleqraf müxabiratının təcdidi [yenilənməsi] üçün lazımi binagüzarlıqda [sərəncamda] bulunsun. Məzkur [deyilən] şəhərlər arasında post münasibatı yoxluğundan bəzi hökumət işlərinin vaxtında əməl edilməsi təxirə uğrayır.

**“Müsavat” şöbələrində**

* Türk Ədəmi-Mərkəziyyət “Müsavat” firqəsinin Suraxanı mədən dairəsi şöbəsi bununla elan edir: Suraxanıda vağzal qabağında “Müsavat” şöbəsində fevral ayının 27-də olan iclasa hər 50 nəfərdən bir nəfər nümayəndə təyin edib göndərsinlər. Müsəlman işçi qardaşlardan rica olunur bu barədə səhlənkarlıq etməsinlər.

* Türk Ədəmi-Mərkəziyyət “Müsavat” firqəsinin Balaxanı mədən dairəsi şöbəsi bununla elan edir: Sabunçu, Ramana, Zabrat, Balaxanı mədənlərində işləyən müsəlman işçilərinə. Hər 50 nəfərdən bir nümayəndə təyin edib fevralın 27-də pəncşənbə [cümə axşamı] günü saat 2 tamamda “Müsavat” şöbəsinin iclasına göndərsinlər. Vacibli və lazımlı məsələlər müzakirə olunacaqdır. Yoldaşların gəlmələri artıq dərəcədə rica olunur.

**Balaxanı kooperativ klubunda (Balaxanı krujoku)**

Cümə günü, şubatın (fevralın) 28-də saat 1 tamamda yoldaş Ələkbər Heydərov (Buzovnalı) türk dilində kooperativə dair leksiya oxuyacaqdır. Leksiya pulsuzdur.

**Hadisat**

Fevralın 22-də Məşqət [Maştağa] kəndinin əhli Qədiməli Sultan oğlu Məşqət pristavına məlum etmişdir ki, fevralın 20-də axşam saat 5-də məzkur [adı çəkilən] kəndin əhli Abbasqulu Məhəmməd oğlunun evinin yanında üç nəfər həmkəndliləri Abbasqulu, Xanəli, Pirəli Xəlil oğlanları ona hücum edib 983 manat pulunu və tapancasını almışlardır. Müqəssirlərdən Xanəli tövqif edilib [tutulub], qeyrilərini tutmaqdan ötrü tədbirlər ittixaz edilmişdir [tədbirlər görülmüşdür].

**Məhbusların qaçması**

Bakı həbsxana naçalniki [rəisi] qubernatora məlum etmişdir ki, fevralın 23-də həbsxanadan Həsən Cəbrayılov, İvan Samoylov və Əli Qulam oğlu Qulamov nam [adlı] üç məhbus pəncərənin dəmirlərini sındırıb qaçmışlardır. İkinci günü məzkur məhbuslardan Həsən Cəbrayılov həbsxana naçalniki yanına gəlib yenidən həbsə alınmasını rica və məlum etmişdir ki, onun qaçmasına ölümlə hədələnməsi səbəb olmuşdur.

**Dəmiryolunda**

Sanqaçal mövqifi [stansiyası] yaxınlığında xarab olmuş dəmiryol xətti təmir edilərək yenidən qatarlar hərəkatı başlanmışdır.

Sanqaçal mövqifində, fevralın 22-də su qatarı yol dəyişmədiyindən yoldan çıxıb paravoz və iki dənə vaqon əzilmişdir. İnsan tələfatı yoxdur. Dəmiryol cüzi surətdə xarab olmuşsa da, qatarlar hərəkatı təxirə uğramamışdır.

**Bakı quberniyasında**

- Quba qəza qaimməqamı [qəza rəisi] qubernatora məlum edir ki, fevralın 17-də İmamqulu kəndi əhilləri Mirzə Məhəmməd Hacı Salah oğlu və Mənuçöhr Əmir Ziya oğlu ilə öz kəndliləri olan 12 yaşında Heydər bəy Bayram oğlunu tüfəng gülləsi ilə yaralamışlardır.
- Quba qəzası Dəvəçi uçastoku Eyni-bulaq kəndinin əhlləri Bakı qubernatoruna müraciətən məzkur [adı çəkilən] kəndin yüzbaşısı Nəcməddin İsmayıl oğlundan şikayət edirlər. Məzkur kəndxuda bəzi şeyləri bəhanə edərək əhalidən külli miqdarda rüşvət alırmış, onları döyüb incidirmiş. Hökumət tərəfindən əsgər yığılması təxir edildiyinə baxmayaraq, bir çox adamları əsgərliyə çağırıb öz mənfəətinə olaraq pul aldıqdan sonra yenə buraxırmış. Və bir çox qeyri suiistemallarda [sui-istifadələrdə] bulunur.

**Müfəttinlər**

Quba uyezd naçalniki Bakı qubernatoruna məlum edir ki, Alpan kəndinin əhlləri Molla İslam Hacı Əbdürrəhim oğlu, Ağagül Şeyx Məhəmməd və Meydan Süleyman oğlu əhali arasında bir çox yalan şayiələr buraxıb hökumətə əsgər verməməyə dəvət edir və camaatı Azərbaycan deyil, Dağıstan Hökumətinə tabe olmağa tərğib [təşviq] edirlər. Müfəttinlərdən [fitnəkarlardan] iki nəfəri tövqif edilib [tutulub], qalan bir nəfəri Molla İslam isə gizlənmişdir. Naçalnik məzkur xainlərə cəza verilməsini qubernatordan rica edir.

## ƏRZAQ İŞLƏRİ

**Qarabağ bezləri**

Ərzaq Nəzarətinin Qarabağ general-qubernatorluğunda olan vəkili Ərzaq Nəzarətinə yazır ki, Qarabağ general-qubernatorluğuna buraxılan bezləri təhqiq etməyə başladım. Birinci növbədə məhəlli uyezdnı naçalniklərə [yerli qəza rəislərinə] və ictimai müəssisələrə təmimnamələr [təlimatlar] göndərib nə zaman, nə qayda ilə və harada əhali ehtiyacı üçün alınmış manufakturlar haqqında məlumat verilməsini istədim. İndiyə qədər üç ittifaq [hadisə] kəşf edilmişdir ki, Ticarət və Sənaye Nəzarətinin icazəsilə buraxılan bezlər gedib yerinə çatmamışdır. Birincisi 25 min arşın bezdir ki, Şuşa şəhər ərzaq komitəsi və onun sədri Məhəmməd Tağıyev ixtiyarına buraxılmışdır. İkincisi 10 min arşın bez və ağ Malıbəyli kənd camaatının vəkili Mirmehdi Ağamirzadəyə buraxılmışdır. Bundan ancaq Malıbəyliyə min arşın bez və 400 arşın ağ gəlib çatmışdır. Üçüncüsü Zəngəzur uyezdi “Müsəlmanlar” kənd camaatına 4 min arşın buraxılan bezdir. Bu hər üç ittifaqda xəyanət edən şəxslər general-qubernator cənabları tərəfindən qanuni məsuliyyətə cəlb edilmişlərdir.

## AZƏRBAYCANDA

**Sayad Xızıdan bizə yazırlar:**

Quba qəzası Dəvəçi dairəsində Bakı qəzası ilə sərhəd olan Sayad Xızı icması ibarət on səkkiz para kəndlərdən inqilabın əvvəlinci günlərindən etibarən Quba qəzasından ayrılıb Bakı qəzasına mülhəq olmaq [birləşmək] üçün sabiq Rusiya müvəqqəti hökumətinə ərizə verilmişdir.

Bunları bu təşəbbüsə vadar edən Bakıya nisbətən, Qubaya gediş-gəliş əlverişli olmamasıdır. Məsələn, bir kəndli bu obşestvanın hangi kəndindən olursa-olsun Qubaya iş düşdüyü zaman əvvəlcə Dəvəçi istasyonuna, oradan Xaçmaz mövqifinə [stansiyasına], sonra Xaçmazdan parası varsa faytonla, yoxsa Qubaya qədər piyada getmək məcburiyyətində idi. Bu da əhalinin son dərəcə məşəqqətinə və yaxud artıq məxaric sərf olmasına səbəb olurdu. Fəqət Bakı qəzası ilə həmsərhəd olan Sayad Xızı icması Bakı qəzası üstünə yazılacaq olarsa, o zaman böylə məşəqqətlərə meydan verilməmiş olardı.

Sayad Xızı icması Giləzi istasyonuna yaxın olduğu üçün (4 verst) asudə dəmiryolu ilə Bakıya gəlmək olur. Keçmiş hərc-mərclikdən dolayı bu vaxta qədər məzkur icma ilhaqı haqqında olan təşəbbüsləri bisəmərə qalmışdı. Nəhayət bugünlərdə Sayad Xızı icmasından Bakıya 50-yə qədər vəkil gəlib öz tərəflərindən, öz əhalisi[ndən] olan tələbə, mühəndis (student, texnik) Rzaqulu Həsənzadə və Ağabəy Abdulla bəy əfəndiləri intixab edib [seçib] bu işi onlara həvalə etmişlərdi.

İsimləri balada [yuxarıda] yazılan əfəndilərin çalışması ilə hökumət Bakı vilayəti valisi vasitəsilə Sayad Xızı icmasını Quba qəzasından ayırıb Bakı qəzasına mülhəq etdilər.

Axırüləmr [axırda] bu zavallı kəndlilər qırx ildən bəri etdikləri arzusuna nail olmaqla bərabər, ilhaq əmrini başqa hökumətdən deyil, öz hökumətlərindən eşitdilər. Kəndlilər şad-xürrəm olub vətənə qayıtdılar.

Bu yaxın günlərdə Balaxanı-Sabunçu qalabəyisi [Lütfəli bəy] Əmircanov cənabları məzkur icmanın kəndlərində hökumət tikmək üçün məmur göndərməyi vəd etmişdir.

Sayad Xızı icması nümayəndələri: 1) Hüseynqulu Şahbaz oğlu; 2) Hacı Mənaf Məhəmməd oğlu; 3) Soltan Ağagül oğlu; 4) Camal Hacı Molla Əhməd oğlu; 5) Məşhədi Əyyub Əsgər oğlu; 6) Şahbaz Abbas oğlu; 7) Məhəmmədcavad Cavad oğlu; 8) Molla Pənah Həsən oğlu; 9) Molla Məhəmmədəşrəf Axund Məhəmmədəli oğlu.

## GÜRCÜSTANDA

**Pul buraxılması**

Təzə bon buraxılması Aəzrbaycan Hökumətindən indiyə qədər razılıq alınmadığına görə təxirə düşmüşdür. Ermənistan Hökuməti 240 milyon rublə buraxılmasına razılıq vermişdir. Bu pulun üç cümhuriyyət arasında təqsim olunması [bölünməsi] təsəvvür edilir.

**Azərbaycana getmək**

Gürcüstan Hökuməti nəzdində olan Azərbaycan siyasi nümayəndəsi xəbər verir ki, bu axır vaxt Bakıya və Azərbaycanın qeyri yerlərinə gedənlərin icazəsi olmadığından, sərhəddə bir çox ixtilaflar vücuda gəlir. Bu cür ixtilafları bərtərəf etməkdən [aradan qaldırmaqdan] ötrü Azərbaycan Hökumətinin siyasi nümayəndəsi Gürcüstandan Azərbaycana gedənlərə xəbər verir ki, Gürcüstan Hökumətindən aldıqları icazədən başqa Azərbaycan siyasi nümayəndəsindən də icazə vəsiqəsi almalıdırlar.

## ERMƏNİSTANDA

**Hökumət heyətində təbəddülat [dəyişiklik]**

Ermənistan Hökumətində bəzi vəzirlər [nazirlər] dəyişmişlərdir. Daxiliyyə nazirliyinə Xatisov təyin edilmişdir. Hökumət rəisi orada mövcud olmadıqda, Xatisov onun vəzifəsini ifa edəcəkdir. X[ristofor] A[vvakumoviç] Vermişev Ərzaq naziri, Torosyan Ümuri-Xeyriyyə və Nafiə [Sosial Təminat] nazirliyinə təyin edilmişdir. Mühəndis Oqanesov Ermənistan Dəmiryolları naçalniki [rəisi] təyin edilmişdir.

**Kaçaznuni**

Ermənistan Hökuməti Baş vəziri Kaçaznuni Parisə və Amerikaya getməkdədir. Kaçaznuninin qəsdi tezliklə Ermənistana ərzaq və birinci zəruri şeyləri göndərməklə bərabər, Müttəfiqlərdən borc almaq üçün zəmin hazırlamaqdır.

**Qoxtan Cümhuriyyəti**

- İrəvanda alınan xəbərlərə görə, Qoxtan müsəlman və erməni kəndləri (Əylis rayonunda) müvəqqət bir cümhuriyyət təşkil edib ingilislər gələnə qədər asayiş və nizam saxlamaq üçün hökumət düzəltmişlərdir.
- Əylisdə cümhuriyyət elan edilmişdir. Hökumət başında Qayk Soqomonyan və Məlik-Mosyan durmuşlardır.
- Ordubadda xanlıq elan edilmişdir. Orada ingilis əsgərləri yoxdur.

**Camalyan**

Gürcüstan Hökuməti nəzdində olan sabiq siyasi nümayəndə Arşak Camalyan şayiata [şayiələrə] görə İstanbula səfir təyin ediləcəkmiş. Rəsmi vəkalət hələ yoxdur.

**Qars oblastında**

Qars oblastı İngiltərə general-qubernatoru Tamberleyn tərəfindən idarə olunmaqdadır. Mülkiyyə xidmətləri ifası üçün sabiq rus zabitləri xidmətə dəvət edilirlər. Sabiq jandarma polkovniki mühafizə naçalniki təyin edilmişdir.

## İDARƏYƏ MƏKTUB

Möhtərəm müdir əfəndi!

Məhəlli [yerli] qəzetələrdə Cavad mahalında yaşayan naməlum kəndçilər tərəfindən və savadsız olduğundan barmaq basılmaqla iktifa edən [kifayətlənən] bir məktub dərc edilmişdir. Halbuki həmin kəndçilərin imzalarını öz ərizələrini yazdırmış olduqları [və] şikayətçilərin adlarını gizlətmiş olan savadlı şəxs qeyd edə bilərdi.

Bu cür məktub[un] qəzetə sütunlarında çap edilməsi zənnimizcə mümkün olan şeylərdən deyil. Zira adlarını gizlətmiş olan şəxslər bu yolla danosda bulunub kiminsə təmiz adına ləkə vururlar. Mən qəti surətdə elan edirəm ki, bu məktubda həqiqətə müvafiq bir şey yoxdur və təsdiq edirəm ki, Cavad mahalında camaat barəsində heç bir xəyanətə yol verməmişəm və var qüvvəmlə bu yolda çalışmışam.

Əvət, məhəlli camaat xadimi Ağa Mirəşrəf cənablarının təşəbbüsü ilə məhəlli tacirlər və zavodçular öz xahişlərilə ianə qəsdilə Realnı məktəbi nəfinə [xeyrinə] Bakıya göndərilən mallara vergi təyin etmişlərdi və ümdə məqsəd də bu yol ilə yeganə olan xəstəxananı saxlamaq idi. O xəstəxana ki, kimsə onun fikrində olmayırdı. Camaat da qətiyyən ondan mənfəətbərdar olammayırdı. Bu həqiqətən də mənim razılığımla olmuşdu. Çünki xəstəxananı saxlamaq üçün başqa çarə də yox idi. Mənim tərəfimdən mahalda könüllülərdən sərhəd mühafizəçi dəstəsi təşkil edilmişdir. Bunlar mahalı şahsevənlərin hücumundan müdafiə edirlər, əhali də bu işdə mənə müavinət [kömək] edir. Ancaq bu yolla qəhətlik, naxoşluq və Şahsevən bəlalarından mahalı mühafizə etmək mümkün olmuşdur. Mən təvəqqe edərdim ki, Cavad mahalına Parlaman tərəfindən istintaq komissiyası göndərilib də, bu işləri təhqiq etsin və işin həqiqətinə vaqif olsun və bilsinlər ki, o məktubu yazanlar kəndçilər olmayıb, mənim şəxsi düşmənlərimdən bir dəstədir.

*Kamali-ehtiram ilə Cavad naçalniki:*
*Əliheydər Yusifov*

## TEATRO VƏ MUSİQİ

Üzeyir bəy Hacıbəyli tərəfindən digər bir balet rəqsi yazılıbdır ki, bunun da adı “Azərbaycan”dır. Keçən günlərdə yazmış olduğu “Dağıstan” baleti “ləzginka” səyağında olduğu halda bu yeni “Azərbaycan” baleti də “tərəkəmə” səbkindədir [üslubundadır]. Hər iki oyun Hacıbəyli Bəradərləri Müdiriyyəti tərəfindən səhnə üçün hazırlanmaqdadır.


**İtibdir**

Fevralın 25-ində Tatarski küçədə bumajnik içində 2 dənə gümüş manat və bir açar itibdir. Onu tapan müsəlmandan çox xahiş edirəm ki, gətirib 50 manat bəxşişlə “Azərbaycan” qəzetəsi kantoruna versin.

*5703 1-4*

Ağa Əmirqulu oğlunun Balaxanı 4-cü uçastokundan aldığı 5 illik pasportu itibdir. Etibardan saqitdir [etibarsızdır].

*5704 1-4*

Rzaqulu Ağabala oğlu Şirvanlı 17 yaşında, əynində qolsuz köhnə pencək, başında qara papaq, uzunboylu. 10 gündür itibdir. Onun barəsində məlumat bilənlərdən acizanə rica edirəm ki, gəlib anası Məşhədi Səyyarə Əliəsgər qızına xəbər versinlər. Ünvan: Persidski küçə, 6-cı dalan, nömrə 1.

*5705 1-4*

**Arvad həkimi Y. A. Qirişqori**

Knyaz Kropotkin namına olan sabiq Xarkov uşaq xəstəxanasının müdirinin müavini daxiliyyə və uşaq xəstəliklərini qəbul edir hər gün səhər saat 11-dən 1-ədək, axşam saat 4-dən 7-yədək.

Cümə günləri fəqirləri pulsuz qəbul edir.

Ünvan: Spasski küçə nömrə 33, Kamenisti küçənin küncündə.

5701 12-4

**Tələbə (kursistka)**

Ali-ibtidai məktəbini qurtarmış, ali-ibtidai məktəbinin hər bir siniflərinə şagirdlər hazır edir. Ünvan: Sisyanovski küçə nömrə 7, Qubernskinin küncündə, diş həkimi Lyubinin mənzilində.

*5706 1-4*

**Diş həkimi S. M. Hamburq**

Nikolayevski küçədə nömrə 29, Parlaman qarşısında. Telefon 5-96.

Dişlərə və ağıza müalicə edir. Kauçuk və qızıl üzərində süni dişlər qayırır. Dişləri və tükləri ağrısız çıxarır. Qızıl iş işləyir. Qəbul edir səhər saat 9-dan 2-yə kimi; axşam saat 4-dən 7-yə kimi.

**Doktor**
**Musa bəy Rəfiyev**

Daxili əmraza [xəstəliklərə] düçar olan naxoşları qəbul etməyə başlamışdır. Səhər saat 9-11-ə kimi. Axşam saat 5-7-yə kimi. Ünvan: Armyanski, nömrə 15. Telefon 16-80.

*b-37*

**Arvad diş həkimləri**
**Z. A. Şexter və xanım**

Dişlər ağrısız çıxarılır. Qızıl qapaq, qazma və hər növ qayırma dişlər. Dişin yaxşı qayırılması təmin olunur. Kənardan gələnlər üçün iş tezliklə görülür. Qiymətlər münasibdir. Qəbul olunur 9 - 2-yə və axşam 4 - 7-yə kimi. Voronsovski küçə 17 nömrəli evdə, paradnı qapıdan.

*215*

Baytariyyə həkimi və Tibbi fakültənin 2-nci kursunun müdavimlərindən **A. A. Ter-Bağdasarov** xırda heyvanları səhər saat 4-dən axşamadək, iri heyvanlara isə mal sahibinin evində baxır və cavan heyvanlara qiymət qoyur. Ünvan: Karantinni küçədə nömrə 100. Telefon nömrəsi 43-08.

*2681*


**Elan**

Azərbaycan Posta və Teleqraf Nəzarəti elan edir ki, bu şubatın 24-dən etibarən Bakıda böyük posta və teleqraf məktəbi açılır. Dərs axşam saat 5-də başlanır. Ərizə Posta və Teleqraf Nəzarətində qəbul olunur.

Adres: Mirbabayevin evində 3-cü mərtəbədə, Naberejni küçədə.

*Dəftərxana baş müdiri: Blajevski*
*Kargüzar: D. Rəhimli*
*45 3-4*


**Агентурно-комиссионно-торговая**
**Контора "И. Фани и Ко."**

Баку, Церковная 70.
Телеф. N 22-28. Почт. ящ. N 13.
Agent, komissiyalar və ticarət kantoru
“Fani və kompaniya”, Bakı.
Telefon nömrəsi 22-28.
Potça qutusu nömrə 13.

Kimə nə mal lazımsa və kimin satılacaq nə malı varsa bizim kantora müraciət etmələri təvəqqe olunur.

Satılır: məftul, sabun, un, min meşok arpa, saman, kömür, fındıq hərəsindən iki vaqon.

*2693*


***Müvəqqəti müdir:***
***Hacıbəyli Üzeyir bəy***

## TRANSLİTERASİYA İLƏ BAĞLI QEYD VƏ ŞƏRHLƏR

***Ümuri-Xeyriyyə və Nafiə Nəzarətindən***

“Naberejni”: Bakıda, indiki Neftçilər prospekti.

“Nikolayevski”: Bakıda, indiki İstiqlaliyyət küçəsi.

***Azərbaycan Məclisi-Məbusanında***

“Bir neçə qanun layihələri”: bu maddənin bəndləri ərəb əlifbasının hərf sırasına uyğun olaraq “əlif, be, te…” kimi işarələnmişdir.

“Dikidir”: “diki” rusca “adamdan qaçan; vəhşi; yabanı” kimi mənalara gəlir; burada zarafatyana işlənmişdir.

***Teleqraf xəbərləri***

“Qatil tövqif edilib dərhal matroslar tərəfindən güllələnmişdir.”: Kurt Eysnerin qatili Arko auf Valley, Eysnerin cangüdənləri tərəfindən yaralanmış, fəqət ölməmişdir. Ölüm cəzasına məhkum edilmiş, sonra cəzası ömürlük həbsə dəyişdirilmiş, 1924-cü ildə azadlığa buraxılmışdır. Arko avtomobil qəzası nəticəsində ölmüşdür.

“Frankfurter çaytunq” [Frankfurter Zeitung]: Frankfurtda 1856-1943-cü illərdə nəşr edilən gündəlik qəzet.

“Forverts” [Vorwärts]: Almaniya Sosial-Demokrat Partiyasının orqanı idi.

Hindenburq: qəzetdə “Gindenburq” kimi getmişdir. Almaniyanın hərbi və siyasi xadimi Paul fon Hindenburq nəzərdə tutulur.

***Vükəla Şurasında***

“…general Əfəndizadənin ailəsinə…”: Azərbaycan Cümhuriyyəti ordusunun generalı Süleyman bəy Əfəndizadə nəzərdə tutulur.

***Təəssüflü bir zıya***

“…polkovnik Süleyman bəy Əfəndiyev…”: Süleyman bəy Əfəndizadə (Əfəndiyev) polkovnik rütbəsini 1912-ci ildə çar ordusunda almışdır. Azərbaycan Cümhuriyyəti dövründə (29 dekabr 1918-ci ildə) Süleyman bəyə general-mayor rütbəsi verilmişdi.

“Ə. Həmdi”: bu imza Əhməd Həmdi Qaraağazadəyə məxsusdur.

***Azərbaycanda***

“Sayad Xızı icması”: mətnin bəzi yerlərində “Sayad Xızı ictiması” kimi getmişdir.

“…ibarət on səkkiz para kəndlərdən…”: güman belə olmalıdır: “…ibarət olan səkkiz para kəndlərdən…”

***Ermənistanda***

Qoxtan: Ermənilərin Ordubad rayonunun bir qisminə verdikləri ad.

***İdarəyə məktub***

“Halbuki həmin kəndçilərin imzalarını…”: bu cümlə qəzetdə müəyyən səhvlərlə getmişdir.





# Mədəniyyət





● Milli mədəni irsimiz

## Muzeylər tarixi keçmişimizin saxlanc yeridir

**Müxtəlif dövrlərə aid qiymətli əşyaların, sənət nümunələrinin saxlanc yeri olan muzeylər uzun tarixi inkişaf mərhələsi keçib. Ölkəmizdə rəsmi şəkildə muzeylər yaradılana kimi tarixi, bədii, eləcə də mənəvi əhəmiyyət kəsb edən bu sənət nümunələri şəxsi kolleksiyalarda, saraylarda, məbədlərdə saxlanılırdı.**

XIX əsr Azərbaycan ədəbiyyatının, mədəniyyətinin intibah dövrü oldu. Ölkənin ictimai-siyasi, sosial həyatında baş verən hadisələr, yaradıcı təfəkkürə sahib maarifpərvər ziyalı mühitinin formalaşması, sürətlə cərəyan edən proseslər Azərbaycanda yeni bir dövrün başlandığından xəbər verirdi. Elə həmin illərdə - 1896-cı ildə Cəlil Məmmmədquluzadə Nehrəm kəndində fəaliyyət göstərən məktəbin nəzdində Tarix-Diyarşünaslıq Muzeyi yaratdı. Muzeydə Azərbaycanın, o cümlədən Naxçıvan diyarının mədəniyyətinə aid maddi-mədəniyyət nümunələri toplandı. Demək olar ki, bu təşəbbüslə də Azərbaycanda muzey işinin əsası qoyuldu. Muzeylərə sadəcə olaraq qiymətli əşyaların, maddi sərvətlərin saxlanc yeri kimi baxmaq düzgün deyil. Burada qorunan hər bir eksponat xalqın çoxəsrlik tarixini, qədimliyini, milliliyini əks etdirir. Əslində, muzeylər elm, maarif müəssisəsidir.

XX əsrin əvvəllərində Azərbaycan Demokratik Respublikasının mövcud olduğu dövrdə Bakıda "Müstəqillik muzeyi" fəaliyyət göstərməyə başladı. 1920-ci ildən Azərbaycanın bir çox şəhərində - Gəncə, Naxçıvan, Lənkəran və Şəkidə tarix-diyarşünaslıq muzeyləri yaradıldı.

Milli Azərbaycan Tarixi Muzeyi 1920-ci ilin iyun ayında Azərbaycan SSR Xalq Maarif Komissarlığının məktəbdənkənar işlər şöbəsində yaradılmış "Muzekskurs" yarımşöbəsinin nəzdində "Doğma diyarın tədris muzeyi - İstiqlal" təşkil edildi. Tarix Muzeyinin yerləşdiyi bina məşhur sahibkar, xeyriyyəçi Hacı Zeynalabdin Tağıyevin və ailəsinin yaşayış evi olub. Qeyd edək ki, Tağıyev sarayının inşasında 270 nəfər mühəndis, memar, dülgər, nəqqaş və başqa ustalar çalışmışdı. Sarayın daxilindəki bütün avadanlıq Rusiyadan, Fransadan, Amerikadan, Almaniyadan gətirilib.

Muzey 1920-ci il oktyabrın 25-də Azərbaycan Dövlət Muzeyi adı ilə fəaliyyətə başlayıb, 1921-ci ilin may ayından ilk ziyarətçilərini qəbul edib.

Yarandığı ilk dövrdə burada tarix, arxeologiya və etnoqrafiya, botanika və zoologiya, minerologiya və geologiya, təsviri incəsənət və bədii sənət, xalq təhsili, köməkçi tədris müəssisələri şöbələri, eləcə də Azərbaycan Doğma Diyarın Tədqiqi Cəmiyyəti və Qədim abidələrin mühafizəsi komissiyası fəaliyyət göstərib. 1923-cü ildə yaradılan və muzeylə sıx əlaqədə olan Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyəti muzeyin tərkibindəki cəmiyyət və komissiyanı özündə cəmləşdirib. 1925-ci ildə XMK Kollegiyasının təsdiq etdiyi Azərbaycan Dövlət Muzeyinin "Əsasnamə"sinə görə, onun strukturunda edilən dəyişiklik əsasında tarix-etnoqrafiya, incəsənət, biologiya, geologiya şöbələri, Qafqaza və Şərqə dair kitabları əhatə edən zəngin kitabxana fəaliyyətini davam etdirib. Sonrakı illər dövrün tələbinə uyğun olaraq muzeydə dəfələrlə struktur dəyişikliyi aparılıb.




Muzeyin kolleksiyalarında qədim zamanlardan bu günlərədək ölkənin siyasi tarixinin və sosial-iqtisadi həyatının sənədlərinin əsli toplanıb.

Muzeydə diqqətçəkən faktlardan biri də burada əsaslı təmir-bərpadan sonra Prezident İlham Əliyevin təşəbbüsü ilə H.Z.Tağıyevin yeni memorial ev-muzeyinin yaradılmasıdır. Əvvəllər muzeydə bunun üçün yalnız bir otaq (Tağıyevin iş otağı) ayrılmışdı və müəyyən əşyalar, mebel və sairə saxlanılırdı. İndi isə böyük xeyriyyəçinin ailə fotoalbomu əsasında 8 otağı və ona məxsus əşya və mebelləri bərpa edilərək əvvəlki görkəminə qaytarılıb. H.Z.Tağıyevin iş kabineti, Şərq zalı, kitabxana, bilyard otağı, yemək otağı, məlumat otağı, Sona xanım Tağıyevanın bəzək otağı - buduar, yataq otağı, təmizlik otağı bərpa edilib. Muzey ziyarətçilərdə məşhur xeyriyyəçinin sosial həyatı haqqında təsəvvür yaradır.

Ziyarətçilərin daha çox marağına səbəb olan Azərbaycan İstiqlal Muzeyi 1991-ci ildə yanvarın 9-da yaradılıb. 1919-cu il dekabrın 7-də Azərbaycan Xalq Cümhuriyyəti parlamentinin qurulmasının birinci ildönümü münasibətilə elə parlamentin binasında təşkil olunan İstiqlal Muzeyi cəmi bir neçə ay fəaliyyət göstərib. 1920-ci ilin 28 aprelində Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra muzey fəaliyyətini dayandırıb.

Muzey öz fəaliyyətini 71 il sonra müstəqilliyimizlə birlikdə bərpa etdi. 1919-cu ildə yaradılan muzeydən heç bir eksponat qalmasa da, yenidən fəaliyyətə başlayan muzey "İstiqlal" adını alaraq, birinci muzeyin mənəvi varisi oldu.

İstiqlal Muzeyində rəsm və heykəltaraşlıq əsərləri, xəritələr, şəkillər, kitablar, pul əskinasları və başqa eksponatlar nümayiş etdirilir. Muzeyin ekspozisiyasında müxtəlif tarixi hadisələrə aid maraqlı tematik sərgilər və tədbirlər keçirilir.

Mənəvi dünyamızın ən qiyətli xəzinəsinin saxlandığı Nizami Gəncəvi adına Ədəbiyyat Muzeyi isə şəhərin ən estetik binalarından birində, çox gözəl bir məkanda - Fəvvarələr meydanında yerləşir. Muzeyin 30 əsas və 10 yardımçı zalında 3 mindən artıq əlyazma, nadir kitab, illüstrasiya, portret, heykəl, miniatürlər, yazıçıların xatirələri və digər ekspozisiyalar toplanıb.

Poeziyamızın klassiki Nizaminin "İsgəndərnamə" poemasının 1413-cü ildə yazılmış əlyazması muzeyin fəxri hesab olunur.

Yaşının azlığına görə Bakı Müasir İncəsənət Muzeyini "gənc" muzey adlandırmaq olar. Muzey 2009-cu ildə açılıb. Burada əsasən azərbaycanlı rəssam və heykəltaraşların, o cümlədən Səttar Bəhlulzadə, Böyükağa Mirzəzadə, Elmira Şahtaxtinskaya, Tahir Salahov, Ömər Eldarov, Nadir Əbdurrəhmanovun əsərləri toplanıb. Muzeyin dizaynının ideya müəllifi rəssam Altay Sadıqzadədir. Muzeydə uşaq incəsənəti zalı, kitabxana, həmçinin restoran, videozal və art-kafe fəaliyyət göstərir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva və UNESCO-nun Baş katibi Koişiro Matsuura muzeyin açılışında iştirak ediblər.

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*

## Akademik Zərifə Əliyevanın 101 illiyinə həsr olunmuş sərgi açılıb

**Azərbaycan Milli Elmlər Akademiyasının Mərkəzi Elmi Kitabxanası görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın anadan olmasının 101 illiyinə həsr edilmiş sərgi hazırlayıb.**




Sərgidə Zərifə xanım Əliyevanın müəllifi olduğu "Elmi əsərlər məcmuəsi", "Görmə orqanının patologiyası", "Görmə orqanının vərəmi", "Xroniki yod intoksikasiyası zamanı oftalmopatologiya", "Oftalmologiyanın aktual problemləri" məqalələr toplusu və "Şin istehsalında gözün peşə patologiyası" elmi əsərləri və digər dəyərli nəşrlər nümayiş olunur.

Kitablarda Zərifə Əziz qızı Əliyevanın elmi-pedaqoji və ictimai fəaliyyəti, müxtəlif illərdə çap olunmuş monoqrafiyaları, dövri mətbuatda işıq üzü görən məqalələri yer alıb. Sərgilənən nəşrlərdə Azərbaycan tibb elminə parlaq iz qoymuş alimin həyatının əsas tarixləri əksini tapıb.

● İncəsənət xadimlərimiz

## İlk ali təhsilli Azərbaycan heykəltaraşı

**O, seçdiyi sənətin zirvəsinə yalnız istedadı ilə deyil, həm də əzmkarlığı ilə yüksəldi. Həyat qarşısına nə qədər çətinliklər çıxarsa da, bütün ömrünü sarsılmaz əzmi ilə yaşadı, məşhurlaşdı, adı ali təhsil almış ilk azərbaycanlı heykəltaraş kimi incəsənət tarixinə yazıldı…**





Mirələsgər Mirqasımov 1924-cü il fevralın 9-da Bakı şəhərində dünyaya gəldi. O, müasir Azərbaycan tibb elminin əsaslarını qoyanlardan biri, Azərbaycan Milli Elmlər Akademiyasının ilk prezidenti Mirəsədulla Mirqasımovun oğlu idi. Mirqasımovlar nəslinin gözəl ənənələrinin qorunub saxlanıldığı bir ailədə böyüyən Mirələsgər Mirqasımova uşaqlıq illərindən əməyə sevgi, elmə maraq aşılanırdı.

Kiçik yaşlarında mübtəla olduğu xəstəlik uşaqlıq sevincinin üzərinə kölgə saldı. Mirələsgər Mirqasımov altı yaşında ikən onurğa beyni iltihabı xəstəliyi səbəbindən eşitmə qabiliyyətini itirdi. Müalicə olunsa da, eşitmə qabiliyyətini bərpa etmək mümkün olmadı. Nitq qabiliyyətini itirmək təhlükəsi olduğu üçün anası Ceyran xanım onunla xüsusi məşğul olur, oğluna özü tərtib etdiyi əlifba ilə oxumağı öyrədirdi. Anasının sayəsində Mirələsgər Mirqasımovun karlar məktəbinə getməsinə ehtiyac qalmadı. Çox keçmədi ki, o, oxumağı öyrəndi. Sonra dodaq və mimika oxuma texnikasına loqoped Natalya Raunun köməyi ilə yiyələnərək təhsilini davam etdirdi. Anası ona həsr etdiyi "Bir ananın qeydləri" kitabında oğlu barədə yazırdı: "Onun hissləri və qavrayışı öz incəliyi ilə seçilirdi. O, özünəməxsus duyğulara malik idi və hər şeyi çox tez başa düşürdü. İstənilən mühitdə çox cəsarətlə hərəkət edirdi. Heç vaxt rahatlığını itirmir, gündəlik çətinlikləri qəbul edirdi. Bu, onun hüzurunu pozsa belə hər zaman düşündüyü kimi hərəkət edirdi".

Arzular kiçik yaşlarından könlünün qapısını döyürdü. Mirələsgər Mirqasımov uşaqlıqda gah pilot, gah aqronom, gah da bioloq olmaq xəyalı ilə yaşayırdı. Rəsm çəkməyi, hekəltaraşlığı çox sevirdi. Hər gün vaxtının xeyli hissəsini bu sevimli məşğuliyyətinə həsr edirdi. Oğlunun bacarığını və həvəsini görən Ceyran xanım qonşuluqda yaşayan məşhur heykəltaraş Pinxos Vladimiroviç Sabsaydan xahiş etdi ki, uşağın yaradıcılıq qabiliyyətini sınasın. Sabsayın rəhbərliyi ilə Mirələsgər Mirqasımov oxuduğu Valter Skottun romanının qəhrəmanı Kventin Dorvardın gildən hazırlanmış heykəlini hazırladı. Heykəl Sabsayın çox xoşuna gəldi və onun istedadını yüksək qiymətləndirirdi.

Mirələsgər Mirqasımov Əzim Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq Məktəbində təhsil almağa başladı. 1944-cü ildə məktəbi fərqlənmə diplomu ilə başa vurdu. Təhsilini davam etdirmək üçün Leninqrad (indiki Sankt-Peterburq) şəhərinə yollandı. İ.Y.Repin adına Leninqrad Boyakarlıq, Heykəltaraşlıq və Memarlıq İnstitutuna daxil oldu. Böyük maraqla oxuyub öyrənirdi. Oradan anasına göndərdiyi məktubunda yazırdı: "Ana, proqramımız çox gərgindir. Tezliklə tökmə gipsdən fiqur hazırlayacağıq. Bura çox soyuqdur. Bəzi emalatxanalarda tempratur 0-dan aşağıdır". Başqa bir məktubunda isə Heykəltaraşlıq fakültəsində ən yüksək qiymətlər alması, heykəltaraşlıq imtahanından "əla" qiymət almış iki tələbədən biri olması xəbəri ilə anasını sevindirirdi. Mirələsgər Mirqasımov "Qəhrəman neftçilər" adlı dissertasiyasını 1950-ci ildə müdafiə etdi. Təhsilini uğurla başa vurdu, ilk ali təhsilli peşəkar Azərbaycan heykəltaraşı oldu. 1951-ci ildə Azərbaycana döndü. Həmin il S.Quliyevlə birgə Xankəndi şəhərində Leninin abidəsini hazırladı.

Mərmər üzərində həkk olunmuş "Qız portreti" adlı heykəltaraşlıq işi Mirələsgər Mirqasımovu məşhurlaşdırdı. Heykəltaraş "Qız portreti", "Neftçi" və "Göyərçinli qız" əsərləri ilə respublika və Zaqafqaziya sərgilərində iştirak etdi. Sonralar heykəlləri ümumittifaq sərgisində, 1955-ci ildə Varşavada keçirilən V Ümumdünya Gənclər Festivalında sərgiləndi. Mirələsgər Mirqasımov beynəlxalq müsabiqədə qalib gələn ilk azərbaycanlı heykəltaraş oldu. Bürüncdən hazırladığı "Neftçinin portreti" əsəri 1961-ci ildə Ümumdünya İncəsənət Sərgisinin açılış zalında, 1967-ci ildə isə heykəltaraşın digər əsərləri ilə birlikdə Monrealda keçirilən Ümumdünya Sərgisində nümayiş olundu. Rusiya, Polşa, Bolqarıstan, Almaniya, Kanada, Misir və digər ölkələrin muzeylərində əsərləri sərgiləndi.

O həm dəzgah, həm də monumental heykəltaraşlıq sahəsində müəllifi olduğu bir-birindən dəyərli əsərləri ilə sənətsevərlərin diqqətini, sevgisini qazandı. Heykəltaraş Cəfər Cabbarlının (Bakı), Nəriman Nərimanovun (Sumqayıt), Cəlil Məmmədquluzadənin (Naxçıvan) abidələrinin müəllifidir. Mirələsgər Mirqasımovun müəllifi olduğu "M.Ə.Sabirin büstü", "At", "Şir", "Qız portreti", "Ana portreti", "Göyərçinli qız", "Şah yaylaq", "C.Cabbarlı", "Neftçi Qurban", "Azadlıq", "Xəzri", "Akademik Mirəsədulla Mirqasımov", "Hərəkət qüvvətdir" və başqa əsərləri Azərbaycan dəzgah heykəltaraşlığının ən gözəl nümunələrindən sayılır.

Onun Azərbaycan incəsənətinin inkişafındakı parlaq xidmətləri yüksək qiymətləndirilib. Mirələsgər Mirqasımov Əməkdar incəsənət xadimi (1963), Xalq rəssamı" (1982) fəxri adlarına layiq görülüb. "Şöhrət" ordeni ilə (1996) təltif edilib.

O, 2003-cü il noyabrın 9-da dünyasını dəyişib. Küçə və meydanları, böyük sərgiləri, muzeyləri bəzəyən, əsl sənət inciləri sayılan əsərləri heykəltaraş Mirələsgər Mirqasımovun adını yaşadır.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

## Azərbaycanlı rejissorun filmi Kann festivalında

**Rejissor Azər Quliyevin "Sanki yoxsan" adlı qısametrajlı ekran əsəri 77-ci Kann Film Festivalında göstəriləcək. Ekran işi festivalın qısametrajlı filmlər müsabiqəsinin proqramına salınıb.**




Mayın 14-dən 25-dək davam edəcək 77-ci Kann Film Festivalının qalibləri Lubna Azabalın sədrlik etdiyi münsiflər heyəti tərəfindən müəyyənləşdiriləcək.

Müsabiqəyə təqdim olunan 4420 film arasından Azərbaycan, Braziliya, Kanada, Çin, Xorvatiya, ABŞ, Fransa, Kosovo, Litva və Portuqaliya kimi 10 ölkədən 11 qısametrajlı film seçilib.

## Unikal arxiv materialı aşkar edilib

**Azərbaycan Dövlət Film Fondundan verilən məlumata görə, Azərbaycan kinosu tarixinə aid unikal arxiv materialı aşkar edilib. Qeyd edilir ki, Xalq artisti, kinorejissor Rza Təhmasibin 130 illik yubileyinə hazırlıqlarla əlaqədar aparılan yeni araşdırmalar zamanı aşkar olunmuş fotosənəd 1945-ci ilə aiddir.**

Arxiv materialı Bakı kinostudiyasında lentə alınmış "Arşın mal alan" (rej. R.Təhmasib və N.Leşşenko) bədii filminin çəkilişləri zamanı aşkar olunub. Azərbaycan Dövlət Film Fonduna orijinal şüşə neqativdə təhvil verilmiş fotosənəd Əməkdar mədəniyyət işçisi, fotoqraf-rəssam Pərviz Quliyevin şəxsi arxivinə daxildir.

Bu günədək heç bir kino tədqiqatında istifadə olunmayan bu fotoşəkil bərpa olunmuş şəkildə Dövlət Film Fondunun rəsmi saytı və sosial media hesabları vasitəsilə ictimaiyyətə təqdim olunur.

## Bakıda festival keçiriləcək

**Türkiyənin Mədəniyyət və Turizm Nazirliyinin dəstəyi ilə keçirilən III Beynəlxalq Hadi Poyrazoğlu Kukla və Qaragöz Festivalında Azərbaycan Dövlət Kukla Teatrının yaradıcı heyəti də iştirak edir.**




Ankarada start verilən festival İstanbulda davam edib, Bakıda başa çatacaq. Ankaradakı Yunus Əmrə Mədəniyyət Mərkəzində Azərbaycan Dövlət Kukla Teatrının artistləri "Məlikməmməd" tamaşasını nümayiş etdiriblər. Tamaşa aprelin 28-də İstanbulda da göstəriləcək. Beynəlxalq festival aprelin 30-da və mayın 1-də isə Bakıda keçiriləcək.

Festivalda Türkiyə, Azərbaycan, Almaniya və İtaliyadan teatr kollektivləri iştirak edir.

Tədbirə UNESCO, Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı - TÜRKSOY, Türk Əməkdaşlıq və Koordinasiya Agentliyi (TİKA), TRT telekanalı, digər qurumlar təşkilati dəstək göstərirlər.

● Söz ustadlarımız

## Şuşa ədəbi mühitindən bəzi nümunələr

**Azərbaycanın və bütün Qafqazın tacı qədim Şuşamız əsrarəngiz təbiəti, dünyaya səs salan musiqisi, gözoxşayan sənətkarlıq nümunələri ilə yanaşı, həm də bir söz möcüzəsidir.**



Əsrlər boyu bu ədəbi mühitdə istedadlı ədiblər yetişmiş, kamil əsərlər, poetik-fəlsəfi nümunələr yaranmışdır. Şuşa şairlərinin əksəriyyəti şəhərin və məmləkətimizin hüdudları daxilində yaşayıb yaratmış, bəziləri isə sərhədləri aşaraq xarici ölkələrə üz tutmuş, qoca Şərqdə məşhurlaşmışlar.

Heç də təsadüfi deyil ki, ötən il sentyabrın 25-də Qətər Dövlətinin paytaxtı Doha şəhərində keçirilən İslam Dünyası Mədəniyyət Nazirlərinin 12-ci Konfransında Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhəri 2024-cü il üçün islam dünyasının mədəniyyət paytaxtı elan edildi. Əlamətdar hadisə ilə əlaqədar Preident İlham Əliyevin müvafiq sərəmcamında da qeyd edildiyi kimi, bu qərar Azərbaycanın tarixi-mədəni, ictimai-siyasi həyatının mühüm mərkəzlərindən biri olub, islam mədəniyyətinin zənginliklərini dolğun təzahür etdirən Şuşaya xüsusi ehtiramın ifadəsidir və islam dünyasının həmrəyliyinin yeni rəmzinə çevrilməklə qarşılıqlı əməkdaşlıq münasibətlərinin daha da genişləndirilməsində özünəməxsus rol oynayacaqdır.

Dövlətimizin başçısının həm imzaladığı mötəbər sənədlər, həm də bu istiqamətdə dəyərli tövsiyələri "qırmızı imperiya" tərkibində olduğumuz, xüsusən də 30 illik işğal dövründə məqsədli şəkildə silinmiş səhifələrin - zəngin mədəni irsimizin bərpa edilməsini, haqqı tapdalanmış şuşalı qələm əhlinin yaradıcılığının araşdırılmasını nəzərdə tutur, alimlərin, tədqiqatçıların üzərinə ciddi vəzifələr qoyur.

AMEA M.Füzuli adına Əlyazmalar İnstitutunun fondlarındakı materiallara əsasən aparılan tədqiqatlar artıq öz bəhrəsini verməkdədir. Elm adamlarının gərgin axtarışları sayəsində bir çox şuşalı söz ustadlarının həyat və yaradıcılığı barədə məlumatlar əldə etmək mümkün olmuşdur. Onlardan biri də Zeynalabdin ibn Molla Sadıq Sağəri Şuşidir. O, 1791-ci (h.1206) ildə Şuşa şəhərində doğulub. İbtidai təhsilini atası Axund Sadıqdan alıb. Ömrünün sonuna qədər müdərrislik və şairlik edib, türkcə və farca şeirlər yazıb. Əsərlərinin mövzu və ideyası vətən, təbiət, gözəllik, sevgi, dövrün cəfalarından şikayətlərdir. Sağəri 1854-cü (h.1271) ildə Şuşada vəfat etmişdir. Fondlarda müxtəlif məzmunlu şeir, rübai, qəzəl, saqinamələrini ehtiva edən divanları saxlanılır. Əlyazmaları qara mürəkkəblə nəstəliq xətti ilə ağ saya kağızda fars dilində yazılmış, Şərq üsulu və sadə qələmlə müasir üsulda ardıcıl olaraq səhifələnmişdir. Divan A.A.Bakıxanovun "Qanuni-Qüdsi" adlı əsəri ilə birlikdə cildlənib.

Mirzə Əbülhəsən bin Kərbəlayi Kazım Şəhid Şuşalı isə 1816-cı (h.1231) ildə dünyaya gəlib. Mədrəsə təhsili aldıqdan sonra müxtəlif vəzifələrdə, eləcə də Cavanşir qəzasının qazısı kimi çalışmışdır. Həmçinin "Şəhid" təxəllüsü ilə şeirlər yazır, "Məclisi-fəramuşan" ədəbi məclisinin tədbirlərinə qatılırdı. 1872-ci (h. 1289) ildə Şuşada vəfat etmişdir.

Əlyazma bənövşəyi rəngli mürəkkəblə nəstəliq xətti ilə Rusiya istehsalı olan kağızda türk və fars dillərində yazılıb. Məcmuəyə şairin fərqli mövzuda saqinamə, qəsidə, qəzəl, məsnəvi və digər janrlarda əsərləri daxil edilmişdir. Yazılı abidədə yalnız 6 şeir türk dilindədir.

Mirzə Ələsgər bəy Kərbəlayi Abdinbəy oğlu Əhmədbəyov 1836-cı (h. 1252) ildə Şuşa şəhərində anadan olub. Əslən Cavanşir-Dizaq mahalının Zərgər obasındandır. Mükəmməl mədrəsə təhsili görmüş və "Növrəs" təxəllüsü ilə şeirlər qələmə almışdır. Şuşada fəaliyyət göstərən "Məclisi-üns" ədəbi məclisinin üzvü olmuş, Xurşidbanu Natəvan, Seyid Əzim Şirvani və digər ünlü söz adamları ilə mütəmadi yazışmışdır. O, türk, ərəb, fars dillərini yaxşı bilməklə, rus dilini də öyrənib qəza idarəsində kargüzar işləyirdi. Əlyazma nüsxəsinə müxtəlif məzmunlu qəzəl, müxəmməs, nəzirə, tərcibənd və başqa şeir nümunələri daxil edilib. Abidənin beş vərəqində isə müəllifin avtoqraflı əsərləri yer alıb. Mirzə Ələsgər Növrəs 1912-ci (h.1330) ildə Şuşada dünyasını dəyişmiş və Mirzə Həsən məzarlığında dəfn olunmuşdur.

Bu kiçik təqdimatdan göründüyü kimi, XVIII-XIX əsrlərdə, ondan daha əvvəl və sonra Şuşada Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələri yaşayıb yaradıblar. Bu gün əbəbiyyatşünaslığımızın qarşısında duran mühüm vəzifələrdən biri də həmin külliyyatları araşdırıb oxucuların ixtiyarına verməkdir.

*Qurban MƏMMƏDOV*

## Türkiyədə 20-ci Ankara Kitab Sərgisi açılıb

**Bu gün Ankara Ticarət Palatasının Konqres və Sərgi Mərkəzində (ATO Congresium) 20-ci Ankara Kitab Sərgisi açılıb.**




Yubiley sərgisinin təşkilat komitəsinin nümayəndəsi Metin Kale bildirib ki, on gün ərzində 350 müxtəlif stenddə Türkiyənin hər yerindən mindən çox nəşriyyatın məhsulları təqdim olunacaq.

Yaponiya bu il sözügedən mədəni tədbirin qonaq ölkəsi seçilib.

Sərgi çərçivəsində çoxsaylı mühazirələrin, təqdimatların keçirilməsi, avtoqraf sessiyalarının təşkil olunması planlaşdırılır. Sərgini ən azı yarım milyon kitabsevər ziyarət edəcək.




# 80 saata ev tikən printer

**ABŞ-də "Gələcəyin Fabriki" ("FoF 1.0") adlanan dünyanın ən böyük polimer 3D printeri təqdim edilib. Bu nəhəng printerlə cəmi 80 saata kiçik bir ev tikmək mümkündür. "Maine" şirkəti tərəfindən hazırlanmış "FoF 1.0" üçün müxtəlif istifadə sahələri artıq gündəmdədir. Bunlardan birincisi tikinti sənayesidir.**



Məlumatlara görə, Maine şəhərinin 2030-cu ilə qədər 80 min evə ehtiyacı var və bu evlərin əksəriyyəti aztəminatlı ərazilər üçün nəzərdə tutulub. "MaineHousing"in direktoru Mark Uisendencer bildirib ki, onlar bu 3D printerlə xərcləri daha çox azaldacaqlar. Çünki printer əsasən təkrar emal edilə bilən materiallardan istifadə edir. "FoF 1.0" ilə birmərtəbəli evi 80 saata çap etmək, daha doğrusu, tikmək mümkündür. Məsələn, belə bir evin tikintisi bir neçə ay və ya ən yaxşı halda bir neçə həftə çəkə bilsə də, bu printer layihəni dörd gündən az bir müddətdə tamamlaya bilər.

"FoF 1.0" ilə maraqlananlar arasında ABŞ Müdafiə Nazirliyi və Energetika Nazirliyi var. O, saatda təxminən 225 kq materialdan istifadə etməklə 30 metr uzunluğunda, 9,75 metr enində və 5,5 metr hündürlüyündə obyektləri çap edə bilir.

Printerin tətbiq sahələri tikinti sənayesindən müdafiə sənayesinə qədər genişdir. Bunun səbəbi 3D printerin müxtəlif çap üsulları arasında dinamik keçid edə bilməsidir. Bu, onu körpü tikintisindən başlayaraq sualtı gəmilərdə və tikinti sənayesində istifadə etmək üçün faydalı bir cihaz edir.

## Qeyri-adi elektromobil

**Çinin paytaxtında fəaliyyət göstərən "Pekin" avtosalonunda bir çox şirkət həm istehsal, həm də konsept avtomobillərini təqdim edir. Bu şirkətlərdən biri olan "Italdesign" tərəfindən "Quintessenza Concept" adlı elektrik avtomobili nümayiş olunub.**



"İnsan və təbiət arasındakı əlaqənin təcəssümü" kimi təsvir edilən avtomobil şirkətin həm də 50 ildən artıq təcrübəsini əks etdirir. Üç elektrik enerji blokuna sahib elektromobil ikiqapılı olmasına baxmayaraq, 3240 millimetrlik təkər bazası ilə çox böyük bir quruluşa malikdir. Nəqliyyat vasitəsi incə LED fənərləri və mərkəzdə yerləşən kiçik şaquli işıq diodları ilə qeyri-adi dizayndadır.

Uzunluğu 5561, eni 2200 və hündürlüyü 1580 millimetr olan elektromobilin başqa bir maraqlı xüsusiyyəti isə baqaj qapağının, hətta demək olar ki, bütün arxa hissəsinin açıla bilən olmasıdır. Avtomobilin arxa oturacaqları da arxaya çevrilə bilir. Yuxarıya doğru açılan qapılara üstünlük verilən elektromobilin ön hissəsi mərmər əsaslı örtükdəndir. 150 kVt/saat akkumulyatora malik avtomobilin güc bloku 778 at gücündədir ki, bu da 100 km/saat sürətə 3 saniyədən az vaxtda çatmağa imkan verir. Avtomobilin dolu şarjla maksimum qət edə biləcəyi məsafənin 750 kilometr olduğu bildirilir.

## "Apple"dan sərfəli süni zəka modeli

**"Apple" "OpenELM" adlı çoxmodelli süni intellekt modelini təqdim edib. Onun ən böyük üstünlüyü yüksək sürət və təhlükəsizliyidir. Şirkət dörd kiçik dil modelindən ibarət olan "OpenELM"in e-poçt yazmaq kimi mətnlə əlaqəli vəzifələrdə çox səmərəli olduğunu söyləyib.**




"OpenELM" mahiyyətcə fərqli ölçülərə malik dörd kiçik modelə malikdir: 270 milyon, 450 milyon, 1,1 milyard və 3 milyard parametr. Parametrlərin sayı artdıqca modelin təlim məlumatları, mürəkkəbliyi və buna görə imkanları da artır. Dörd modelin hamısı olduqca kiçikdir və işləmək üçün "Gemini", "GPT 4" və "Llama 3" kimi modellərdən daha ucuzdur. Bu tip kiçik modellər əsasən cihazlarda yerli olaraq işləmək üçün optimallaşdırılıb.

"Apple" tədqiqatçıları "OpenELM" modellərinin dəqiqlik və səmərəliliyi artırmaq üçün təbəqə əsaslı miqyaslama strategiyasından istifadə etdiklərini bildirirlər.

## "TikTok" istifadəçiləri üçün yenilik

**"TikTok"un Android üçün olan tətbiqinin son versiyasında yeni funksiyaya dair kod sətirləri aşkar edilib. Söhbət mətnin süni zəka əsasında nitqə çevrilməsi funksiyasından gedir. Bu funksiya istifadəçilərə unikal səs yazılarını hazırlamağa imkan verir.**




Funksiyanın məğzi ondan ibarətdir ki, istifadəçi səsini yazır və daha sonra süni zəka səs nümunəsini analiz edərək onun əsasında realistik səsli mesajları tərtib edir. Bu isə öz növbəsində kontentin yaradılması mövzusunda yeni imkanlar yaradır. Belə ki, istifadəçi fərdi şəkildə mikrofon qarşısında danışmadan səsli yazıları tərtib edə biləcək.

Yeni funksiyadan istifadə etmək istəyən istifadəçilər "TikTok Voice Library" adlı istifadə şərtlərini qəbul etməli olacaqlar. Şərtləri qəbul edəndən sonra istifadəçi öz səsini yaza və daha sonra onu süni səsə çevirə bilər. Bu proses cəmi 10 saniyə çəkir. Daha sonra isə istifadəçi "TikTok" kontentlərinin yaradılması istiqamətində süni səsi mətnin nitqə çevrilməsində istifadə edə biləcək.

Konfidensiallıq nöqteyi-nəzərindən istifadəçilər əmin ola bilərlər ki, onların süni səsləri tamamilə konfidensial olaraq qalacaq və onları istənilən zaman silmək mümkün olacaq. Hazırda yeni funksiya hazırlanma mərhələsindədir.

## "Microsoft"un yeni məhsulu

**"Microsoft" şirkəti kiçik və yüngül süni intellekt modeli "Phi-3 Mini"ni təqdim edib. Yeni cihazın xüsusiyyətləri böyük marağa səbəb olub. "Phi-3 Mini" "GPT-3.5" kimi böyük dil modelləri ilə eyni tutuma malik olsa da, daha az resurs sərf edir.**




"Microsoft" həmçinin 7 milyard parametrli "Phi-3 Small" və 14 milyard parametrli "Phi-3 Medium"u da təqdim etməyi planlaşdırır. Parametrlər modelin nə qədər mürəkkəb təlimatı başa düşə biləcəyini göstərir. Şirkət dekabrda "Phi-2"ni təqdim edərək bu modelin "Llama 2" kimi daha böyük modellərə bənzər performans təklif etdiyini iddia etmişdi. "Phi-3" öncəkindən daha yaxşı nəticələr göstərir və böyük modellərə yaxın cavablar verə bilir.

"Microsoft" "Phi-3"ə kiçik məlumat dəstləri ilə işləyən şirkətlər üçün ideal həll yolu kimi baxır. Yeni züni zəka modelinin geniş əlçatanlığı olmasa da, şirkətlərin xüsusi tətbiqləri üçün yaxşı seçim ola bilər. Kiçik məlumat dəstləri və aşağı hesablama gücü tələbləri "Phi-3"ü bir çox şirkət üçün sərfəli edir. Bu, "Microsoft"un AI texnologiyasının kiçik, yüngül və daha əlçatan modellərini inkişaf etdirmək strategiyasına uyğun bir addımdır.

## Süni zəkaya əsaslanan etibarlı dil modelləri

**ABŞ-nin Stanford Universiteti dünyanın ən etibarlı süni intellekt dil modellərini araşdırıb. Tədqiqat "DecodingTrust" prinsipləri çərçivəsində aparılıb.**

"DecodingTrust" sistemi ədalətlilik, qərəzsizlik, məxfiliyin qorunması, təhlükəsizlik və maşın öyrənmə etikası kimi mühüm mövzularda süni intellekt dil modellərini qiymətləndirir. Buna əsaslanaraq, Stanford Universiteti bütün süni zəka dil modellərini sınaqdan keçirərək onları etibarlılıq səviyyəsinə görə sıralayıb.

Araşdırmaya görə, ən etibarlı süni intellekt dili modeli "Anthropic" tərəfindən hazırlanmış "Claude-2"dir. Bu süni intellekt dil modeli keçirilən testlərdə 84,52 bal toplaya bilib. İkinci yerdə "Meta"nın "Llama-2-Chat-7b" dil modeli qərarlaşıb.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*


## OXUCULARIN VƏ MƏTBUATYAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə*

***2024-cü il üçün abunə yazılışı davam edir!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**


RƏSMİ DÖVLƏT QƏZETİ
AZƏRBAYCAN
AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI
QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR
Prezident İlham Əliyevin Almaniyaya işgüzar səfəri
AZƏRBAYCAN Avropa üçün əhəmiyyətli tərəfdaşdır
"COP29 bütün dünya üçün faydalı olacaq"
Delimitasiya işlərinin 35 faizi yerinə yetirilib
Sülhə doğru daha bir addım atılıb
Ölkəmiz qlobal dəhliz layihələrinin də əsas iştirakçılarındandır
azerbaijan-news.az

**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya **(Tel.: (012) 539-59-33)** zəng vura bilərsiniz.*


## Prokurorluq əməkdaşları 2 hektar ərazidə 1500-dən çox ağac əkiblər



Azərbaycan Respublikasında 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi ilə əlaqədar aprelin 27-də Baş Prokurorluq, Baş Prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi, Hərbi Prokurorluq, Bakı şəhər və paytaxtın tabe rayon prokurorluqlarının əməkdaşları, həmçinin prokurorluğun veteranları Ekologiya və Təbii Sərvətlər Nazirliyinin yaxından dəstəyi ilə növbəti ağacəkmə kampaniyası keçiriblər. Baş Prokurorluqdan verilən məlumata görə, tədbir çərçivəsində ümumilikdə 2 hektar ərazidə 1500-dən çox ağac əkilib.

Kampaniyadan sonra baş prokuror Kamran Əliyev prokurorluğun veteranları ilə görüşərək onlarla səmimi söhbət edib.

*"Azərbaycan"*

## Son 8 ayda 9,9 faizlik inflyasiya

### İş adamları İrəvandan qaçır, məğlub ölkədə pul köçürmələrinin axını xeyli azalır

**Baş nazir Nikol Paşinyanın rəsmi Moskvaya qarşı atdığı addımlar fonunda İrəvan böyük problemlərlə üzləşməkdədir. Bunun bir səbəbi də son dövrlərdə dünya iqtisadiyyatında yaranan qeyri-müəyyənlik və qlobal çətinliklərin digər ölkələrlə müqayisədə Hayastana daha çox dağıdıcı təsir göstərməsidir.**

Son 8 ayda Hayastanda inflyasiya 9,9 faiz qeydə alınıb. Bildirilir ki, son bir ilə kimi Ermənistanın ixracının 28 faizi, idxalının 37 faizi, turizm axınının, birbaşa xarici investisiyaların və pul köçürmələrinin 40 faizi Rusiyanın payına düşüb. Həmçinin proqnozlaşdırılır ki, pul köçürmələrində gözlənilən azalma ilə yanaşı, Hayastanda ev təsərrüfatlarının istehlakı da aşağı düşəcək və iqtisadi artıma mənfi təsir göstərəcək. Ermənistan iqtisadiyyatı üçün əhəmiyyətli risk xarici valyutada olan dövlət borcunun həddən çox artması, nisbətən zəif xarici maliyyə və geosiyasi risklərdir.

Ekspertlər bildirirlər ki, vəziyyəti gərginləşdirən amillərdən biri də ölkəyə gələn miqrantlardır. Tələbin əhəmiyyətli dərəcədə artması ərzaq, mənzil alqı-satqısı, kirayə, restoran və hotellər, gözəllik salonları, taksi xidmətləri, maliyyə və poçt xidmətləri sahələrində qiymət artımına səbəb olub.

Son aylarda Hayastana pul köçürmələri şəklində vəsait axını davamlı olaraq azalmaqdadır."168.am" nəşri yazıb ki, bunlar kiçik məbləğlər olmasa da, ayda bir neçə yüz milyon dollara çatsa da, Rusiya-Ukrayna münaqişəsinin əvvəlində və ondan sonrakı ilk il ərzində mövcud olan aktiv axınlar artıq yoxdur. Qeyd edilib ki, ötən ilin ikinci yarısından etibarən pul köçürmələrinin axını azalır, özü də bu, yüksək templə gedir. Əvəzində kapitalın xaricə axını artır: "Kifayət qədər pul ölkədən kommersiya və qeyri-kommersiya axını şəklində çıxır. Çıxan pullar artıb. Əsasən qeyri-kommersiya xarakterli axınlar artıb. Söhbət nə idxalın, nə də ticarətin maliyyələşdirilməsi adı ilə ölkədən kənara çıxan pullardan gedir. Bunlar tam olmasa da, daha çox Hayastandan çıxarılan, başqa sözlə, ölkədən təhlükəsizlik və digər məqsədlər üçün digər ölkələrə köçürülən pullardır. Pullar Ermənistanı ölkədən mühacirət edən və əmlakını çıxaran vətəndaşlar vasitəsilə də tərk edir". Nəşr bildirib ki, iki ayda Hayastandan 617 milyon dollar xaricə pul axını olub.

"4rd.am" saytının 37 yaşlı kiçik sahibkar Levon Naumyanla hazırladığı reportajında qeyd edilir ki, o da xaricdən köçürmələr alır. Dolların devalvasiyası onun gəlirlərinə xeyli mənfi təsir edib. Qazancının dramlara çevrilməsindən o, indi keçən illə müqayisədə təxminən 25 faiz zərər çəkir: "Bundan əlavə, o, mənzil kirayələyir və indi aylıq kirayə haqqı olaraq 200.000 dram (təxminən 512 dollar) ödəməlidir, halbuki keçən il ödəniş cəmi 160.000 dram (təxminən 410 dollar) idi. Mənzil sahibi şərt qoyub: ya Levon ilin sonunda mənzili boşaldacaq ki, o, öz mənzilini baha qiymətə Fransadan gələnlərə verə bilsin, ya da qalmaq istəyirsə, daha çox pul ödəməlidir".

Bunlar göstərir ki, hazırda vəziyyət tamamilə iflasa uğrayan Hayastan üçün daha faciəvidir. Heç bir istehsalı olmayan, iqtisadiyyatı çökən ölkədə ümumi daxili məhsulun (ÜDM) artımı bu durumda mümkün olmayacaq. Əksinə, sözügedən sahədə tənəzzül olması və böyük gerilənmənin yaşanması tamamilə gözləniləndir. Hazırda əsas proqnozlar ondan ibarətdir ki, Ermənistanda dolların və digər xarici valyutaların qiyməti bundan sonra da artacaq. Elə bu səbəbdən ölkədə zəruri ərzaq mallarının qiyməti getdikcə qalxır.

Hökumət dramın möhkəmlənməsi üçün imkanların mövcud olmadığını bildirir. Çünki valyuta ehtiyatları çox azdır. Xaricdən, xüsusən də Rusiyadan köçürülən pulların miqdarının azalması isə daha böyük iqtisadi problemlərə yol açır. Mətbuatın yazdığına görə, un və un məhsulları (çörək) və dənli bitkilərin qiyməti orta hesabla 7,4 faiz, süd məhsulları və pendirin qiyməti orta hesabla 5,8 faiz, yumurtanın qiyməti isə 13,1 faiz artıb. Əhalinin ödəmə qabiliyyəti isə daha çox azalıb.

Bütün bunlar isə Hayastanın qarşıdakı günlərdə daha böyük problemlərlə üzləşəcəyindən xəbər verir.

*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikasının Təhlükəsizlik Şurasının katibi Ramil Usubov Yeni Azərbaycan Partiyası İdarə Heyətinin üzvü Mübariz Qurbanlıya bacısı

**ZƏRƏNGİZ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikasının Təhlükəsizlik Şurasının katibi Ramil Usubov Milli Məclisin Səhiyyə komitəsinin sədri, akademik Əhliman Əmiraslanova qardaşı

**VAQİF ƏMİRASLANOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 4248
Sifariş 898

Qiyməti 60 qəpik